


«GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞACAQ».

HEYDƏR ƏLİYEV

# HÜQUQİ MÜSTƏVİ

## ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:


**Zaur ƏLİYEV** – *Redaksiya Şurasının sədri, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin Sədrinin birinci müavini;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq elmləri doktoru;*

**Vasiliy FELİK** – *Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin rektoru, professor, hüquq elmləri doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq elmləri doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq elmləri doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq elmləri doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadiyyatın tənzimlənməsi" kafedrası, professor, hüquq elmləri doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Hüquq" kafedrasının müdiri, professor, hüquq elmləri doktoru;*

**Arif QULİYEV** – *Kiyev Əqli Mülkiyyət və Hüquq Institutu, akademik, hüquq elmləri doktoru;*

**Yaroslav LAZUR** – *Ujqorod Milli Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq elmləri doktoru;*

**Yelena BAQREYEVA** – *Rusiya Federasiyası Hökumətinin yanında Maliyyə Universiteti, professor, hüquq elmləri doktoru;*

**Yesberqen ALAUXANOV** – *"Qazaxıstanın Elm və Həyatı" beynəlxalq elmi-kütləvi jurnalın baş redaktoru, professor, hüquq elmləri doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası, professor, hüquq elmləri doktoru.*

# №1(14)

**2020-ci ilin yanvar ayından çıxır.**

*Təsisçi və baş redaktor:*

**Əliyev Etibar Əli oğlu,** hüquq elmləri doktoru, professor.

*Fəxri təsisçi təşkilat:*

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK)



## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

**Elmi redaktor – *MƏMMƏDOV R.F.* –** Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq ümumi hüquq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

**Elmi məsləhətçi – *MƏMMƏDOV Ə.Q.* –** BDU Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Məsul redaktor** — ***HÜSEYNOVA F.E.*** – BDU Hüquq fakültəsinin "BXH və Avropa hüququ" kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**İnzibatçı redaktor** — ***HƏSƏNZADƏ S.B.*** – Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, dosent, hüquq üzrə elmlər doktoru.

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun dosenti, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru.

— ***HÜSEYNOV M.H.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.



***Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.***

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**

***Redaksiyanın ünvanı:***

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 230-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az
http://www.hmj.az/index.php/hmj

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 06.11.2019-cu il tarixdə dövlət qeydiyyatına alınmışdır (dövlət qeydiyyat №-si 1306401681).

12 yanvar 2024-cü il tarixdə 150 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

2024

I RÜB

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

# NÖVBƏDƏNKƏNAR AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNİN ELAN EDİLMƏSİ HAQQINDA

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

**2.** Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 dekabr 2023 cü il

# Ümummilli Lider Heydər Əliyev – dövlətə və xalqa xidmətin ali meyarını yaratmış tarixi şəxsiyyət

**Mübaliğəsiz demək olar ki, Ümummilli Liderin fəaliyyətinin əsasını təşkil edən həyat fəlsəfəsi, böyük dövlətçilik təcrübəsi, zəngin siyasi irsi onu dövrünün fenomeni statusuna yüksəltdiyi kimi, həm də gələcək nəsillər üçün nümunəyə, məktəbə çevirdi. Məhz bu səbəbdən xalqımız Heydər Əliyevin xatirəsini əziz tutur, onu minnətdarlıqla anır və 100 illik yubileyini əsl bayram kimi qeyd edir. Heydər Əliyev daim azərbaycanlıların qəlbində yaşayacaq, onun adı hər zaman milli fəxarət rəmzi kimi çəkiləcəkdir.**

**Samir NURİYEV,**
**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması müasir tariximizin həlledici anında, Azərbaycan xalqının gələcək taleyinin müəyyənləşdiyi mürəkkəb dövrdə müstəsna xidmətlər göstərmiş Ulu Öndərə dövlətimizin verdiyi yüksək qiymətdir. Keçdiyi zəngin həyat yolu, Vətən və xalq qarşısında misilsiz xidmətləri Heydər Əliyevi öz tarixi, milli dəyərləri, dövlətçilik ənənələri ilə fəxr edən azərbaycanlıların qürur mənbəyinə çevirmişdir. Əminliklə demək olar ki, onun böyüklüyü öz xalqı və dövləti üçün gördüyü misilsiz işlərdə bilavasitə əksini tapıb. Ümummilli Lider tutduğu vəzifədən və şəraitdən asılı olmayaraq, ən mürəkkəb məsələlərin məsuliyyətini üzərinə götürərək onların yüksək səviyyədə həllinə nail olmuşdur.

Hələ 1969-cu ildə Heydər Əliyevin rəhbərlik etməyə başladığı Azərbaycan keçmiş Sovet İttifaqının solğun mənzərəyə malik aqrar respublikalarından biri idi. Dövrün bütün məhrumiyyətlərinə baxmayaraq, Heydər Əliyevin səyləri nəticəsində qısa zamanda işə salınmış nəhəng potensial Azərbaycanı ittifaq miqyasında inkişaf edən nüfuzlu respublikaya çevirdi, ölkə həyatında sosial-iqtisadi, mədəni yüksəliş baş verdi. Bu dövrdə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə sənayedə əsas fondların 69 faizi yeniləndi, 250-dən çox zavod, fabrik istifadəyə verildi. Əgər 1969-cu ilədək olan dövrdə Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərliyi dövründə onların sayı 1048-ə çatdırıldı. Sənaye istehsalı və kənd təsərrüfatında əmək məhsuldarlığı 2 dəfə artdı, xalq təsərrüfatında gəlir ümumittifaq göstəricisini 2 dəfə üstələdi.

Heydər Əliyevin ölkəmizin kadr potensialının inkişaf etdirilməsi istiqamətində gördüyü işlər həqiqətən də heyrətamizdir. Məhz Ulu Öndərin gərgin səyləri nəticəsində 1971-ci ildə Bakıda C.Naxçıvanski adına Respublika orta ixtisaslaşdırılmış internat məktəbi yaradıldı və milli hərbi kadrların yetişdirilməsinə başlanıldı. SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikada ən çox ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 17 mi-

nədək azərbaycanlı gəncin təhsil alması təmin olundu.

Sovet kommunist ideologiyası şəraitində Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda sosial, iqtisadi, elmi, mədəni və digər sahələrdə ciddi uğurlar əldə edilməklə yanaşı, milli-mədəni dəyərlərin qorunması, milli yaddaşın tədricən dirçəldilməsi və milli özünüdərkin inkişaf etdirilməsi istiqamətində əməli addımlar atıldı. Prezident İlham Əliyev Ulu Öndərin həmin dövrdəki fəaliyyəti haqqında deyib: "Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olmuşdur və bunu zamana, siyasi vəziyyətə baxmayaraq etmişdir. Sovet Azərbaycanı dönəmində 10 ildən artıq müddətdə Sovet Azərbaycanının rəhbəri olanda və hətta ideoloji əngəllər çərçivəsində o, Azərbaycan xalqının maraqlarını qoruyurdu və milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. Yetmişinci illərdə və səksəninci illərin əvvəlində onun tərəfindən atılmış bir çox addıma nəzər salsaq görərik ki, onlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdir". Buna görə də Heydər Əliyev Azərbaycan xalqının milli-mədəni irsinin qorunub saxlanmasına, bu irsin formalaşmasında böyük rolu olan tarixi şəxsiyyətlərə yüksək diqqət ayırıb. 1970-ci illərdən başlayaraq Ulu Öndərin təşəbbüsü və iştirakı ilə görkəmli söz ustalarının, alim və mütəfəkkirlərin yubileyləri təntənə ilə qeyd edilməyə başlandı, İmadəddin Nəsiminin 600 illik yubileyi 1973-cü ildə UNESCO səviyyəsində keçirildi, 1930-cu illərin siyasi repressiyalarının qurbanı olmuş böyük şair Hüseyn Cavidin cənazəsi 1982-ci ildə uzaq Sibirdən doğma vətəni Naxçıvana gətirildi. 1978-ci il Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunda təsbit olunması Ümummilli Liderin xalqımız qarşısında ən böyük xidmətlərindən biridir.

Ulu Öndər yüksək şəxsi keyfiyyətləri və qısa müddətdə respublikada əldə etdiyi böyük uğurlar sayəsində ittifaq miqyasında şöhrət qazandı və 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Heydər Əliyev bu dövrdə də Azərbaycana xüsusi diqqət ayırdı, verdiyi ardıcıl tapşırıqlar, qəbul etdiyi qərarlar onun doğma Vətəni üçün xidmətinin növbəti mərhələsini təşkil etdi.

Hər bir xalqın tarixində keşməkeşli dövrlər olub, lakin onların hamısı heç də bu sınaqdan uğurla çıxa bilməyib. Tarixdə şəxsiyyətlərin rolunu araşdıran əksər tədqiqatçıların ümumi rəyinə əsasən, belə hallarda hadisələri düzgün təhlil edib, qiymətləndirib zəruri addımlar atmağı, qərarlar qəbul etməyi bacaran liderlərin olması həlledici şərtlərdən biridir. Onlar haqlı olaraq fərdi xüsusiyyətlərin və əldə olunmuş təcrübənin liderin xarakterini və davranışını izah etdiyini bildirirlər. Deməli, istənilən hadisəyə münasibət fərdlərin xarakterinə, şəxsiyyətinə uyğun olaraq dəyişir və fərqli məzmunda özünü büruzə verir. Heydər Əliyevin Qanlı 20 Yanvar hadisələrinin səhəri günü Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməsi, sovet qoşunlarının Bakıda törətdiyi qırğını qətiyyətlə və sərt şəkildə qınaması onun böyük vətənpərvərliyinin ifadəsi idi. Məhz bu vətənpərvərlik Heydər Əliyevi Moskvadan Bakıya, oradan isə doğulub böyüdüyü Naxçıvana apardı.

Mübaliğəsiz demək olar ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın keçdiyi yolun hər bir mərhələsinin əsasında 1990-cı illərin əvvəllərində tarixi missiya ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Liderin uzaqgörənliklə hazırladığı, həm daxili siyasi xüsusiyyətləri, həm də beynəlxalq sistemin qanunauyğunluqlarını nəzərə alan milli dövlətçilik strategiyası dayanır.

Politoloji nöqteyi-nəzərdən dövlət müstəqilliyinin əldə edilməsi xalqların azadlığı yolunda dönüş nöqtəsi hesab olunsa da, Ulu Öndərin dəfələrlə vurğuladığı kimi, "həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir". Heydər Əliyev dühası doğma Vətəni dağılmaq təhlükəsindən xilas etməklə kifayətlənmədi, o daha böyük amal – Azərbaycanın həqiqi müstəqilliyi uğrunda mübarizə apardı, bütün bilik və bacarığını, imkanlarını səfərbər edərək bu müstəqilliyi əbədi və dönməz etdi.

Müstəqilliyin ilk illərində buraxılan səhvlər mürəkkəb tarixi-siyasi şəraitdə və qeyri-müəyyən geosiyasi mühitdə Azərbaycanı ciddi təhdid və çağırışlarla üz-üzə qoymuş, ölkəni uçurumun astanasına sürükləmişdi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, mərkəzi hakimiyyətin cinayətkar səriştəsizliyi, xarici amillərin təsiri altında mərkəzdənqaçma meyillərinin güclənməsi, daxili silahlı qarşıdurmanın tədricən vətəndaş müharibəsinə çevrilməsi ölkəmizin üzləşdiyi problemlərin böyük miqyasından xəbər verirdi. Təsadüfi deyil ki, 1992-ci ildə istehlak qiymətləri 1991-ci ilə nisbətən 10 dəfədən çox, 1993-cü ildə 1992-ci ilə nisbətən 12,3 dəfə artdı, ümumi daxili məhsul hər il orta hesabla 16,5 faiz, əhalinin pul gəlirləri 3,3 dəfə, əməkhaqları isə 5,7 dəfə azaldı. Mərkəzi Bankın faiz dərəcələri 250 faizə çatdı, milli valyuta ucuzlaşaraq Rusiya rubluna nisbətdə 9 dəfə, ABŞ dollarına nisbətdə isə 245 dəfə aşağı düşdü.

Həmin dövrdə hakimiyyətdə olmuş qüvvələrin uğursuzluğu və zəif cəhəti ondan ibarət idi ki, onlar nə ölkə daxilində, nə regionda, nə də ümumilikdə qlobal səviyyədə cərəyan edən prosesləri, yeni dünya nizamını və bu nizamda Azərbaycanın yerini təsəvvür edə bilmirdilər. İctimai-siyasi sabitliyi təmin etmək əvəzinə, daxildə gərginliyi artıran addımlar atılır, səriştəsiz kadrların özbaşınalığı hələ dövlətin formalaşmamış idarəçilik sisteminə və dövlət institutlarının funksionallığına zərbə vurur, hərbi və təhlükəsizlik məsələlərinin həlli sistemli yanaşma tələb etdiyi halda, silahlı dəstələr cəmiyyətdə terror ab-havası yaradır, xarici siyasət prioritetləri müəyyən edilmədən beynəlxalq əlaqələrin qurulmasına yönəlmiş uğursuz addımlar atılırdı. Bu cür şəraitdə sosial-iqtisadi, hüquqi islahatların həyata keçirilməsindən danışmaq belə mümkün deyildi. Zaman dövlətin qısamüddətli və uzunmüddətli dövr üçün prioritetlərinin, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsini və cəmiyyətin bütün potensialının, maddi-mənəvi resursların bu vəzifələrin icrası üçün səfərbər olunmasını tələb edirdi.

Respublikada ağır vəziyyətin hökm sürdüyü bir dövrdə mərkəzi hakimiyyət ölkəni fəlakətə sürükləyən problemləri aradan qaldırmaq əvəzinə, blokadada olan və məhz Heydər Əliyevin səyləri sayəsində ayaq üstə dayanan Naxçıvan MR-də və-

ziyyəti gərginləşdirməyə cəhd göstərirdi. Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il mayın 10-da Naxçıvan MR-ə səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində həmin dövrü aydın təsvir edir: "Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsi ilə əlaqəni itirmişdi. Ermənilər Naxçıvanı blokadaya almışdılar. Üç tərəfdən Naxçıvan Ermənistanla əhatə olunur. Belə bir vəziyyətdə Naxçıvanı qorumaq, müdafiə etmək və düşməni yerinə oturtmaq Ulu Öndərin müstəsna xidmətlərindən biridir. O vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü bütün imkanları səfərbər etmişdi ki, Naxçıvanda Heydər Əliyevi devirsinlər, öz marionetlərini gətirsinlər və faktiki olaraq Naxçıvanı da ermənilərə bağışlasınlar. Onlar buna da hazır idilər, təki Heydər Əliyev amili Azərbaycan siyasətindən götürülsün".

Ancaq Ümummilli Lider nə Ermənistanın muxtar respublikanın ərazilərini işğal etmək planlarının, nə də mərkəzi hakimiyyətin məkrli niyyətlərinin reallaşmasına imkan vermədi. Ulu Öndər Naxçıvan kimi strateji coğrafi ərazinin qorunması, əhalinin təhlükəsizliyinin təmin edilməsi, sosial problemlərinin həlli ilə yanaşı, ümumilikdə Azərbaycanın istiqlaliyyəti uğrunda gərgin mübarizəyə qalxdı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə işə başlayan 12-ci çağırış Naxçıvan Ali Sovetinin 1-ci sessiyasında "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərarlar qəbul olundu, muxtar respublikanın adından "sovet", "sosialist" sözləri çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan MR-in dövlət bayrağı kimi təsdiq edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar respublika miqyasında qəbul edilsin. Bu, Ulu Öndərin Vətən qarşısında növbəti tarixi xidməti idi.

Təbii ki, həmin dövrdə aparılan gərgin müzakirələrdə ziyalılar, cəmiyyətin görkəmli nümayəndələri, sıravi vətəndaşlar kimin ölkəni fəlakətdən xilas edəcəyi ilə bağlı sual vermirdilər. Çünki cəmiyyətimizin yekdil rəyi ondan ibarət idi ki, yalnız müdrik şəxsiyyət, böyük siyasi təcrübəyə malik Heydər Əliyev bu missiyanı üzərinə götürüb Azərbaycanı ağır vəziyyətdən xilas edə, dövlətçiliyimizi qoruyub saxlaya bilər.

1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə Bakıya qayıdan Heydər Əliyevin müdrik siyasəti, qətiyyəti və yenilməz iradəsi sayəsində Azərbaycan qısa müddətdə təhlükələri dəf edə bildi, silahlı qarşıdurmaya son qoyuldu, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, siyasi mübarizənin sivil və konstitusion çərçivədə davam etdirilməsi üçün əsaslar yaradıldı. Ulu Öndər bütün məsuliyyəti öz üzərinə götürərək dövlətin yaxın və uzunmüddətli hədəflərini müəyyənləşdirdi, cəmiyyətin, ictimai münasibətlərin yeni əsaslarla transformasiyası ilə bağlı zəruri resursları səfərbər etdi və Azərbaycanın ardıcıl inkişafı üçün siyasi-iqtisadi baza formalaşdırdı. 1995-ci ildə Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi və hüquqi islahatların həyata keçirilməsinə başlandı. İflic vəziyyətə salınmış dövlət idarəçilik sistemi yenidən quruldu, dövlət qurumlarının işinə münasibətdə meyarlar, tələblər dəyişdi. Ulu Öndər bəyan edirdi: "Xalqın, millətin mənafeyini hər

bir kəsin mənafeyindən üstün tutmaq lazımdır". Heydər Əliyev qədim və zəngin dövlətçilik ənənələrimizi bərpa etməklə yenidən müstəqilliyinə qovuşmuş dövlətimizin möhkəm təməllər üzərində ardıcıl inkişafına nail oldu. Bəli, bizim taleyimiz tam fərqli ola bilərdi, lakin 1993-cü ilin dönüş nöqtəsi milli dövlətçiliyimizə yenidən nəfəs verdi, xalqımızın qurtuluş salnaməsinin parlaq səhifəsini açdı.

Sovet dövründə respublikalar arasında qurulan qarşılıqlı əlaqələrin pozulması və daxildə kəskinləşmiş tənəzzül faktiki olaraq iqtisadi siyasətin kökündən dəyişdirilməsini və yeni iqtisadi inkişaf modelinin tətbiqini tələb edirdi. Heydər Əliyevin təklif etdiyi model iki mühüm sütuna əsaslanırdı: iqtisadi sahədə yeni münasibətləri formalaşdıracaq islahatlar və milli inkişafın təməlini təşkil edəcək yeni neft strategiyası. Köhnə iqtisadi modelin iflasa uğradığı və "vəhşi kapitalizm" prinsiplərinin geniş ayaq açdığı bir şəraitdə keçid iqtisadiyyatı dövrü üçün dövlətin tənzimləyici funksiyasının saxlanması zəruri idi. Bu, həm dövlətin yönləndirici fəaliyyətinə ehtiyac duyan iqtisadiyyatın tarazlı inkişafını şərtləndirirdi, həm vətəndaşların sosial rifahının yaxşılaşmasında dövlətin birbaşa iştirakını təmin edirdi, həm də ilkin mərhələdə milli iqtisadiyyatı qloballaşmanın "dağıdıcı təsiri"ndən qoruyurdu. Nəzəri müstəvidə dövlətin bu prosesə müdaxilə edib-etməməsi hələ də müzakirə predmetidir, bəzən təcrübə bu və ya digər tərəfin arqumentlərini dəstəkləyir. Lakin məşhur iqtisadçı, Nobel mükafatı laureatı Jozef Stiqlitsin qeyd etdiyi kimi, "bazarın çatışmazlıqları" Adam Smitin klassik "görünməz əl" ideyasına əsaslanan modellərin reallığın mürəkkəb xüsusiyyətlərini tam əhatə etmədiyini göstərir və iqtisadi fəaliyyətin dinamikasına əlavə dəyər gətirən dövlətin rolunu qaçılmaz edir.

Azərbaycanda keçid iqtisadiyyatı dövrü ilə bağlı təklif olunan və həyata keçirilən inkişaf modeli beynəlxalq iqtisadi sistemin "amansız rəqabət" və "ədalətsiz mübarizə" reallıqları fonunda islahatların ciddi fəsadlar olmadan reallaşdırılmasını və sonrakı dövrdə sürətli inkişaf üçün zəruri bazanın yaradılmasını təmin etdi.

Heydər Əliyevin inkişaf strategiyası iqtisadi subyektlərin fəaliyyət mühitini yaxşılaşdırmaqla yanaşı, dövlətin uzunmüddətli perspektivdə ehtiyac duyulan maliyyə resursları ilə təmin edilməsinə hesablanmışdı. Bu mənada 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" qlobal əhəmiyyətə malik hadisə olmaqla yanaşı, həm də Azərbaycanın gələcək inkişafının fundamentini təşkil etdi. Nə Xəzər dənizinin hüquqi statusunun təyin edilməməsi, nə də regional geosiyasi mühitin ziddiyyət təşkil edən maraqları Ulu Öndərin iradəsini dəyişdirə bildi. Xarici sərmayə üçün açılan Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi, 2002-ci ildə çoxlarının xəyal hesab etdiyi Bakı-Tbilisi-Ceyhan əsas neft ixracı kəmərinin təməlinin qoyulması nəticəsində ölkəmiz mühüm karbohidrogen ixracatçısına və enerji dəhlizinə çevrildi. Neft və qaz resurslarından əldə edilən vəsaitlərin səmərəli idarə edilməsi üçün 1999-cu ildə Dövlət Neft Fondunun yaradılması milli neft strategiyasının ümumi mənzərəsini tamamlayan

və onu sosial-iqtisadi inkişafın sütununa çevirən mühüm qərar oldu.

Heydər Əliyevin iqtisadi strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 faiz artdı. 2002-ci ildə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1993-cü ilə nisbətən 36,3 dəfə çoxaldı. Əgər 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək 128 dövləti əhatə etdi. Yaxud 1996-cı ildə ölkədə 602 xarici investisiyalı müəssisə fəaliyyət göstərirdisə, 2002-ci ildə bu rəqəm 3,5 dəfə artaraq 2104-ə çatdı. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artdı. Ulu Öndər əhalinin sosial rifahının yüksəldilməsi məsələsini daim diqqət mərkəzində saxlayaraq 1993-2003-cü illərdə sosial inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi üçün 60-dan çox sənəd imzaladı. Nəticədə 1995-2003-cü illərdə pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, orta aylıq əməkhaqqı 6 dəfədən çox artdı.

Ümummilli Liderin həyata keçirdiyi fəal xarici siyasət Azərbaycanın suverenliyini və təhlükəsizliyini daha da gücləndirdi, ölkənin böyük güclərin konfrontasiya meydanına çevrilməsinə imkan vermədi, əksinə, region və dünya ölkələri ilə qarşılıqlı maraqlara əsaslanan, bərabərhüquqlu əməkdaşlıq münasibətlərini inkişaf etdirdi. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutaraq bütün beynəlxalq tribunalarda Ermənistanın təcavüzünün və işğalçı siyasətinin ifşası ilə bağlı məqsədyönlü iş apardı. ATƏT-in 1996-cı ildə keçirilmiş Lissabon Sammitində Heydər Əliyevin qətiyyəti sayəsində Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının prinsipləri təsbit edildi, Azərbaycanın ədalətli mövqeyinin dünya birliyi tərəfindən müdafiə olunması istiqamətində mühüm addım atıldı, münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə möhkəmləndirildi.

Qeyd edilməlidir ki, İkinci Dünya müharibəsindən sonrakı dövrdə beynəlxalq hüquq konseptual xarakter alaraq dövlətlərarası münasibətləri tənzimləyən norma və qaydaları özündə cəmləşdirdi. Lakin konkret hallarla bağlı onların tətbiqinə selektiv yanaşma, verilən qərarların böyük dövlətlərin iradəsindən və maraqlarından asılı vəziyyətə düşməsi beynəlxalq hüququn aliliyini sarsıtdı və problemli məsələlərin həllində yenidən "kim güclüdür, o da haqlıdır" prinsipi işləməyə başladı. Məhz bu səbəbdən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü və suveren Azərbaycan ərazilərinin işğalını qınayan BMT Təhlükəsizlik Şurasının qətnamələri bu təşkilat tərəfindən heç zaman icra edilmədi. Beynəlxalq münasibətlərdə ədalətsizliyin rəmzinə çevrilən mövcud ikili standartlar BMT-nin funksionallığını itirməsindən və acizliyindən qaynaqlanırdı. Mövcud şəraitdə Heydər Əliyev həm diplomatik müstəvidə ardıcıl və məqsədyönlü siyasət yürüdərək bir tərəfdən Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını sürətləndirdi, xarici əlaqələrini möhkəmləndirdi və münaqişənin ədalətli həlli üçün səylərini ardıcıl şəkildə gücləndirdi, eyni zamanda iqtisadi dirçəlişin açdığı imkanlardan istifadə edərək nizami ordu quruculuğuna xüsusi diqqət ayırdı.

Heydər Əliyevin Azərbaycan xalqı və gələcək nəsillər qarşısında ən böyük xidmətlərindən biri də milli ideoloji konsepsiyanın formalaşdırılmasıdır. Qeyd edilməlidir ki, 200 il ildən artıq müddətdə müxtəlif imperiyaların işğalına məruz qalmış Azərbaycan xalqının birlik ideyası ciddi deformasiyaya uğramışdı və cəmiyyətdə bir növ ideoloji boşluq yaranmışdı. 1990-cı illərin ortalarında milli kimliklə bağlı müzakirələrin getdiyi bir vaxtda Heydər Əliyev böyük uzaqgörənliklə azərbaycançılıq ideyasını irəli sürdü və təşviq etdi. Heydər Əliyev deyirdi: "Biz müstəqilliyimizi yalnız milli həmrəylik əsasında qoruyub saxlaya biləcəyik. Biz Azərbaycanın xoşbəxt gələcəyini yalnız bu əsasda təmin edə biləcəyik. Məhz bu əsasda biz Azərbaycanı müharibə şəraitindən çıxara biləcəyik. Məhz bu əsasda biz Azərbaycanın ərazi bütövlüyünü təmin edə biləcəyik". Ulu Öndərin tarixi əhəmiyyət kəsb edən bu fikirləri Azərbaycan xalqını bölünməz, müstəqil dövlətimizi isə dünya azərbaycanlıları üçün vahid məkan kimi nəzərdən keçirir. Birləşdirici amil kimi çıxış edən azərbaycançılıq ideologiyası elmi-ictimai müzakirələrin istiqamətini təyin etdi, Heydər Əliyevin "mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" ifadəsi azərbaycanlı milli kimliyini qürur mənbəyinə çevirdi.

Tarixçilərin fikrincə, yaşadığımız hazırkı zaman ondan əvvəlki zamanın müəyyən mənada davamı kimi çıxış edir, bu gün və dünən arasında mütləq şəkildə qırılmaz bağlılıq mövcuddur. Bu baxımdan siyasi-ideoloji varislik Azərbaycanın qədim dövlətçilik tarixinin son otuz ilini əhatə edən müasir inkişaf mərhələsində milli dövlətimizin yenidən təşəkkülü, konsolidasiyası və tərəqqisi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu illər ərzində Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə bünövrəsini qoyduğu müasir Azərbaycan daha sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə qısa müddətdə böyük yol qət etdi, onun siyasi iradəsi, bacarıqlı idarəçiliyi və qətiyyəti sayəsində öz qüdrətinin zirvəsinə yüksəldi.

Son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi inkişaf yolu Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu milli inkişaf strategiyasının elmi əsaslara malik fundamental mahiyyətini bir daha təsdiq etdi. Artıq 2003-cü ilin sonlarında Azərbaycanın iqtisadi cəhətdən güclü dövlətə çevrilməsi, dünyada özünə layiqli yer tutması, ölkədə sosial problemlərin həlli və əhalinin rifahının daha da yaxşılaşdırılması hədəfə götürüldü. Ardıcıl şəkildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları icra olundu, iqtisadiyyatın qeyri-neft sektoru inkişaf etdirildi, ölkənin sənaye potensialı gücləndirildi, kənd təsərrüfatının ayrı-ayrı sahələri dirçəldildi, sosial sahədə inqilabi qərarlar qəbul olundu və yerinə yetirildi. Müasir dövrün reallıqları nəzərə alınmaqla daim təkmilləşdirilən strateji xəttin həyata keçirilməsi nəticəsində Azərbaycan artıq 2009-cu ildə iqtisadi keçid dövrünü başa vuraraq güclü iqtisadi potensial formalaşdırmağa nail oldu. Ölkədə geniş miqyas almış quruculuq işlərinin məntiqi nəticəsi olaraq bütün infrastruktur yeniləndi, şəhər, kənd və qə-

səbələrin siması müasirləşdi, cəmiyyət həyatının bütün sahələrində böyük dəyişikliklər baş verdi.

Azərbaycan öz tərəfdaşları ilə "Şahdəniz" yatağından hasil olunan qazın dünya bazarına çıxarılması üçün "Cənub qaz dəhlizi" layihəsini həyata keçirərək dünyanın enerji xəritəsini dəyişdirdi və Avropanın enerji təhlükəsizliyini təmin edən əsas mənbələrdən birinə çevrildi. bp şirkəti ilə tarixə "Yeni əsrin müqaviləsi" kimi düşmüş saziş imzalandı, enerji sahəsində digər tədbirlər həyata keçirildi. Bütün bunlar ölkəmizə hələ uzun onilliklər ərzində böyük maliyyə vəsaitlərinin axınını təmin etməklə yanaşı, onun dünyada əsas enerji ixracatçılarından biri kimi qalmasını təmin etdi. Coğrafi baxımdan Avropa ilə Asiyanın, Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın nəqliyyat-kommunikasiya sahəsində potensialının reallaşdırılması istiqamətində mühüm addımlar atıldı, ölkəmizdə müasir nəqliyyat infrastrukturu yaradıldı. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin formalaşmasında fəal iştirak edərək bu layihələrin icrasına önəmli töhfələr verdi.

Bu illər ərzində Azərbaycan fəal və məqsədyönlü diplomatiya həyata keçirərək ikitərəfli və çoxtərəfli əlaqələrini gücləndirdi, çoxsaylı yeni tərəfdaşlar qazandı, yeni dövlətlərarası əməkdaşlıq formatlarının təşəbbüskarı oldu, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına, Qoşulmama Hərəkatına və digər nüfuzlu beynəlxalq təşkilatlara rəhbərlik etdi. Böyük güc və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş kimi tanınan ölkəmizin irəli sürdüyü təşəbbüslər dünya miqyasında dəstəkləndi. Bütün bunlar Azərbaycan həqiqətlərini daha geniş coğrafiyada dünya ictimaiyyətinə çatdırmağa, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini tam ifşa etməyə, aparıcı beynəlxalq təşkilatların bu işğalı pisləyən qərarlar qəbul etməsinə şərait yaratdı.

Azərbaycanın güclü iqtisadi potensialı müasir ordu quruculuğuna şərait yaratdı, Azərbaycan Ordusu dünyanın aparıcı orduları sırasında layiqli yer tutdu. Ölkəmizdə müdafiə sənayesi formalaşdırıldı, Silahlı Qüvvələrimiz ən müasir silah-sursatla təchiz olundu.

Cəmiyyətimizdə sosial ədalət, humanizm prinsiplərinin daha da möhkəmlənməsi, sosial sahənin inkişafı, xalqımızın zəngin milli-mədəni irsinin qorunub saxlanması və dünyada təbliği sahəsində Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş dövlət siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun böyük rolu vardır. Dövlət idarəçiliyi sistemində operativliyin, şəffaflığın daha geniş vüsət alması, vətəndaşlarımızın, xüsusilə aztəminatlı təbəqənin və həssas qrupların problemlərinin həlli, keyfiyyətli təhsilin, tibbi xidmətin hər bir cəmiyyət üzvü üçün əlçatanlığının təmin edilməsi, nəhəng beynəlxalq tədbirlər zamanı səmərəli idarəetmə hörmətli Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm bir hissəsini təşkil edir. Heydər Əliyev Fondunun ölkə daxilində həyata keçirdiyi çoxsaylı layihələr mədəni irsimizin öyrənilməsi, bərpası, qorunması və təbliği işinə, sosial, ekoloji və

digər məsələlərin həllinə güclü dəstəkdir. Fondun müxtəlif ölkələrdə həyata keçirdiyi tədbirlər ümumbəşəri mədəni irsin qorunub saxlanmasına töhfə olmaqla yanaşı, Azərbaycanın dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınmasında əhəmiyyətli rol oynayır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs xalqımızın həmrəyliyinin daha da möhkəmlənməsini, bütün dünya azərbaycanlılarının vahid məqsəd uğrunda sıx birliyini təmin etdi.

Beləliklə, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu ikinci onilliyin sonlarında Azərbaycan iqtisadi və hərbi gücün yaratdığı potensialı reallaşdıraraq, fəal diplomatiyanın uğurlarını praktiki müstəviyə keçirərək və beynəlxalq hüququn verdiyi imkanlardan yararlanaraq tarixi ədaləti bərpa etmək imkanı qazandı. Ermənistanın gündən-günə artan ambisiyaları, qeyri-konstruktiv davranışları, xüsusilə ardıcıl təxribatları bu tarixi vəzifənin yerinə yetirilməsini daha da asanlaşdırdı.

Azərbaycan Ermənistanın təxribatlarına cavab olaraq və özünü müdafiə hüququndan istifadə edərək 44 gün davam edən Vətən müharibəsində tarixi ədaləti bərpa etdi. Azərbaycan hərbi əməliyyatları beynəlxalq hüququn tələbləri və mövcud qaydalar çərçivəsində, ləyaqətlə apardı, mülki əhalini hədəfə alan, qadağan olunmuş silahlardan istifadə edən düşmənə döyüş meydanında qətiyyətlə cavab verdi. Ermənistanın Azərbaycanın şərtləri altında kapitulyasiya aktını imzalaması tarixi torpaqlarımızla, Vətənimizin bir parçası ilə ayrılığımıza son qoydu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirərək Şuşanı azad etdi və Ümummilli Liderin, xalqımızın ən böyük arzusunu həyata keçirdi. Prezident İlham Əliyev deyib: "Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi və biz onun arzusunu gerçəkləşdirdik. Biz bununla fəxr edirik, biz buna sevinirik. Təkcə Azərbaycan vətəndaşları yox, bütün azərbaycanlılar buna sevinir. Bütün dünya azərbaycanlıları bizim Qələbəmizlə qürur duyurlar. Bu, ədalətin, tarixi ədalətin bərpa olunmasının, beynəlxalq hüququn qələbəsi idi".

Bu tarixi Zəfər dərin zəkaya və iti təfəkkürə malik, bütün ömrünü xalqına xidmətə həsr etmiş Heydər Əliyevin milli inkişaf strategiyasının, siyasi-ideoloji varisliyin məntiqi nəticəsidir. Ulu Öndərin qətiyyətli, inamlı və düşünülmüş qərarları sayəsində yenidən dirçəlib güclənmiş müasir Azərbaycan Prezident İlham Əliyevin liderliyi ilə beynəlxalq münasibətlərin konfiqurasiyasında mühüm aktora, regionda sabitliyin və inkişafın hərəkətverici qüvvəsinə çevrilib.

Prezident İlham Əliyev qeyd edib ki: "Heydər Əliyevin Azərbaycan tarixindəki rolunun çox böyük əhəmiyyətini, bəlkə də, indi tam demək çətindir. Vaxt keçdikcə, zaman keçdikcə, Heydər Əliyevin fəaliyyəti dolğun şəkildə təhlil olunandan sonra biz bu insanın əzəmətini, Azərbaycan xalqına verdiyi töhfəni daha da yaxşı görəcəyik". Ulu Öndərin fəaliyyəti və siyasi irsi hələ uzun dövr bundan sonra geniş və ətraflı araşdırılacaq, onun konseptual fikirləri, tarixi qərarları gələcəkdə də müstəqil Azərbaycanın inkişafı ilə bağlı məsələlərin həllində baza rolunu oynayacaqdır.

# İXTİSASLAŞMIŞ VƏ PEŞƏKAR HÜQUQŞÜNAS KADRLARIN YETİŞDİRİLMƏSİ VACİB AMİLDİR

**Zaur ƏLİYEV,**
**Bakı Dövlət Universitetinin**
**Hüquq fakültəsinin dekanı,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent.**

***Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın milli sərvəti" adlandırdığı Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsi 95 il ərzində şərəfli yol qət etmişdir. 1928-ci il dekabrında yaradılmış Hüquq fakültəsi Azərbaycan dövlətinin və cəmiyyətinin inkişafında əhəmiyyətli rol oynamış, bu günə kimi yüksəkixtisaslı hüquqşünas kadrların hazırlanmasında əsas bazanı təşkil etmiş və etməkdə davam edir.***

Ölkənin malik olduğu təbii sərvətlərin cəmiyyətin hərəkətverici və məhsuldar qüvvəsi olan insan kapitalına çevrilməsi bu gün ali təhsilin qarşısında dayanan ən vacib vəzifələrdən biridir. Müasir, qloballaşan dünyada hər bir ölkənin iqtisadiyyatının davamlı və dinamik inkişafı onun uğurlu gələcəyi, inkişaf etmiş ölkələr sırasına inteqrasiyası, həm də həmin ölkədə ali təhsilin səviyyəsi ilə müəyyən olunur. Dövlətin inkişafı və güclənməsi istiqamətində fədakarlıq göstərən milli kadr potensialının yetişdirilməsində ali təhsilin, xüsusilə də hüquq təhsilinin əhəmiyyəti danılmazdır. Beynəlxalq münasibətlər sistemində milli maraqlarının layiqli təmsil edilməsi və qorunmasını istəyən hər bir dövlət güclü, innovativ və tərəqqipərvər bir ali təhsil sisteminə malik olmalıdır. Məhz belə bir sistemin formalaşmasında mühüm rolu olan Hüquq fakültəsi bu 95 ildə dövlətçiliyin möhkəmləndirilməsi, hüquq qaydasının təmin edilməsi işinə mühüm töhfələr vermiş, zaman-zaman ciddi problemlərlə də üzləşmişdir.

Ümummilli Lider Heydər Əliyevin SSRİ dövründə Azərbaycana rəhbərliyə gəlməsi ilə dövlətdə və cəmiyyətdə baş verən müsbət dəyişikliklər Hüquq fakültəsinə də sirayət etmişdir. Belə ki, 1969-cu ildən başlayaraq Ulu Öndər Heydər Əliyev respublikanın uzunmüddətli inkişaf strategiyasını kompleks şəkildə işləyib hazırladı və həyata keçirməyə başladı. Bu strategiyada hüquq elminin və təhsilinin inkişafına xüsusi diqqət yetirilirdi. Məhz buna görə də digər sahələrdə olduğu kimi, BDU-nun ən böyük fakültələrindən olan Hüquq fakültəsinin də əsas inkişaf tarixi bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ümumiyyətlə, Hüquq fakültəsinin inkişaf tarixinə nəzər salsaq, bunu bir neçə mərhələyə bölmək olar. Ən mühüm mərhələ əlbəttə ki, Ümummilli Lider Heydər

Əliyevin respublikamıza rəhbər təyin olunduğu dövrdən başlayır. O vaxta qədər Hüquq fakültəsinə yalnız yüksək vəzifəli şəxslərin övladları daxil ola bilirdilər. Ancaq Ulu Öndərin ədalətli islahatları nəticəsində bürokratik maneə aradan qaldırıldı. Bu, o zaman çox böyük inqilabi addım idi. Yəni sadə ailələrdən olan uşaqlar da artıq Hüquq fakültəsinə daxil olmağa başladılar. Ulu Öndər o vaxt milli kadrların hazırlanması ilə həm də müstəqilliyimizin təməlini qoyurdu. Ona qədər hüquq üzrə kadrlar əsasən rus, ukraynalı və digər millətlərdən idi. Ancaq Ulu Öndərin göstərişi ilə İttifaqın müxtəlif ölkələrinə hüquq təhsili almağa göndərilən azərbaycanlı tələbələr təhsillərini başa vurduqdan sonra Vətənə döndülər və milli kadrlar formalaşmağa başladı.

Növbəti inkişaf mərhələsi Ulu Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsindən sonrakı dövrə aiddir. Heydər Əliyevin təhsil siyasətində hüquqşünaslara dəstək göstərilməsi hər zaman göz önündə olmuşdur. Ümummilli Lider Heydər Əliyevin elm və təhsil siyasətinin ən başlıca məqsədi milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş və müasir dünyagörüşünə malik olan, yenilikləri qiymətləndirməyi bacaran və rəqabətqabiliyyətli kadrların hazırlanmasından ibarət olmaqla yanaşı, eyni zamanda bu kadrların Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk etməsinə, milli dəyərlərimizə və demokratik prinsiplərə hörmət edən, vətənpərvər, müstəqil və yaradıcı şəxsiyyət kimi yetişməsinə xidmət etmişdir.

Müstəqillik illərində də Ümummilli Lider tərəfindən ali təhsilin inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul edilmişdir. 2000-ci ildə ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırılmış, onlara universitet statusu verilmişdir. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsilə başladılar ki, bu da respublikamızda hüquq sahəsində də azad tədqiqatçıların sayının artmasına təkan vermişdir.

Bildiyimiz kimi, beynəlxalq səviyyəyə uyğunluq elmi fəaliyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Elm sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir. Ulu Öndərin Azərbaycan elmi və təhsili ilə bağlı apardığı islahatlarda bu prinsip hər zaman rəhbər tutulmuşdur. Ümummilli Lider tərəfindən xaricdə təhsil ənənəsinin əsası qoyulmuş və bu ənənə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında həyata keçirilən gənclər siyasəti Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə daha da inkişaf etmişdir. Məhz bu gənclik Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun əsas qüvvəsi olaraq 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış əzəli və əbədi torpaqlarımızı düşməndən azad etdi.

Dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətdə gənclərin məhkəmə, icraedici orqanlarda irəli çəkilməsi, həm də hazırda parlamentdə gənc depu-

tatların təmsil olunması mühüm əhəmiyyətə malikdir.

Eləcə də müxtəlif xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər və məzunlar, orada çalışan gənc mütəxəssislər Azərbaycan diasporunun formalaşmasında və fəaliyyətində yaxından iştirak edirlər. Dövlətimizin başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə dəstəyinin bariz nümunəsidir.

Bu sahədə Heydər Əliyev Fondunun rolu əvəzsizdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti Ümummilli Liderin xeyirxahlıq missiyasının davamı olmaqla həm də təhsilin inkişafına xidmət edir.

Hüquq fakültəsi Azərbaycan dövlətinin formalaşdırdığı geniş beynəlxalq əməkdaşlıq siyasətindən bəhrələnərək dünyanın aparıcı ali hüquq məktəbləri ilə səmərəli əlaqələr qurmuşdur. Dövlətimizin dəstəyi ilə hüquq ixtisası üzrə Avropada, ABŞ-da, Türkiyədə və digər xarici dövlətlərdə təhsil almış azərbaycanlı məzunlar bu gün Hüquq fakültəsində tədris prosesini uğurla aparırlar. Burada fakültəmizin elm və tədris sahəsində beynəlxalq əlaqələrinin inkişaf etdirilməsini xüsusi vurğulamalıyıq. Belə perspektivli təhsil siyasəti Hüquq fakültəsi üçün də öz uğurlu nəticəsini vermişdir. Fakültəmizdə hazırda iki xarici universitetlə ikili diplom proqramı üzrə təhsil davam etdirilir: Qazaxıstanın Əl-Fərabi adına Milli Universiteti ilə imzalanmış ikili diplom proqramı haqqında müqavilə əsasında həyata keçirilən "Dəniz və enerji hüququ" magistratura ixtisaslaşması üzrə ikili diplom proqramı və Fransanın Lion-2 Universiteti ilə birgə "Əqli mülkiyyət hüququ" magistratura ixtisaslaşması üzrə ikili diplom proqramı. Belə proqramlar iki fərqli dövlətdə təhsil almaq imkanı təqdim etdiyi üçün müəyyən bir mövzu haqqında daha geniş bilik və bacarıq əldə etməyə şərait yaradır.

Məhz bütün bu qeyd olunanlar Hüquq fakültəsinin inkişafının üçüncü mərhələsini - müasir mərhələsini əhatə edir. Hüquq fakültəsi bu gün yeni inkişaf yoluna qədəm qoymuşdur. Son bir il ərzində görülən tədbirlər fakültənin əsas prioritet istiqamətlərinə uyğun olaraq onun inkişafına və tədris prosesinin təkmilləşdirilməsinə xidmət edir. Fakültə üzrə tədris sahəsində beynəlxalq əlaqələrin inkişafı nəticə etibarilə təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsinə gətirib çıxarmışdır. Belə ki, BMT, onun müxtəlif təsisatları, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığı, BMT-nin Uşaq Fondu, Avropa Şurası, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər təşkilatlarla hüquq təhsilinin inkişafı sahəsində əməkdaşlıq və bu təşkilatların nümayəndələri tərəfindən fakültəmizin tələbələri üçün müntəzəm şəkildə mühazirələrin keçirilməsi, eləcə də beynəlxalq təşkilatların respublikamızda olan nümayəndəliklərinin təcrübəsindən yararlanmaq fakültənin başlıca fəaliyyət istiqamətlərindən birini təşkil edir. Bütün bunların nəticəsində Hüquq fakültəsinin tələbələri BMT-nin resurs mərkəzindən istifadə etmək imkanı əldə etmişlər.

Hüquq fakültəsinin elmi bazasının müasir tələblərə cavab verən vəsaitlərlə zənginləşdirilməsi qarşıya qoyulan əsas məqsədlərdən biri kimi çıxış edir. Bu məqsədin yerinə yetirilməsi üçün yeni dərslik, dərs vəsaiti və tədris proqramlarının yüksək elmi səviyyədə hazırlanaraq nəşr olunmasına ciddi əhəmiyyət verilir. Fakültədə bakalavriat və magistratura səviyyələri üçün müasir dövrün tələblərinə uyğun tədris planları, fənn proqramları, dərsliklərin işlənib hazırlanması istiqamətində mütəmadi işlər aparılır. Təkcə onu demək kifayətdir ki, "Heydər Əliyev İli" çərçivəsində fakültə tərəfindən Ulu Öndərin 100 illiyinə həsr edilmiş bir sıra dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar nəşr edilmişdir. Cari il ərzində Fakültə tərəfindən hüququn müxtəlif sahələri üzrə 50-dən çox kitab hazırlanaraq nəşr olunmuşdur ki, onlardan 36-sı dərsliklərdir. Bundan əlavə, 2023-cü ilin yanvar ayından bu günədək fakültə əməkdaşlarının dərc etdirdiyi elmi məqalələrin sayı 200-ü ötmüşdür. Fakültədə elmi fəaliyyət sahəsində nəzərəçarpacaq artım müşahidə olunur.

Bu gün Hüquq fakültəsində tədris prosesinin yeni metodikalar əsasında aparılmasına üstünlük verilir. Belə ki, fakültə istər tədris prosesinin təşkilində, istərsə də elmi tədqiqatların həyata keçirilməsi sahəsində nəzəriyyə və təcrübəni əlaqələndirmək istiqamətində səmərəli fəaliyyət göstərərək, hibrid tədris metodunu ortaya qoymuşdur.

Müxtəlif dövlət orqanları ilə əməkdaşlıq çərçivəsində praktiki işçilərin tələbələrə mühazirələr söyləməsini, müxtəlif dövlət orqanlarının, həmçinin məhkəmələrin fəaliyyəti ilə tanışlıq səfərlərinin təşkilini qeyd etmək olar. Bu məqsədlə, 2022-ci ildən başlayaraq, Hüquq fakültəsi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında razılaşmaya əsasən, fakültənin tələbələri üçün Ədliyyə Nazirliyinin müxtəlif struktur bölmələrində mühazirələr keçirilir.

Fakültənin mütəmadi əməkdaşlıq etdiyi qurumlardan biri də Azərbaycan Respublikasının Vəkillər Kollegiyasıdır. Tələbələr Vəkillər Kollegiyasının dəstəyi ilə müntəzəm olaraq nüfuzlu beynəlxalq məhkəmə müsabiqələrində və digər yarışlarda iştirak edərək fakültəni layiqincə təmsil edirlər. Həmçinin tələbələrimiz müxtəlif vəkil bürolarında təcrübə keçərək praktik bilik və bacarıqlarını artırırlar.

Hüquq fakültəsi, həmçinin Azərbaycan Respublikasının Milli Məclisi, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Baş Prokurorluq, Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əqli Mülkiyyət Agentliyi, Ombudsman Aparatı, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Hüquq və İnsan Haqları İnstitutu, Mediasiya Şurası ilə də tədris sahəsində sıx əməkdaşlıq edir. Əqli Mülkiyyət Agentliyi ilə əməkdaşlıqda fakültədə yeni kafedra - Əqli mülkiyyət hüququ kafedrası yaradılmışdır. Əqli mülkiyyət hüququ ixtisaslaşması üzrə təhsil alan magistrantların dərslərinin praktiki hissəsi Agentlikdə keçirilir ki, bu da tələbələrin peşəkar mütəxəssis kimi formalaşmasında mühüm rol oynayır.

Belə təcrübənin gələcək illərdə müxtəlif dövlət orqanları ilə əməkdaşlıq çərçivəsində həyata keçirilməsi planlaşdırılır ki, bu da

öz növbəsində peşəkar hüquqşünas kadrların yetişdirilməsinə xidmət edir. Bütün bunlar məhz hüquq elminin və təhsilinin müasir standartlara uyğun təşkilinə, təcrübi biliklərin əldə olunmasına, gənclərimizin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına yönəlib.

Hüquq fakültəsi, həmçinin "Heydər Əliyev İli" çərçivəsində "Ulu Öndər Heydər Əliyevin hüquq islahatları" adlı maarifləndirmə kampaniyasına başlamışdır. Kampaniyanın əsas məqsədi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin irsinin, o cümlədən hüquqi islahatlarının təbliğ edilməsindən ibarətdir.

Hüquq fakültəsinin əsas missiyalarından biri də vətənpərvər, hüquqi dövlət quruculuğuna və hüquqi islahatlara töhfə verə biləcək mütəxəssislərin hazırlanmasından ibarətdir. Bu baxımdan, informasiya cəmiyyətinin formalaşdığı bir dövrdə tələbələrin dünyada və respublikamızda baş verən hadisələrlə bağlı düzgün məlumatlandırılması fakültənin informasiya mübadiləsində aktiv iştirakını təmin edir.

Hüquq fakültəsinə tələbələrin cəlb olunması və onların bilavasitə iştirakı ilə tədris prosesinin təkmilləşdirilməsi ən başlıca məqsədlərdən birini təşkil edir. Bu məqsədin yerinə yetirilməsi zamanı Magna Charta Universitatum (Universitetlərin Böyük Xartiyasının) müddəaları rəhbər tutulur. Xartiyada bəyan olunan ikinci prinsipə əsasən, tədris və tədqiqat bir-birindən ayrılmalı və tələbələr bilik axtarışında aktiv iştirak etməlidirlər. Bu baxımdan, tələbələrin aktiv iştirakını təmin edən bir çox fakültədaxili tədbirlər tədris prosesinin mühüm hissəsini təşkil edir.

Fakültənin tarixində ilk dəfə olaraq həyata keçirilən "Tələbə tərəfindən tələbə üçün" layihəsi xüsusi qeyd olunmalıdır ki, layihənin icrasına 2022-ci ilin dekabrından başlanmışdır. Layihənin əsas məqsədi təlimçi tələbənin öz biliklərini tələbə yoldaşları ilə bölüşmək və qarşılıqlı şəkildə öyrənməkdir.

Fakültədə elm və tədrisin keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar Təşkilatının da aktiv fəaliyyətini qeyd etməliyik.

Tələbə Elmi Cəmiyyəti tərəfindən "Hein Online" və "Scopus" məlumat bazasına daxil olan "Tələbə Hüquq Jurnalı" nəşr olunur. Bu jurnalda müasir hüquq elminin aktual problemlərinə həsr olunmuş elmi məqalələr çap olunur ki, bu elmi məqalələri tələbələr həm fakültənin professor-müəllim heyəti ilə həmmüəllifliklə, həm də fərdi qaydada yazırlar.

Bütün bunlar fakültəmizin beynəlxalq səviyyədə hüquq elminin inkişafı sahəsində uğuru olmaqla bərabər, jurnalda dərc edilən məqalələrin beynəlxalq auditoriyaya çıxışını təmin edir. Tələbələrimizin bu kimi elmi uğurları həqiqətən qürurvericidir.

Fakültə Prezident təqaüdçülərinin sayına görə BDU-da birinci yerdədir. Bu il BDU üzrə 10 Prezident təqaüdçüsünün 9-u məhz Hüquq fakültəsinin tələbələridir.

Hüquq fakültəsində elmi məktəblərin tam formalasdırılması istiqamətində mühüm işlər aparılır, xarici mütəxəssislər tədris

prosesinə cəlb edilirlər. Eyni zamanda, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumlarında Hüquq fakültəsinin əməkdaşları ekspert qismində iştirak edərək qanunvericiliyin müxtəlif sahələri üzrə rəy verirlər. Hüquq fakültəsi müxtəlif hüquq sahələri üzrə qanunvericiliyin təkmilləşdirilməsi təklifləri ilə də çıxış edir. Ötən il fakültə tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinə "ekosid" və "urbisid" əməllərinin kriminallaşdırılması ilə əlaqədar olaraq 104-1 və 104-2-ci maddələrinin əlavə edilməsi haqqında təkliflər hazırlanmış, Fakültə Elmi Şurasının 26 dekabr 2022-ci il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş və müvafiq olaraq Azərbaycan Respublikasının Milli Məclisinə və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinə göndərilmişdir. Bu təkliflərin qəbul olunacağı təqdirdə, Azərbaycan urbisid cinayətini kriminallaşdıran ilk dövlət olacaqdır.

Bundan əlavə, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" 9 iyun 2023-cü il tarixli Qanunun icrası ilə bağlı Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrası tərəfindən mülki işlərdə həssas qruplardan olan şəxslərin ödənişsiz yüksək keyfiyyətli peşəkar hüquqi yardıma əlçatanlılığın təkmilləşdirilməsi məqsədilə Mülki Prosessual Məcəlləyə bir sıra dəyişiklik və əlavələrin edilməsinə dair təkliflər hazırlanaraq Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinə göndərilmişdir.

Bir məqamı da xüsusilə qeyd etmək zəruridir ki, Hüquq fakültəsinin tələbə və məzunları Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən torpaqlarının işğalçılardan azad edilməsində də fəal iştirak etmişlər. 44 günlük Vətən müharibəsi zamanı Hüquq fakültəsinin 50-dən çox tələbə və məzunu Vətən uğrunda döyüşlərdə könüllü iştirak etmiş, fakültəmizin məzunu Şalıyev Ceyhun Nüsrət oğlu isə qəhrəmancasına şəhid olmuşdur.

Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycanın suverenliyinin və konstitusiya quruluşunun tam bərpa olunması, qədim və tarixi diyarımız Xankəndi şəhərində bayrağımızın dalğalanmasının məhz "Heydər Əliyev İli"nə, Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxta təsadüf etməsi böyük rəmzi məna daşıyır. Vaxtilə Ulu Öndərimiz hüquqi, demokratik və güclü Azərbaycan dövlətini qurmaqla bugünkü qələbələrimizin təməlini qoymuşdur.

Beləliklə, Hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə yüksəkixtisaslı kadrların hazırlanmasında əsas elmi mərkəz rolunda çıxış edir. Tam şəkildə dövlətçiliyimizə və hüquq qaydasının möhkəmləndirilməsinə xidmət etməklə, o cümlədən Azərbaycan cəmiyyətində xüsusi yeri olmaqla hüquqşünas kadrların yetişdirilməsində Hüquq fakültəsi xüsusi və əvəzolunmaz rol oynayır. Bütün bu qeyd olunanlar Hüquq fakültəsinin fəaliyyətində inkişaf dinamikasının yüksək olduğunu və fakültənin Ulu Öndər Heydər Əliyevin ənənəsinə və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətçilik siyasətinə sadiqliyini bir daha təsdiq edir.

| | |
|---|---|
| 14:50 – 15:00 | **Milli qanunvericilikdə kollizion normaların təsnifatı**<br>Zaur Əzimov<br>Bakı Dövlət Universiteti |
| 15:00 – 15:10 | **Естественный закон и природа права**<br>Лейла Алиева<br>Бакинский Государственный Университет |
| 15:10 – 15:20 | **Hüquqi psixologiyanın ünsürləri**<br>İlyas Cəfərov<br>Bakı Dövlət Universiteti |
| 15:20 – 15:30 | **Hüquq təhsilində innovativ yanaşmalar**<br>Əziz Qasımov<br>Naxçıvan Dövlət Universiteti |

9

**21 DEKABR, CÜMƏ AXŞAMI**

**BÖLMƏ İCLASLARI**

**Bölmə 1-2:** Azərbaycan Respublikası Konstitusiyasının inkişaf tendensiyaları

**Sədr:** Ziyafət Əsgərov
**2 saylı tədris binası, auditoriya № 205**

| | |
|---|---|
| 14:00 – 14:10 | **Demokratiya və hüquqi dövlətin qarşılıqlı əlaqəsi**<br>Ziyafət Əsgərov<br>Bakı Dövlət Universiteti |
| 14:10 – 14:20 | **İnsan hüquq və əsas azadlıqlarının müdafiəsinə dair Avropa Konvensiyasının konstitusiya ədalət mühakiməsinə təsiri**<br>Ceyhun Qaracayev<br>Bakı Dövlət Universiteti |
| 14:20 – 14:30 | **Konstitusiya nəzarəti orqanlarının təcrübəsində qanunların konstitusiyaya uyğun təfsiri (konstitusion conform təfsir)**<br>Rövşən İsmayılov<br>Bakı Dövlət Universiteti |
| 14:30 –14:40 | **Dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasının beynəlxalq-hüquqi problemləri**<br>Aytəkin İbrahimova<br>Bakı Dövlət Universiteti |

10

| | |
|---|---|
| 14:40 – 14:50 | **"Amparo proseduru"nun tətbiq edildiyi dövlətlərin konstitusiyanın hüquqi mühafizəsi ilə bağlı təcrübəsi**<br>Nəsib Şükürov<br>Bakı Dövlət Universiteti |
| 14:50 – 15:00 | **İnsan hüquqlarının müdafiəsində dövlətdaxili müdafiə mexanizmlərin əsas xüsusiyyətləri**<br>Sübhan Əliyev<br>Bakı Dövlət Universiteti |
| 15:00 – 15:10 | **Azərbaycan Respublikasında qüvvədə olan əmək qanunvericiliyinin bir sıra məsələləri və hüquqi məsuliyyət haqqında**<br>Gülşən Cəbi<br>Bakı Dövlət Universiteti |
| 15:30 – 15:40 | **Azərbaycan Respublikası seçki qanunvericiliyinin müasir dövrdə inkişafı: problemlər və perspektivlər**<br>Elşad Nəsirov<br>Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası |
| **15:40 – 16:00** | **Fasilə** |
| 16:00 – 16:10 | **Orta Asiya türk dövlətlərində parlament nəzarətinin konstitusiya-hüquqi tənzimlənməsi**<br>Qulamhüseyn Əlibəyli<br>Bakı Dövlət Universiteti |
| 16:10 – 16:20 | **Azərbaycan Respublikasında demokratik dövlət quruculuğunun inkişafında Heydər Əliyevin rolu**<br>Şirastan Yusubov<br>Bakı Dövlət Universiteti |

11

| | |
|---|---|
| 16:20 - 16:30 | **Роль конституционного правосудия в обеспечении прав и свобод человека и гражданина**<br>Парвана Бабаева<br>Бакинский Государственный Университет |
| 16:30 - 16:40 | **Problem ıssues ın lawmakıng**<br>Elmira Qazvinova<br>Baku State University |
| 16:40 - 16:50 | **Peşəkar hüquqi yardım hüququnun təminatları sistemində vəkillik institutunun yeri**<br>Polad Mehdiyev<br>Bakı Dövlət Universiteti |
| 16:50 - 17:00 | **Конституционные основы механизма защиты прав человека в Азербайджане**<br>Ельвира Юсифова<br>Бакинский Государственный Университет |
| 17:00 - 17:10 | **İnzibati hüquqi aktların etibarsızlığının əsasları**<br>Şəhriyar Cəfərzadə<br>Bakı Dövlət Universiteti |
| 17:10 - 17:20 | **İnzibati orqanlarda aparılan inzibati icraatın növləri**<br>Zərifə Məmmədova<br>Bakı Dövlət Universiteti |
| 17:20 - 17:30 | **Понятие и сущность гражданского общества**<br>Шахин Шукуров<br>Академия Полиции МВД Азербайджанской Республики |

12

**21 DEKABR, CÜMƏ AXŞAMI**

**BÖLMƏ İCLASLARI**

**Bölmə 1-3:** Müasir dövrdə cinayət hüququnun əsas inkişaf tendensiyaları

**Sədr:** Şəhla Səmədova
**2 saylı tədris binası, auditoriya № 219**

| | |
|---|---|
| 14:00 – 14:10 | **Преюдиция в уголовном праве: быть или не быть**<br>Шахла Самедева<br>Бакинский Государственный Университет |
| 14:10 – 14:20 | **Sosial ədalətin bərpası – cəzanın məqsədi kimi**<br>Məleykə Bayramova<br>Bakı Dövlət Universiteti |
| 14:20 – 14:30 | **İctimai təhlükəli nəticənin növlərə bölgüsü haqqında**<br>Səkinəxanım Rzayeva<br>Bakı Dövlət Universiteti |
| 14:30 – 14:40 | **Müasir dövrdə cəzanın humanistləşdirilməsinin istiqamətləri**<br>Cabir Quliyev<br>Bakı Dövlət Universiteti |
| 14:40 – 14:50 | **Narkotiklə mübarizəyə dair beynəlxalq sənədlərin qəbulunun inkişaf mərhələləri**<br>Aynurə Musayeva<br>Bakı Dövlət Universiteti |

13

| | |
|---|---|
| 14:50 – 15:00 | **Adam oğurluğunun problem məsələləri**<br>Həbib Cəfərov<br>Bakı Dövlət Universiteti |
| 15:00 – 15:10 | **Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərin subyektləri**<br>Orxan Aslanov<br>Bakı Dövlət Universiteti |
| 15:10 – 15:20 | **Cinayət qanunvericiliyində kömək göstərməmə hərəkətsizliyin forması kimi**<br>Vüqar Sadiqli<br>Bakı Dövlət Universiteti |
| 15:20 – 15:30 | **Kibercasusluq: onun hüquqi, etik və strateji nəticələrinin naviqasiyası**<br>Erkin Musayev<br>Bakı Dövlət Universiteti |
| 15:30 – 15:40 | **İnsan orqan və toxumalarının alqı-satqısı cinayətinin əlamətləri**<br>Jalə Qənbərova<br>Bakı Dövlət Universiteti |
| **15:40 – 16:00** | **Fasilə** |
| 16:10 – 16:20 | **Cinayət hüquq siyasətinin müasir inkişaf tendensiyaları**<br>Habil Qurbanov<br>Azərbaycan Milli Elmlər Akademiyası |
| 16:20 – 16:30 | **Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə**<br>Mirəli Kazımov |

14

| | |
|---|---|
| | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi |
| 16:30 – 16:40 | **Правовая цель и способы ее реализации в условиях обеспечения международной и национальной безопасности**<br>Константин Гаврюшкин<br>Восточно-Сибирский институт МВД России |
| 16:40 – 16:50 | **Уголовно-правовая политика: соотношение международных и национальных приоритетов**<br>Вадим Авдеев<br>Югорский Государственный Университет |
| 16:50 – 17:00 | **Проблемы уголовно-правового регулирования военных преступлений в Украине**<br>Виталий Кузнецов<br>Национальная Академия правовых наук Украины |
| 17:00 – 17:10 | **Правовые ценности в условиях глобализации**<br>Ольга Авдеева<br>Восточно-Сибирский институт МВД России |
| 17:10 – 17:20 | **Правовая политика в сфере обеспечения личной безопасности**<br>Алексей Аксёнов<br>Московский университет им. А.С.Грибоедова |
| 17:30 – 17:40 | **Проблемы эффективности уголовного наказания**<br>Екатерина Шумакова<br>Восточно-Сибирский институт МВД России |

15

| | |
|---|---|
| 17:40 – 17:50 | **Уголовно-правовая политика в сфере охраны окружающей среды**<br>Антон Квитко<br>Югорский Государственный Университет |
| 17:50 – 18:00 | **Terrorism: typology and threats**<br>Stela Botnaru, **Veronica Pozeacova**<br>Moldova State University |

16

**21 DEKABR, CÜMƏ AXŞAMI**

**BÖLMƏ İCLASLARI**

**Bölmə 1-4:** Cinayət prosesi və kriminalistikanın aktual problemləri

**Sədrlər:** Firuzə Abbasova, Kamil Səlimov
**2 saylı tədris binası, auditoriya № 303**

| | |
|---|---|
| 14:00 – 14:10 | **Məhkəmə islahatlarında Heydər Əliyevin hüquq siyasətinin rolu**<br>Firuzə Abbasova<br>Bakı Dövlət Universiteti |
| 14:10 – 14:20 | **Məhkəməyədək icraatda prokurorun hüquqi vəziyyəti**<br>Midhəd Qəfərov<br>Bakı Dövlət Universiteti |
| 14:20 – 14:30 | **К вопросу о процессуальном положении потерпевшего в уголовном процессе**<br>Джабир Халилов<br>Бакинский Государственный Университет |
| 14:30 – 14:40 | **Müdafiə nitqinin kriminalistik cəhətləri**<br>Ərəstun Qasımov<br>Bakı Dövlət Universiteti |
| 14:40 – 14:50 | **Azərbaycan Respublikasında elektron məhkəmə informasiya sisteminin istifadə xüsusiyyətləri**<br>Könül Hüseynova, **Mədinə Qasımova**<br>Bakı Dövlət Universiteti |

17

| | |
|---|---|
| 14:50 – 15:00 | **Məhkəmə nəzarətinin problemləri**<br>Abbas Atakişi<br>Bakı Dövlət Universiteti |
| 15:00 – 15:10 | **Cinayət-prosessual müdafiə obyektinin müəyyən edilməsinin prosessual və nəzəri problemləri**<br>Sevinc Sadıqova<br>Bakı Dövlət Universiteti |
| 15:30 – 15:40 | **Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri**<br>Lalə Məmmədova<br>Bakı Dövlət Universiteti |
| **15:40 – 16:00** | **Fasilə** |
| 16:00 – 16:10 | **Azərbaycan Respublikasının cinayət prosesində publiklik prinsipi**<br>Qəhrəman Cəfərov<br>Bakı Dövlət Universiteti |
| 16:10 – 16:20 | **Dövlət ittihamçısının müstəqil prosessual subyektə çevrilməsinin aktuallığı problemləri**<br>Rauf Rüstəmov<br>Bakı Dövlət Universiteti |
| 16:20 – 16:30 | **Проблемы соотношения логических умозаключений и законодательных актов в процессе доказывания по уголовным делам в Азербайджанской Республике**<br>Фарид Халилзаде<br>Бакинский Государственный Университет |

18

| | |
|---|---|
| 16:30 – 16:40 | **Cinayət prosesində həqiqətin müəyyən edilməsinin bəzi məsələləri**<br>Aygün Cəbiyeva<br>Bakı Dövlət Universiteti |
| 16:40 – 16:50 | **Hüququn ümumi prinsiplərinin anlayışını müəyyənləşdirməyin fəlsəfi aspektləri**<br>Bəxşeyiş Əsgərov, **İpək Abbasova, Mübariz Mustafayev**<br>Bakı Dövlət Universiteti |
| 16:50 –17:00 | **Глобальная контртеррористическая стратегия Организации Объединенных Наций и необходимость совершенствования работы по исправлению и перевоспитанию лиц, осужденных за религиозный терроризм**<br>Камиль Салимов, **Камран Салимов**<br>Бакинский Государственный Университет |
| 17:00 – 17:10 | **İqtisadi cinayətlərin aşkar edilməsində sənədli təhlilin metodlarından istifadə edilməsi**<br>Qardaş Hüseynov<br>Bakı Dövlət Universiteti |
| 17:10 – 17:20 | **Оглашение приговора: различные подходы в законодательстве Азербайджана и России**<br>Анатолий Белкин<br>Российский Технологический Университет |
| 17:20 – 17:30 | **Новые подходы в изучении криминалистики: история и современность**<br>Николай Букаев<br>Московский Государственный Университет (Оренбургский филиал) |

19

**21 DEKABR, CÜMƏ AXŞAMI**

**BÖLMƏ İCLASLARI**

**Bölmə 1-5:** Müasir dövrdə beynəlxalq hüquq və insan hüquqlarının aktual problemləri

**Sədrlər:** Əmir Əliyev, Əlizadə Məmmədov
**2 saylı tədris binası, auditoriya № 307**

| | |
|---|---|
| 14:00 – 14:10 | **Xəzər dənizinin hüquqi statusu: yeni yanaşmalar**<br>Rüstəm Məmmədov<br>Bakı Dövlət Universiteti |
| 14:10 – 14:20 | **İnsan hüquqlarının müdafiəsində regional mexanizmlərin inkişaf tendensiyaları**<br>Əmir Əliyev<br>Bakı Dövlət Universiteti |
| 14:20 – 14:30 | **Hərbi təcavüz nəticəsində Azərbaycan Respublikasına vurulan iqtisadi zərərə görə Ermənistanın reporasiya öhdəliyi əsasları**<br>Əfsər Sadıqov<br>Bakı Dövlət Universiteti |
| 14:30 – 14:40 | **Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyətində komplementarlıq prinsipinin rolu və əhəmiyyəti**<br>Rahim Məmmədov<br>Bakı Dövlət Universiteti |

20

| | |
|---|---|
| 14:40 – 14:50 | **Ümumi qaydanın qorunması istiqamətində beynəlxalq müqavilə ilə milli qanunvericiliyin qarşılıqlı əlaqəsi**<br>Əlizadə Məmmədov<br>Bakı Dövlət Universiteti |
| 14:50 – 15:00 | **İqlim dəyişikliyinin beynəlxalq hüquqi aspektləri**<br>Turqay Hüseynov<br>Bakı Dövlət Universiteti |
| 15:00 – 15:10 | **BMT çərçivəsində təcavüz cinayətinə münasibət**<br>Novruz Mehdiyev<br>Bakı Dövlət Universiteti |
| 15:30 – 15:40 | **Səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyasında universal konvension orqanların rolu**<br>Fatimə Hüseynova<br>Bakı Dövlət Universiteti |
| **15:40 – 16:00** | **Fasilə** |
| 16:00 – 16:10 | **Qərbi Azərbaycanda Azərbaycan xalqına məxsus mədəni irsin qorunmasının beynəlxalq hüquqi problemləri**<br>Leyla Həşimova<br>Bakı Dövlət Universiteti |
| 16:10 – 16:20 | **Əmək münasibətlərində söz azadlığı (Avropa İnsan Hüquqları Məhkəməsi təcrübəsi)**<br>Samirə Eyvazova<br>Bakı Dövlət Universiteti |

21

| | |
|---|---|
| 16:20 – 16:30 | **Beynəlxalq ticarət hüququnda gömrük və vergi rejimləri**<br>Gürşad Abbasov<br>Bakı Dövlət Universiteti |
| 16:30 – 16:40 | **Mülki hava gəmilərinin dövlət qeydiyyatı**<br>Natiq Əsgərov<br>Bakı Dövlət Universiteti |
| 16:40 – 16:50 | **Qeyri-hökümət təşkilatları və dövlət orqanları: qanunvericilik və qarşılıqlı fəaliyyət təcrübəsi**<br>Nəzakət Fərziyeva<br>Bakı Dövlət Universiteti |
| 16:50 – 17:00 | **Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində beynəlxalq xüsusi hüququn prinsiplərinin rolu**<br>Xanımana Qafarova<br>Bakı Dövlət Universiteti |
| 17:00 – 17:10 | **Gender əsaslı inkişaf sahəsində konvension mexanizmlərin rolu**<br>Aytac Qibləliyeva<br>Bakı Dövlət Universiteti |
| 17:10 – 17:20 | **Xəzər dənizi və beynəlxalq təhlükəsizlik**<br>Xəqani Məmmədov<br>Bakı Dövlət Universiteti |

22

**21 DEKABR, CÜMƏ AXŞAMI**

**BÖLMƏ İCLASLARI**

**Bölmə 1-6:** Əmək, sosial təminat və ekologiya hüququ

**Sədrlər:** Alış Qasımov
**2 saylı tədris binası, auditoriya № 511**

| | |
|---|---|
| 14:00 – 14:10 | **Azərbaycan Respublikasının əmək qanunvericiliyinin təkmilləşdirilməsinin bəzi məsələləri**<br>Alış Qasımov<br>Bakı Dövlət Universiteti |
| 14:10 – 14:20 | **Əlilliyi olan şəxslərin sosial-hüquqi müdafiəsində Heydər Əliyevin sosial siyasətinin rolu**<br>Mayis Əliyev<br>Bakı Dövlət Universiteti |
| 14:20 – 14:30 | **İşçinin maddi məsuliyyətinin növləri və onların yaranma şərtləri**<br>Zahid Cəfərov<br>Bakı Dövlət Universiteti |
| 14:30 – 14:40 | **Beynəlxalq aktlar ekologiya hüququnun mənbəyi kimi**<br>Əbülfəz Hüseynov<br>Bakı Dövlət Universiteti |
| 14:40 – 14:50 | **Меры дисциплинарной ответственности в трудовом праве и порядок их применения**<br>Лала Алескерова<br>Бакинский Государственный Университет |

23

| | |
|---|---|
| 14:50 – 15:00 | **Azərbaycan Respublikasında sağlam ətraf mühitdə yaşamaq hüququnun müdafiəsinin hüquqi mexanizmləri**<br>Mahir Əliyev<br>Bakı Dövlət Universiteti |
| 15:00 – 15:10 | **Əmək hüququnun prinsiplərinin anlayışı haqqında**<br>Ülkər Əkbərli<br>Bakı Dövlət Universiteti |
| 15:30 – 15:40 | **Дискриминация в трудовом праве**<br>Фарида Асланова<br>Бакинский Государственный Университет |
| **15:40 – 16:00** | **Fasilə** |
| 16:00 – 16:10 | **Sosial təminatın demoqrafik funksiyası**<br>Fəridə Əliyeva<br>Bakı Dövlət Universiteti |
| 16:10 – 16:20 | **İşçinin maddi məsuliyyəti haqqında qanunvericiliyin inkişaf tarixi**<br>Nərmin Həsənli<br>Bakı Dövlət Universiteti |
| 16:20 – 16:30 | **Əmək funksiyası hüquqi kateqoriya kimi**<br>Vasif Hüseynli<br>Bakı Dövlət Universiteti |

24

| | |
|---|---|
| 16:30 – 16:40 | **Azərbaycan Respublikasında torpaq üzərində mülkiyyət hüququ haqqında qanunvericiliyin inkişaf tarixi**<br>Anar Əsədov<br>Bakı Dövlət Universiteti |
| 16:40 – 16:50 | **Müasir dövrdə məsafədən (distant) işin hüquqi aspektləri: çətinliklər və perspektivlər**<br>Aygün Bayramova<br>Bakı Dövlət Universiteti |
| 16:50 – 17:00 | **Əməyin mühafizəsi qaydalarının pozulmasına görə cinayət məsuliyyəti**<br>Emin Nağıyev<br>Bakı Dövlət Universiteti |
| 17:00 – 17:10 | **Dövlət orqanlarında daxili intizam qaydalarının konseptual və metodoloji əsasları**<br>Oruc Məmmədov<br>Azərbaycan Dövlət İqtisad Universiteti |
| 17:10 – 17:20 | **Başqa işə keçirmənin anlayışı və növləri**<br>Rəşad Məmmədov<br>Polis Akademiyası |
| 17:20 – 17:30 | **Əmək hüquq subyektliyi**<br>Ərəbiyyə Mustafayeva<br>Azərbaycan Dövlət İqtisad Universiteti |

25

| | |
|---|---|
| 17:30 – 17:40 | **Əməyin mühafizəsi haqqında qanunvericiliyin təkmilləşdirilməsinin bəzi məsələləri**<br>Nəbi Əsgərov<br>Polis Akademiyası |
| 17:40 – 17:50 | **Ahıllara sosial xidmət**<br>Ata Vəliyev<br>Polis Akademiyası |
| 17:50 – 18:00 | **Azərbaycanda könüllü sosial sığortanın tətbiqi məsələləri: müqayisəli təhlil**<br>Kamran Ağamoğlanov<br>Bakı Dövlət Universiteti |
| 18:00 – 18:10 | **Fərdi əmək mübahisələrinin həllində mediasiyanın rolu və əhəmiyyəti**<br>Azər Rəhimov<br>Bakı Dövlət Universiteti |
| 18:10 – 18:20 | **Azərbaycan Respublikasının qanunvericiliyində ekoloji-hüquq pozuntularına görə cinayət məsuliyyəti**<br>Fərman Həmidli<br>Bakı Dövlət Universiteti |
| 18:20 – 18:30 | **Əmək hüquq münasibətinin anlayışı haqqında**<br>Araz Paşayev<br>Bakı Dövlət Universiteti |

26

# Bakı Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Hüquq fakültəsinin 95 illiyinə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir inkişaf tendensiyaları" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir

***2023-cü ilin 21-22 dekabr tarixlərində Bakı Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Hüquq fakültəsinin 95 illiyinə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir inkişaf tendensiyaları" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransdan öncə Hüquq fakültəsinin dekanı və professor-müəllim heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər. Xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilib, məzarı önünə gül dəstələri qoyulub.***

Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Ramil Usubov, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri İnam Kərimov, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Hüseynli, Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, eləcə də Milli Məclisin deputatları, dövlət və hökumət qurumlarının, hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, ali təhsil müəssisələrinin rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsinə bir dəqiqəlik sükut elan edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlayan konfrans Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin açılış nitqi ilə öz işinə başlayıb.

Ulu Öndərə həsr olunmuş videoçarxın nümayiş etdirilməsindən sonra Hüquq fakültəsinin dekanı Zaur Əliyev "Hüquq fakültəsi-95" adlı məruzə ilə çıxış etmişdir. Dekan bildirmişdir ki, Ümümmilli Lider Heydər Əliyevin "Azərbaycanın milli sərvəti" adlandırdığı Bakı Dövlət Universitetinin Hüquq fakültəsi 95 il ərzində şərəfli bir yol qət etmişdir. Hüquq fakültəsinin inkişafının ən mühüm mərhələsinin müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu xüsusi vurğulayan dekan, hüquq sahəsində milli kadrların məhz Ulu Öndərin göstərişi ilə hazırlanmağa başlanıldığını və bununla da milli hüquq məktəbinin əsasının qoyulduğunu, Ulu Öndərin hüquq islahatlarının isə hüquq elminin yeni mərhələdə inkişafını təmin etdiyini bildirmişdir. Fakültə dekanı məhz bu baxımdan Hüquq fakültəsinin 95 illik yubileyinin Heydər Əliyev İli çərçivəsində qeyd edilməsinin olduqca əlamətdar olduğunu diqqətə çatdırmışdır. Ulu Öndərin bu istiqamətdə formalaşdırdığı siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edən fakültə dekanı, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən sosial layihələrin Azərbaycan təh-

silinin inkişafına töhfə verən əsas amillərdən olduğunu vurğulamışdır.

Hüquq fakültəsinin tələbə və məzunlarının Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Vətən torpaqlarının işğalçılardan azad edilməsində fəal iştirakı vurğulanmışdır.

Hüquq fakültəsinin bu günündən qürurla danışan Zaur Əliyev Fakültənin hüquq elminin inkişafına verdiyi töhfələr – yeni dərsliklərin hazırlanması, elmi seminarların, konfransların təşkili, tədris prosesinin yeni metodikalar əsasında aparılması, müxtəlif dövlət orqanları ilə əməkdaşlıq çərçivəsində praktik hüquqşünasların tələbələrə mühazirələr söyləməsi, fakültədə yenilik olan və uğurla tətbiq olunan hibrid tədris metodundan istifadə olunması, eləcə də tələbələrin uğurları haqqında geniş məlumat vermişdir.

Nitqinin yekununda dekan bütün hüquq ictimaiyyətini fakültənin 95 illik yubileyi münasibətilə təbrik etmiş, qonaqlara konfransda iştirak etdiklərinə görə təşəkkürünü bildirmiş və qeyd etmişdir ki, Hüquq fakültəsinin fəaliyyəti onun inkişaf dinamikasının yüksək olduğunu və fakültənin Ulu Öndər Heydər Əliyevin ənənəsinə və Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətçilik siyasətinə sadiq qaldığını bir daha təsdiq edir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov çıxış edərək, Ulu Öndərin elm və təhsilə qayğısından danışmış və çıxışının sonunda hər bir uğurlu tələbənin arxasında dayanan Hüquq fakültəsinin professor-müəllim heyətini təbrik etmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru, Hüquq fakültəsinin Yekun Dövlət Attestasiya Komissiyasının sədri Kamran Əliyev Hüquq fakültəsinin keçmişi, bu günü və gələcəyi ilə bağlı təhlili əks etdirən çıxış etmiş, Ulu Öndərin 100 illik yubileyinə həsr olunmuş ildə Fakültənin 95 illiyinin qeyd olunmasını xüsusi vurğulayaraq, professor-müəllim heyətini təbrik etmişdir.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynli Ulu Öndərin demokratik hüquqi islahatlarının hüquq elminə və təhsilinə verdiyi töhfələrdən danışaraq, xüsusi vurğulamışdır ki: “Biz hər birimiz qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyev dövrünün hüquqşünasıyıq”.

Azərbaycan Respublikasının Ədliyyə Nazirinin müavini Vilayət Zahirov Hüquq fakültəsinin professor-müəllim heyətini təbrik etmiş, belə bir yubileyin Heydər Əliyev İlinə təsadüf etməsini uğurlu bir hal kimi xüsusi vurğulamışdır.

Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov çıxış edərək, Hüquq fakültəsinin müasir dövrdə yeni inkişaf tendensiyalarından bəhs etmişdir.BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladanka Andreeva fakültənin tədris sahəsində BMT ilə əməkdaşlığından danışmışdır.

Fakültənin yaşıdı, Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Məsumə Məlikova Hüquq fakültəsi haqqında xatirələrini konfrans iştirakçıları ilə bölüşmüşdür.

Fasilədən sonra Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı Yusif Hüseynov təbrik çıxışları etmişlər.

Çıxışlardan sonra Hüquq fakültəsinin 95 illiyi münasibətilə fakültənin tələbələri tərəfindən hazırlanmış “tamaşa” nümayiş etdirilmişdir. Fakültənin tarixi, formalaşması və inkişafı ilə bağlı olan “tamaşa” konfrans iştirakçılarının böyük marağına səbəb olmuşdur.

Konfrans işini hüququn müxtəlif sahələrini əhatə edən ayrı-ayrı bölmələrdə davam etdirmişdir.

# Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bayraqdarıdır

**Sadiq QURBANOV,**
**Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.**

***Çağdaş Azərbaycanın müstəqillik tarixi Heydər Əliyev şəxsiyyəti ilə o qədər çulğalaşmışdır ki, bu iki dəyəri ayrılıqda təsəvvür etmək mümkün deyil. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bayraqdarıdır. Tarixə nəzər saldıqda bunu görmək olur. Sovetlər dönəmində Azərbaycan tarixi orta məktəbdə tədris edilirdi. Bu tədris proqramında Azərbaycan Cümhuriyyəti barəsində yalnız kiçik bir qeyd var idi. Bu bir cümləlik fikirdə "1918-1920-ci illərdə Azərbaycanda milli burjuaziya hakimiyyətdə olmuşdur" deyə bildirilirdi.***

## Ulu Öndər milli azadlıq mücadiləsini yeni mərhələyə yüksəltdi

Təbii ki, Azərbaycanın intellektual ziyalıları Cümhuriyyət tarixi haqqında bilgilərə malik idi. Heydər Əliyev respublikaya ilk rəhbərliyi dövründə Bakı Dövlət Universitetinin 50 illik yubileyində çıxışı zamanı bu təhsil müəssisəsinin tarixinə toxunaraq qeyd edirdi ki, Azərbaycan xalqının tarixində birinci ali məktəbin yubileyi elə bir hadisədir ki, onun ictimai əhəmiyyəti Azərbaycanın dövlət hüdudlarından çox-çox kənara çıxır. Bakıda universitet Azərbaycan xalqının həyatının ağır günlərində yaradılmışdır. Lakin bu gərgin vəziyyət universitet yaradılması uğrunda hərəkatın qarşısını ala bilməmişdi. Biz Azərbaycan xalqının bu və bir çox digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrinin, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar.

Heydər Əliyev Cümhuriyyət irsinin tədqiqinə şərait yaratmışdır. Azərbaycanın tarixi irsinə sevgi bəsləyən Ulu Öndər Heydər Əliyev hələ Naxçıvana rəhbərlik etdiyi, SSRİ-nin mövcud olduğu bir vaxtda ilk fürsətdə öz arzularını gerçəkləşdirdi. Təsadüfi deyil ki, müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesi Naxçıvandan başlanıldı. 17 noyabr 1990-cı il tarixində Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında böyük dövlət xadiminin təşəbbüsü ilə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunması təklif edildi. Dahi şəxsiyyətin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi qərarda deyilirdi:

1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.

2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.

3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edil-

məsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.

Bundan sonra yeni qəbul olunmuş dövlət bayrağı zala gətirildi və Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildi.

Heydər Əliyev bu hadisəni belə xatırlayırdı: "Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq".

Bundan sonra – 18 oktyabr 1991-ci il tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Tarixi sənədin 2-ci maddəsində deyilir: "Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir".

Heydər Əliyevin parlamentdəki ilk çıxışı 7 mart 1991-ci il tarixdə yeni ittifaq müqaviləsinə qoşulmaq məsələsi müzakirə edildiyi zamana təsadüf edir. Həmin vaxt parlament ideoloji baxımdan iki cəbhəyə bölünmüşdü. Bir qisim Azərbaycanın ittifaqdan ayrılıb müstəqil, azad bir dövlət kimi yaşamasının tərəfdarı idi. Digər qisim isə Azərbaycanın ittifaq tərkibində qalmasına tərəfdar idi.

Müstəqillik tərəfdarları Azərbaycan xalqının azadlıq istəyinin carçıları idi. Bu siyasətçilərin önündə gələn Heydər Əliyev idi. Ulu Öndər parlamentdəki çıxışında SSRİ-nin siyasi-fəlsəfi mahiyyətini açaraq praktik nümunələr gətirməklə onun imperiya olduğunu bildirir və yeni bir ittifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirdi. "Bir sözlə, mən yeni ittifaqa nail olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. O, öz tarixini yenidən təhlil edir, yenidən qiymətləndirir, öz milli ənənələrini bərpa edir, milli köklərinə qayıdır. Respublikada aşağıdan, xalq kütlələri tərəfindən başlanmış milli dirçəliş, dövlət dirçəlişi hərəkatı inkişaf edir", – deyə Ulu Öndər bildirmişdir.

Heydər Əliyev parlamentdəki ilk çıxışında ideoloji məsələyə özünün sərt və açıq münasibətini ifadə etmişdi. Ulu Öndər bu fikirləri söyləməklə respublika rəhbərliyini ölkənin formal deyil, real müstəqillik yolunu tutmasına, aydın ideoloji konsepsiya yaratmağa səsləyirdi. O qeyd edirdi: "Məmməd Əmin Rəsulzadə partiyasının ideyasını təmsil edən bayraqla ona zidd olan ideyanın banisinin

büstünün sessiya keçən salonda yan-yana durması da təəccüb doğurur. Sadəcə desək, bu uyğunsuzluğu anlamaq çətindir. Bəlkə buna bir izahat vermək lazım idi?"

Heydər Əliyevin irəli sürdüyü müstəqil ideoloji konsepsiya tarixi varisliyə əsaslanırdı. O, özünü Xalq Cümhuriyyətinin varisi elan edən bir respublikanı sovet imperiyasına aydın münasibət bəsləməyə çağıraraq deyirdi: "28 May Azərbaycan dövlət quruluşunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 28 May 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Belə olan halda bu hadisəyə və 28 aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun. İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsının sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?"

### Heydər Əliyevin dövlətçilik ideyasının əsasını müstəqillik düşüncəsi təşkil edir

Ulu Öndər Heydər Əliyev çıxışlarının birində milli dövlətçilik şüurunun formalaşması kontekstində tarixi məsələlərə öz konseptual baxışını belə ifadə edir: "Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlər Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar hamısı Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. XX əsrin əvvəlində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr, 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf dövrü keçmişdir. Beləliklə, Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik".

Heydər Əliyev müstəqilliyin ali məqsədi kimi milli-mədəni və mənəvi dəyərlərin bərpa olunmasına, xalqımızın özünü dərk etməsinə, öz mənliyinin sahibi olmasına fədakarlıqla, vətəndaş hünəri ilə çalışırdı. O, yalnız siyasi və iqtisadi deyil, həm də mədəni-mənəvi istiqlal uğrunda da əzmkar mübarizə aparırdı.

Heydər Əliyevin parlamentdəki ilk çıxışını araşdırdıqca müstəqilliyə münasibətdə əsrin əvvələrində mövcud olmuş kəskin fikir ayrılıqları diqqətimizi cəlb edir. Hələ Azərbaycanın Zaqafqaziya seymində olduğu bir vaxtda bir qrup şəxs Azərbaycanın müstəqil ola bilməyəcəyi, nicatımızın yalnız Rusiyada olduğunu səsləndirirdi. Lakin M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, F.X.Xoyski, N.Yusifbəyli isə Azərbaycanın müstəqilliyinə çalışır və bu ideyanı təbliğ edirdilər. Hələ 1917-ci ildə Bakıda Müsəlmanların birinci qurultayında

çıxış edən Nəsib bəy Yüsifbəyli deyirdi: "Kim deyə bilər ki, biz özümüzü idarəetmə səlahiyyətində bir millət deyilik?!"

Bu tarixi nailiyyəti yüksək qiymətləndirən Heydər Əliyev qeyd edirdi: "XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı".

Heydər Əliyevlə Rəsulzadə ailəsinin görüşü barədə böyük siyasi xadimin nəvəsi Əməkdar rəssam Rais Rəsulzadənin fikirləri maraqlıdır. Heydər Əliyevlə görüşlərini xatırlayan R.Rəsulzadə maraqlı məqamlara toxunaraq deyir: "Bu hadisə atamın Bakıya son gəlişində baş vermişdi. 1991-ci il idi. Atam növbəti dəfə Bakıya gəlmişdi. Məktəb dostlarından biri ilə zəngləşib danışmışdılar, görüşməli idilər. Görüşün vaxtına hələ vaxt vardı. Atam mənə dedi ki, gəl Şəhidlər xiyabanına gedək, şəhidlərimizi ziyarət edək. O vaxt orada 20 Yanvar şəhidləri dəfn edilmişdi. Şəhidlər xiyabanında şəhidlərimizi ziyarət etdik. Şəhidlər xiyabanında heç kim yox idi, ikimiz idik. Birdən atam qoluma toxundu ki, o, Heydər Əliyevdir. Mən də baxdım ki, həqiqətən odur. Onun da yanında jurnalistlər var idi. Özü də girəcəkdə idi, müsahibə verirdi. Onların hamısını araladı, düz bizim yanımıza gəldi. Atamla salamlaşdı, dedi ki, "Siz Məhəmməd Əmin Rəsulzadənin oğlu Azərsiniz?" Atam dedi, bəli. Heydər Əliyev dedi ki, "mən sizi bir dəfə televizorda görmüşəm. Necəsiniz? Nə var, nə yox? Eşitmişdim problemləriniz var. Səhhətiniz nə yerdədi?" Atam da dedi ki, "Necə olacaq, "xalq düşməni" damğasını atmışam, gəlmişəm bura". Heydər Əliyev də dedi ki, "Mən də "kommunist" damğasını atmışam. Sabah burada Milli Məclisdə çıxış etməliyəm".

Bizim burada 3 evimiz var idi, atam deyirdi ki, o evləri aldılar. Atam Heydər Əliyevdən soruşdu ki, "düzünü deyin, mən Bakıya gəlsəydim, siz mənə ev verərdiniz?" Heydər Əliyev də atama dedi, "Əlbəttə, sizə ev verərdim, niyə vermirdim". Bundan sonra Heydər Əliyev çox maraqlı bir tarix danışır: "O vaxtı "Qlavlit"də müdür, bilikli mütəxəssis lazım idi, adam tapa bilmirdik. Bir gün gəldilər ki, biz adam tapmışıq, amma o, olmaz. Dedim niyə? Dedilər, çünki Məhəmməd Əminin qohumudur. Mən də dedim o nə deməkdir ki? Gətirin vəzifəyə həmin adamı. Gəldi, fəaliyyət göstərdi, özünü doğrultdu da həmin adam. Ona görə o vaxt gərək gələrdiniz".

Heydər Əliyev bizimlə görüşdüyü dönəmdə Naxçıvanda fəaliyyət göstərirdi. Ona görə deyirdi ki, indi mənim burada səlahiyyətim yoxdur, amma Naxçıvana gəlin, orada nə şərait istəyirsiniz, sizə yarada bilərəm. Qeyd etdi ki, orada mənim stolumun üstündə Leninin büstü var idi, onu atdıq, Məhəmməd Əmin Rəsulzadənin büstünü qoymuşuq, onun bayrağını asmışıq. Görüş belə oldu...

R.Rəsulzadə Azərbaycan Dövlət Televiziyasına müsahibəsində bildirib ki, atasına qarşı dəfələrlə təxribatlar törədiblər. Hətta Məhəmməd Əmin Rəsulzadənin vəfatından istifadə etmək istəyənlər də olub: "1955-ci ildə atamı çağırdılar ki, atanız Ankarada vəfat edib, getmək istəyirsinizmi? Təbii ki, atamı Ankaraya müəyyən şərtlərlə göndərirdilər. Atam 35 yaşında idi, bilirdi ki, şərt-

lərə məxfi işlərlə məşğul olmaq, kimlərləsə əlaqə yaratmaq da daxildir. Atam dedi ki, getmək istəmirəm".

Rais Rəsulzadə Bakıya niyə gəldiyini də söyləyib: "1965-ci ildə Bakıya gəldim. Atam etiraz eləyirdi. Amma mən hər şeyi bilirdim, deyirdim ki, ədaləti bərpa eləməliyəm".

M.Ə.Rəsulzadənin yadigarı atasının son arzusunu açıqlayıb: "Atam vəsiyyət eləmişdi ki, vətəndə dəfn olunsun. Kimsə gəlib Heydər Əliyevə Rəsulzadənin oğlunun vəfat etdiyini deyəndə soruşmuşdu ki, siz hələ onu gətirməmisiniz? Ondan sonra xəbər aldıq ki, təyyarə gəlir. Gecə ilə gəldilər, apardıq, Novxanıda babasının yanında dəfn elədik".

**Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin irsinə xüsusi ehtiramla yanaşır**

Ulu Öndər Heydər Əliyevin 22 fevral 1998-ci il tarixili sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi üzrə dövlət komissiyasının tədbirlər planı təsdiq edilmişdir.

Tədbirlər planında Azərbaycan Xalq Cümhuriyyəti irsinin yaşadılması fəaliyyət növünə görə aşağıdakı kimi qruplaşdırılmışdır.

1) Cümhuriyyət irsinin öyrənilməsi.

2) Cümhuriyyət irsinin təbliği.

3) Gələcək nəsillərə çatdırılması.

Sonradan biz cənab İlham Əliyevin fəaliyyətində Azərbaycan Xalq Cümhuriyyəti irsinə hörmətin ifadəsini gördük. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının çap edilməsini, Cümhuriyyət generalları Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovun, Cümhuriyyət ideoloqları M.Ə.Rəsulzadənin, Əli bəy Hüseynzadənin və Əhməd bəy Ağaoğlunun yubileylərinin keçirilməsi barədə sərəncamları nümunə gətirmək olar.

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı verdiyi sərəncama görə, görkəmli dövlət xadiminin nəvəsi Əməkdar rəssam Rəis Rəsulzadə Prezident İlham Əliyevə göndərdiyi təşəkkür məktubunu da Cümhuriyyət tarixinin bir parçası hesab etmək olar. Məktubda deyilir:

"Hörmətli cənab Prezident!

Azərbaycan Xalq Cümhuriyyətinin banisi, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 130 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı verdiyiniz sərəncama görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sərəncam bütün Azərbaycan xalqının sevincinə səbəb oldu. Bu, Sizin mənəviyyatımıza, mədəniyyətimizə, tarixi-dövlətçilik ənənələrimizə, istiqlal ideyalarına verdiyiniz bir töhfədir.

1994-cü ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən M.Ə.Rəsulzadənin 110 illik yubileyi ilə əlaqədar sərəncam verilmişdi. Yenidən belə bir sərəncam imzalanması sevindiricidir. Bu, Xalq Cümhuriyyətinin banilərinə verilən layiqli qiymətdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılan respublika bu gün müstəqil dövlət kimi dünya miqyasında öz layiqli yerini tutmuşdur.

Qüdrətli Azərbaycan dövləti quruculuğunda istiqlal ideyalarına sadiq olduğunuz üçün, ali dövləti fəaliyyətinizdə, xalqımızın və dövlətimizin gələcək inkişafı naminə apardığınız siyasətdə Sizə uğurlar, möhkəm

cansağlığı, doğma Azərbaycanımızın daha da qüdrətlənməsində yeni nailiyyətlər arzulayıram".

Azərbaycanın siyasi irsinə münasibətdə Prezident İlham Əliyev tarixi şüura söykənir. Dövlətimizin başçısı Azərbaycanın dövlətçilik ənənələrini yüksək qiymətləndirir. O, bildirir ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. AXC mürəkkəb şəraitdə üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, Ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Cənab İlham Əliyev siyasi irsi yüksək qiymətləndirməklə, Ümummilli Lider Heydər Əliyevin siyasi varislik fəlsəfəsinə hörmətlə yanaşmaqla gələcək nəsillər üçün gözəl nümunə yaradır. İlham Əliyev deyir: "Xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu. Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq".

Heydər Əliyev irsini ən yaxşı əxz etmiş siyasətçi, peşəcə tarixçi diplomat olan cənab İlham Əliyev demişdir. "Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı - Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, demokratik cəmiyyət qurmaq... Azərbaycanda bu siyasətin alternativi yoxdur".

21 sentyabr 1993-cü il tarixdə Prezident səlahiyyətlərini həyata keçirən Ali Sovetin Sədri Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşdə deyib: "Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yaradıldı. Bu, şübhəsiz ki, tarixi bir hadisədir. Azərbaycanın müstəqilliyi uğrunda son dövrlərdə gedən proseslərlə həm mətbuatda, həm də ictimai-siyasi proseslərdə ilk Azərbaycan Demokratik Respublikası böyük bir nailiyyət kimi qeyd olunub və onun gördüyü işlər yüksək qiymətləndirilibdir. Bu, təbii bir haldır, tariximizin böyük və parlaq bir mərhələsidir. Bu mərhələni biz layiqincə qiymətləndirməliyik və mən də bu gün sizin qarşınızda bunu bildirmək istəyirəm. Bəli, 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük siyasi-ictimai hadisədir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir.

Düzdür, bu demokratik respublika cəmi 23 ay fəaliyyət göstərdi, sonra isə təslim oldu. Mən bu fikrə yenə qayıdacağam. Biz tariximizi həmişə obyektiv təhlil etməliyik və bugünkü nəslə, gələcək nəsillərə düzgün çatdırmalıyıq. Təəssüf ki, əvvəlki dövrlərə

aid tariximizdə çox faktlar təhrif olunubdur, indi də təhrif edilir. Əgər o vaxt bir istiqamətdə təhrif olunurdusa, indi başqa bir istiqamətdə təhrif edilir".

Sonra isə Heydər Əliyev tarixşünaslıq qarşısında yeni vəzifələr müəyyən edərək bildirir: "Tarixçilərimizin borcudur ki, bu qüsuru aradan götürsünlər. Ancaq biz deməliyik ki, demokratik respublika, onun liderləri Məmmədəmin Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyov, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Onlar Azərbaycanı müstəqil bir dövlət kimi dünyanın bir qisminə tanıtdılar, bir neçə tədbir gördülər. Eyni zamanda onların fəaliyyətinin, ümumiyyətlə, uğursuzluğu təkcə ondan ibarət deyil ki, Azərbaycan 20-ci il aprel ayının 28-də qızıl ordu tərəfindən işğal olundu. Hələ həmin işğala qədər bu demokratik dövlət, demək olar, öz süqutuna gəlib çatmışdı. Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, bu parlamentdə beş partiya iştirak edib: Müsavat Partiyası, İttihad Partiyası, Əhrar Partiyası, Sosialist Partiyası, hətta "Daşnaksütyun" partiyası. Bu parlament sistemi dövlətin yaşamasına imkan vermədi və ayrı-ayrı qruplar, partiyalar arasında gedən çəkişmələr, çarpışmalar, intriqalar özü-özlüyündə bu dövlətin adına ləkə vurdu. Mən bunu nə üçün deyirəm? Ona görə ki, biz bundan ibrət dərsi almalıyıq. Biz o dövrü, o demokratik hökumətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin proseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq".

Bəzi hallarda Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu zamanda baş vermiş hadisələrə obyektiv tarixi gerçəklik nöqteyindən yanaşılması zərurəti yaranır. Heydər Əliyevin yuxarıda qeyd olunan "Biz o dövrü, o demokratik hökumətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin proseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq" fikirləri dövlətçilik təfəkkürünün təzahürü kimi qəbul edilməlidr. Bu mənada cənab Prezident İlham Əliyev tərəfindən İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsinə yönəlik tənqidlər obyektiv gerçəkliyi əks etdirir.

Tarixi təcrübə göstərir ki, hər bir xalqın hansısa əlverişli situasiyada milli-etnik soykökünə qayıdışı əsasən lider fenomeninin fövqəladə missiyası ilə şərtlənir. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuş, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə bu müstəqilliyin gələcək nəsillərə ötürülməsi üçün daha böyük tarixi missiyanı yerinə yetirmişdir. Ümummilli Lider Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi varislik məsələsinə münasibəti demək olar ki, eynidir. Tarixi yaradan və yaşadan hər iki liderin Azərbaycan sevgisi ən gözəl örnəkdir!

# Триумфальный финал 200 летнего конфликта. Сохранение традиций и ценностей: 20-летие избрания Президента и восстановление государственной независимости Азербайджанской Республики

**Ариф Джамиль оглы Гулиев,**
**доктор юридических наук, профессор, профессор кафедры конститутционного, международного права и публично-правовых дисциплин Киевского университета интеллектуальной собственности и права Национального университета «Одесская юридическая Академия», Заслуженный работник образования Украины,**
е-почта: arifguliyev@ukr.net

**Чекалюк Вероника Васильевна,**
**имиджмейкер, публицист, кандидат наук по социальным коммуникациям, докторант Института журналистики Киевского национального университета имени Тараса Шевченко (2013-2016).**

*Под руководством Президента Ильхама Алиева достигнут ряд блестящих успехов в реализации внешнеполитической концепции Азербайджанской Республики. Достойно продолжен политический и экономический курс Гейдара Алиева. Налажено партнерство со многими странами мира, ведется активная работа в рамках международных организаций.*

**Ключевые слова:** внешнеполитическая концепция, политический и экономический курс, партнерство странами мира, международные организация.

Деятельность Азербайджана как непостоянного члена Совета Безопасности ООН в 2012-2013 годах стала одним из самых больших достижений в истории дипломатии. В преддверии двадцатой годовщины избрания Ильхама Алиева Президентом Азербайджанской Республики был разрешен 200-летний конфликт, 30-летняя тоска азербайджанского народа по Родине. Мудрая стратегия и ряд военно-политических побед военных Азербайджана повлекли за собой восстановление полного суверенитета и территориальной целостности Азербайджана под руководством Верховного Главнокомандующего, Президента Ильхама Алиева. Каждый гражданин убедился: справедливости не избежать, исторически все стало на свои места. Президент Ильхам Алиев положил конец 200-летнему конфликту и 30-летней печали азербайджанского народа по Родине, знаковой Победой во второй Карабахской войне золотыми буквами вписал свое имя в героическую летопись азербайджанского народа как Верховный Главнокомандующий.

### «Большое возвращение»

Опишем историческое событие, цитируя выступление Президента Ильхама Алиева в древнем регионе Азербайджана, Восточном Зангезуре, что сейчас реконструируется вместе с Карабахским ре-

гионом Азербайджана в рамках программы «Большого возвращения», предусматривающей комплексное решение вопросов, связанных с самозанятостью, выдачей фермерам льготных кредитов и, конечно, социальной инфраструктурой. «Программа "Большого возвращения" предусматривает восстановление всех освобожденных территорий. Восстановление на основе современных технологий — концепции умных городов и сел с использованием самых современных образцов градостроительства. С момента окончания Второй Карабахской войны до сих пор на восстановление освобожденных территорий из азербайджанского бюджета было израсходовано 7 млрд. долларов. Минимальный бюджет, который мы планируем в следующем году и который в скором времени будет обсуждаться в нашем парламенте, составляет 2,4 млрд долларов. Могу сказать, что все эти проекты Азербайджан реализует за свой счет. Переселенцы, пострадавшие от армянской оккупации, в течение 30 лет жили в разных частях Азербайджана. Правительство пыталось заботиться о них. Ежегодно выделяли, по меньшей мере, от 300 до 500 млн долларов на строительство нового жилья для этих людей. Более 300 тысяч из них были переселены в новые дома с достойными условиями для жизни. Однако, когда наши земли были освобождены, мы провели среди них опрос, и большинство этих людей решили вернуться. Кстати, сейчас образовалась своеобразная очередь из тех, кто ждет возвращения на родные земли. Люди уезжают из Баку, из второго по величине города страны – Сумгайита, из Гянджи. Уезжают из городов в деревни. Поэтому думаю, что это тоже нужно изучать и оценивать. Сейчас все говорят об урбанизации, в том числе и в Азербайджане. Мы сталкиваемся с этой проблемой много лет: люди едут из сел в большие города, потому что там больше возможностей для трудоустройства и жизни. Но сейчас, в то же время, мы наблюдаем обратное. Мы видим поток из Баку, Сумгайита, Гянджи, Мингачевира, из городов в деревни. Это, прежде всего, показывает, насколько азербайджанский народ отдан своей родине. Они хотят жить на земле своих предков.

**Страницы истории**

Так или иначе, заключение любого Мирного договора остаётся основной международно-правовой формой прекращения состояния войны, включающего такие принципиальные положения, как прек-ращение состояния войны, восстановление мирных, даже дружест-венных, взаимоотношений. Наряду с этим в такой договор должны быть включены и такие важные положения, как ответственность за военные преступления, разрешение территориальных проблем, обмен военнопленными, возмещение убытков, возвращение имущества, и другие вопросы. В современной практике имеются примеры прекращения вооруженного конфликта, состояния войны между конфликтовавшими странами прекращения не только посредством принятия односторонней декларации, по инициативе одной стороны, но и заключения двусторонней декларации, когда состояние войны прекращается в результате переговоров. Вместе с тем, в теории современного международного права отсутствуют нормы, которые на практике могут определять устную или письменную форму Мирного договора, учитывая исключительную важность этого судьбоносного документа и системы тех межгосударственных отношений, которые он должен регулировать.

Более, чем очевидно, что окончание вооружённого противостояния, войны представляет собой важный и решающий фактор для развития послевоенных отношений, при котором бывшие противоборствующие Стороны могут пытаться и стремиться к установлению прерванных войной дипломатических отношений, а также активизировать внешнеэкономическую деятельность, региональное и иное разнообразное, многосторонне сотрудничество и партнёрство, но уже на ином международно-правовом фундаменте, рассчитанном на мирные связи.

Проигравшая сторона, фактически это Армения, нравится ли это ей или нет, должна признать эту реальность и действовать соответственно и, если эта страна действительно заинтересована в мире и

стабильности в регионе, она отказаться от всех действий и воинственной риторики, направленных против суверенитета и территориальной целостности Азербайджана, прекратить свои попытки подорвать процесс нормализации и полностью выполнить свои обязательства по достигнутым Трехсторонним заявлениям. Необходимо также ответить взаимностью на конструктивные предложения Азербайджана и воспользоваться исторической возможностью для нормализации своих отношений с ним и другими соседними странами на основе уважения их суверенитета и территориальной целостности, обеспечить принятие необходимых дальнейших шагов в этом направлении, поскольку, по-существу, другой альтернативы долгосрочному миру, стабильности и безопасности в регионе нет.

Большие надежды на благоприятные решения данных проблем были возложены на Брюсселе (апрель 2022 г.), где произошла, как известно, встреча Президента Азербайджана И. Алиева с главой Совета Европейского Союза Ш. Мишелем и премьер-министром Армении Н. Пашиняном, в ходе которой, как известно, Стороны договорились о проведении совместного заседания пограничных комиссий на азербайджано-армянской границе в контексте процесса делимитации и демаркации. Одновременно Сторонами были согласованы принципы регулирования транзита между Азербайджаном и Нахчываном, а также между отдельными частями Армении через азербайджанскую территорию, достигнуто согласие по принципам пограничного контроля, обеспечения региональной безопасности, тарифам, а также таможенным пошлинам в сфере международных транспортных перевозок.

Важный акцент был сделан на проблему разблокирования региональных коммуникаций, начала работ по делимитации и демаркации азербайджано-армянской госграницы и других вопросов по процессу окончательного урегулирования нагорно-карабахского конфликта. Все это имеет приоритетное значение, например, для возобновления источников энергии на освобождённых территориях с целью создания в регионе «зелёных» экономических зон, что является одним из направлений взаимовыгодного сотрудничества и партнёрства Азербайджана с заинтересованными странами, будет иметь важное значение для его развития, восстановления временно потерянных инфраструктур.

Несмотря на некоторые относительно благоприятные условия для заключения Мирного договора есть определённые, трудности, в первую очередь, временного характера. Например, сам процесс разблокирования коммуникаций, от строительства или реконструкции определённых инфраструктур, на которые потребуются новые финансовые вложения, до обсуждения всех особенностей обеспечения безопасности на согласованных маршрутах, и другие возможные препятствия. Однако очевидно, чтобы Стороны систематически подтверждали бы приверженности всеобъемлющему выполнению различных договорённостей, прежде всего трехсторонних, в интересах скорого заключения Мирного договора как основы безопасности на Южном Кавказе.

При всех обстоятельствах, окончание вооружённого противостояния, войны

представляет собой важный и решающий фактор для развития послевоенных отношений, при котором бывшие противоборствующие Стороны могут пытаться и стремиться к установлению прерванных войной дипломатических отношений, а также активизировать внешнеэкономическую деятельность, региональное и иное разнообразное, многосторонне сотрудничество и партнёрство, но уже на ином международно-правовом фундаменте, рассчитанном на мирные связи.

Дополнительным доказательством этому являются новая инициатива, представленные армянской стороне в виде пяти принципов (пунктов) для возможного Мирного договора, среди которых:

1. Взаимное признание государствами суверенитета, территориальной целостности, неприкосновенности своих международных границ и политической независимости друг друга;

2. Взаимное подтверждение отсутствия территориальных претензий государств друг к другу и принятие юридического обязательства о том, что такой иск не будет предъявлен в будущем;

3. Воздерживаться от угрозы безопасности друг друга в межгосударственных отношениях, использования угроз и силы против политической независимости и территориальной целостности, а также других обстоятельств, не соответствующих целям Устава ООН;

4. Делимитация и демаркация государственной границы, установление дипломатических отношений;

5. Открытие транспорта и коммуникаций, строительство других соответствующих коммуникаций и налаживание сотрудничества в других областях, представляющих взаимный интерес.

Важно ответственно учитывать и то обстоятельство, что окончание вооружённого противостояния, войны это - принципиальный и решающий фактор для развития послевоенных отношений, при котором бывшие противоборствующие Стороны могут пытаться стремиться к установлению прерванных войной дипломатических отношений. В конечном счёте, заключение такого соглашения позволяет надеяться и на активизацию их внешнеэкономической деятельности, региональное и разнообразное, многосторонне сотрудничество и партнёрство, но уже на ином международно-правовом фундаменте, рассчитанном на перспективные мирные связи (6).

При всех обстоятельствах, подписание любого Мирного договора в международно-правовой доктрине рассматривается как позитивный фактор и как благоприятная форма прекращения боевых действий, вооружённого конфликта, предусматривающая не только его прекращения, а главным образом – восстановление на длительную перспективу мирных, взаимоотношений в различных областях. В конкретном плане, такая решимость и заинтересованность в последующем развитии азербайджано-армянских, в частности, экономических, транспортных связях относительно проектов Азербайджана по строительству Зангезурского коридора, отказ от которого может нанести ущерб многим евро-азиатским государствам из-за препятствий в создании новой логистической системы, транспортных инфраструктур в различных географических направлениях.

Поэтому односторонняя «затяжка или торпедирование», надуманные попытки отвергнуть подписание данного Мирного договора могут означать, армянская сторона не намерена отказываться, как и ранее, от выдвижения новых, провокационных территориальных требований, ставя под угрозу как перспективы развития разнообразных, взаимовыгодных экономических связей, так и устойчивую региональную, южно-кавказскую безопасность.

Ещё в Шушинской декларации было отмечено, что Турция уже занимает одно из ведущих мест крупнейшего торгового партнера Азербайджана, после Италии. Таким образом, подписание данной Декларации, предусматривало новые практические шаги, и, что товарооборот будет расти дальше. При этом ясно учитывалось дальнейшее развитие потенциала транзитных перевозок на азербайджано-турецких участках международных транспортных коридоров и открытие Зангезурского коридора. Поскольку данный транспортный коридор интегрирован в коридор Восток-Запад, то не исключен рост грузопотока Азербайджана и Турции, а как следствие, ожидается как углубление сотрудничества в экономической сфере, так и подписание новых, взаимовыгодных договоренностей (7).

В этом ракурсе более значимым представляется вопрос о рассмотрении данной декларации как основы другого, качественно нового международно-правового акта, Мирного договора об окончании военных действий и состояния войны между Азербайджаном и Арменией.

Развитие событий последнего времени свидетельствует о том, что Армения уже выбыла не только из энергетических программ региона, но и региональной конкуренции в сфере электроэнергетики, и проблема не только в отсутствии мощностей и инфраструктуры, а больше в политических приоритетах. Например, Армения оказалась вне проекта прокладки подводного электрического кабеля по дну Чёрного моря, хотя Азербайджан, Грузия, Венгрия и Болгария подписали соответствующий меморандум (17 декабря 2022 г.). Несмотря на то, что данный проект приурочен для Азербайджана, учитываются и определённые возможности и для Армении, которая могла бы работать в этом формате с Грузией, как с транзитной страной, а также могла бы прийти к консенсусу в данном вопросе с Евросоюзом. Но для этого, очевидно, нужно вести так называемую «энергетическую дипломатию», чего соседняя страна фактически не делает, в отличии от Азербайджана, который всячески укрепляет свои позиции в различных энергетических форматах.

Общеизвестно, что в доктрине современного международного права разделяются соответствующие документы об окончании военных действий и состояния войны, поскольку они отличаются один от другого как по способам их юридического оформления, так и по тем правовым последствиям, которые они порождают для воющих сторон (8).

Очевидно, что таким видом международного договора должен быть такой Мирный договор, который может юридические закрепить, в первую очередь, прекращение состояния войны и восстановление мирных отношений между бывшими воюющими странами. Уместно отметить и то, что ещё в данной Декларации было подчёркнуто о «…необходи-

мости направить связи по географическому соседству на глубокое сотрудничество», а также о том, что «…мы хотим, чтобы Армения приняла протянутую к ней с добрыми намерениями руку солидарности, правильно воспользовалась возможностью совместного формирования общего будущего…». Далее, обращает на себя обоснованное логическое пояснение о так называемой «шестисторонней платформе» превращения региона в зону мира и эффективного сотрудничества, в которую входят такие международно-правовые субъекты, как Россия, Турция, Азербайджан, Армения, Грузия и Иран». Важны также слова: «… мы очень хотим, чтобы эта историческая возможность не была бы упущена из-за намерений, выражений и деятельности, не опирающейся на реальность».

Именно таким представляется такой Мирный договор, международно-правовой акт (документ), в котором будет зафиксировано явно выраженное согласование воль и намерений между Азербайджаном и Арменией относительно их взаимных прав и обязанностей в политических, экономических и иных межгосударственных отношениях.

Закономерны также слова министра иностранных дел М. Чавушоглу на заседании министров иностранных дел Организации экономического сотрудничества (ОЭС, в ноябре 2022 г. в Ашхабаде) о том, что его страна «… приветствует открытие коридора Исламабад-Тегеран-Стамбул. Кроме того, Турция удовлетворена решением по восстановлению и открытию сухопутных и железнодорожных путей на Южном Кавказе, в том числе Зангезурского коридора. Мы сможем укрепить позиции в мире лишь посредством сотрудничества и развития региональной торговли, что, в свою очередь, будет способствовать большей эффективности и возрастанию ОЭС и превращению её в структуру, нацеленную на конкретные результаты» (9).

Не остаются без внимания анонсирование (в январе 2023 г.) Президентом И. Алиевым новой геостратегии в южнокавказском регионе, перспективное расширение так называемого «меридианного» маршрута с увеличением объёма транзитных грузопотоков по основным направлениям азербайджанских транспортных узлов с непосредственным использованием международного транспортного коридора (МТК) «Север-Юг» через нашу страну в течение ближайших пяти лет с поэтапной перевозкой от 15 до 30 миллионов тонн грузов в год. Подчёркивалось также особое значение этого транспортного коридора, являющегося «…проектом, который может составить конкуренцию так называемому «Среднему коридору, и о конкуренции в объёмах товаров, а не в потоках, так как они составляют единую взаимозависимую сеть». При этом было подчёркнуто, что «… наращивание грузопотоков на данном участке МТК станет возможным, благодаря использованию двух рычагов. Первый - это расширение российско-азербайджанского товарооборота, как следствие наращивания совместных проектов, второй - перевод части российского экспорта-импорта с европейского и черноморского направлений на азербайджанский транзит».

Однако, последние события и факты свидетельствуют о том, что из-за упорного сопротивления и нежелания армянской

стороны ответить на пред-ложение о подписании Мирного договора, основанного на общепризнанных международно-правовых нормах и принципах, создаётся тупиковая ситуация и переговоры никак не могут сдвинуться с «мертвой точки».

Как отмечал Президент И. Алиев на Всемирном экономическом форуме в Давосе (в январе 2023 г.): «…Если три кавказские страны объединят усилия в сфере энергетики, транспорта, безопасности, стабильности, делимитации границ, то регион станет намного безопаснее. ... Азербайджан поддерживает отличные отношения со своими соседями с запада - с Грузией и Турцией, с востока - с Центральной Азией. В качестве естественного географического моста между Западом и Востоком за последние годы мы вложили крупные инвестиции в транспортную инфраструктуру», «…Организация трехсторонней встречи и в наших интересах, потому что этот регион принадлежит нам – Азербайджану, Грузии и Армении. Мы действительно можем превратить его в регион мира, прогресса и стабильности» (10).

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ, ИСТОЧНИКИ:

1) См. Интернет-ресурс: inosmi.ru/20230118/guterresh-259825936.html
2) Подробнее об этом см. труды Р.Л. Боброва, Г.И. Тункина, Г.В. Игнатенко, В.И. Лисовского, Д.Д. Остапенко, Л.А. Алексидзе, В.М. Шуршалова, Ю.Н. Малеева, и др.
3) См. об этом, например, Н.А. Ушаков. Сотрудничество как международно-правовой принцип взаимоотношений государств// Международное сотрудничество и международное право. Изд-во «Наука». М. 1977, стр. 3-12; Г.И. Тункин, В.Н. Шишкин. О международно-правовых принципах нового международного экономического порядка //Советское государство и право. № 9. 1980, стр. 88-96; О.Ф. Эфендиев. О проблематике сотрудничества и партнёрства в международном праве //Транспортное право. № 4. 2005, Баку, стр. 6-22 и др.
4) Об этом см. А.Н. Талалаев. Право международных договоров: действие и применение. М., 1985; И.И. Лукашук. Форма международных договоров. М. 2001 и др.
5) См., например, О.Ф. Эфендиев, Э.А. Алиев. Внешнеэкономическая деятельность современного Азербайджана. Изд-во «Зардаби». Баку. 2007; о н и ж е, Международное транспортное право и его институты. Учебник. Изд-во «Гюнэш». Баку. 2016; о н и ж е. Некоторые международно-правовые проблемы Южного Кавказа как зоны мира и региональной безопасности // «Юридическая плоскость». № 2. 2021, Баку, стр. 52-72 и др.
6 См. интернет -ресурс: https//zerkalo.az/prezidenty-azerbajdzhana-i-turtsii-podpisali-shushinskuyu-deklaratsiyu/
7) Т а м ж е
8) Подробнее см., например, Л.А. Алексидзе. Некоторые вопросы теории международного права: императивные нормы (jus cogens). Изд-во ТГУ. Тбилиси. 1982; С.А. Егоров. Вооружённые конфликты и международное право. М. 2003; Международное право. Учебник. под ред. А.А. Ковалёва, С.В. Черниченко., Изд-во «Омега». Москва, 2006, глава 25; Международное право. Учебник. Отв. ред. А.Н. Вылегжанин. М., Высшее образование. Юрайт-Издат. 2009, стр.616-662; О.Ф. Эфендиев. Вооружённые конфликты и военные преступления на Центральном Кавказе (Международно-правовой аспект). Изд-во «Кавказ». 2006 и др.
9) Интернет-ресурс https://www.newscentralasia.net/2021/11/29/25-zasedaniye-soveta-ministrov-eco-ru/
10) См. Интернет ресурс: news.ru/cis/prezident-azerbajdzhana-_source=rnews&utm_medium…от 20.01.2023

**Bir daha Cənubi Qafqazda təhlükəsizliyin tənzimlənməsinin bəzi aktual beynəlxalq-hüquqi aspektləri haqqında**

**O.F. Əfəndiyev, hüquq elmləri doktoru, professor.**
e-poçt: oktay001@rambler.ru

Məqalə Azərbaycanın Dağlıq Qarabağ silahlı münaqişəsində Vətən müharibəsini qələbə ilə başa vurması fonunda Cənubi Qafqaz regionunun təhlükəsizliyinin aktual siyasi və iqtisadi problemlərinin nəzərdən keçirilməsinə həsr olunub. Dövlətlər arasında qarşılıqlı faydalı, bərabərhüquqlu və çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi maraqları naminə Azərbaycan-Ermənistan Sülh Müqaviləsinin təcili imzalanmasının zəruriliyi baxımından həm dövlətin aktual məsələlərinə, həm də əlverişli inkişaf perspektivlərinə də toxunulub.

**Açar sözlər:** Azərbaycanın Qələbəsi, Vətən Müharibəsi, Sülh Müqaviləsi, beynəlxalq hüquq norma və prinsipləri, xarici iqtisadi əlaqələr, dövlətlərin əməkdaşlığı və tərəfdaşlığının əhəmiyyəti, beynəlxalq nəqliyyat dəhlizləri və daşımalar, Şuşa Bəyannaməsi, Davosda Dünya İqtisadi Forumu.

**Once again about some topical international legal aspects of the settlement of the South Caucasian security**

**O.F. Efendiev, Doctor of Law, Professor.**
e-mail: oktay001@rambler.ru

The article is devoted to the consideration of urgent political and economic problems of the security of the South Caucasus region in the light of Azerbaijan's victorious completion of the Patriotic War in the Nagorno-Karabakh armed conflict. Topical issues of both the state and prospects for favorable development were also touched upon in terms of the need to urgently sign the Azerbaijani-Armenian Peace Treaty in the interests of strengthening mutually beneficial, equal and multilateral cooperation between states.

**Key words:** Victory of Azerbaijan, Patriotic War, Peace Treaty, international legal norms and principles, foreign economic relations, importance of cooperation and partnership of states, international transport corridors and transportation, Shusha Declaration, World Economic Forum in Davos.

**Bir kez daha Güney Kafkasya güvenliğinin çözümünün bazı güncel uluslararası yasal yönleri hakkında**

**O.F. Efendiev,**
**Hukuk Doktoru, Profesör.**
e-posta: oktay001@rambler.ru

Makale, Azerbaycan'ın Dağlık Karabağ silahlı çatışmasında Vatanseverlik Savaşı'nı zaferle tamamlaması ışığında Güney Kafkasya bölgesinin güvenliğine ilişkin acil siyasi ve ekonomik sorunların değerlendirilmesine ayrılmıştır. Azerbaycan-Ermeni Barış Antlaşması'nın devletler arasında karşılıklı yarara dayalı, eşit ve çok taraflı işbirliğini güçlendirmek adına acilen imzalanması gereği açısından hem devletin güncel meselelerine hem de olumlu gelişme umutlarına değinildi.

**Anahtar Kelimeler:** Azerbaycan'ın Zaferi, Vatanseverlik Savaşı, Barış Antlaşması, uluslararası hukuk normları ve ilkeleri, dış ekonomik ilişkiler, devletler arası işbirliği ve ortaklığın önemi, uluslararası ulaşım koridorları ve ulaşım, Şuşa Deklarasyonu, Davos Dünya Ekonomik Forumu.

# YOL-NƏQLİYYAT HADİSƏLƏRİ NƏTİCƏSİNDƏ YARANAN FÖVQƏLADƏ VƏZİYYƏTLƏRİN İDARƏ EDİLMƏSİ

**Əliyev Etibar Əli oğlu,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü, hüquq elmləri doktoru**
e-mail: a-etibar@rambler.ru

**Hüseynzadə Elvin Cahangir oğlu,**
**DİN Baş DYP İdarəsi Təşkilati-inspektor Şöbəsinin rəisi, polis polkovniki;**
e-mail huseynzada1983@gmail.com

**Tağıyev Rövşən Əli oğlu,**
**DİN Baş DYP İdarəsi Hərəkətin Təhlükəsizliyinin Təbliği və İctimai Qurumlarla Əlaqə Şöbəsinin rəisi, polis polkovnik-leytenantı.**
e-mail: tagiyev-rovsen@inbox.ru

**Ağayev Faiq Bahadur oğlu,**
**Bakı Dövlət Universiteti, Hüquq fakültəsinin doktorantı, texnika elmləri üzrə fəlsəfə doktoru.**
e-mail: faiq_agayev@yahoo.com

*Məqalədə yol-nəqliyyat hadisələri nəticəsində yaranan fövqəladə vəziyyətlərin idarə edilməsi ilə bağlı məsələlər nəzərdən keçirilir. Qeyd edilir ki, müasir dövrdə nəqliyyat təhlükəsizliyi dedikdə nəqliyyat daşıma prosesinin elə bir vəziyyəti başa düşülür ki, bu vəziyyət həmin prosesdə iştirak edən şəxslərin yol-nəqliyyat hadisəsindən və onun nəticələrindən müdafiə olunma dərəcəsi başa düşülür.*

**Açar sözlər:** yol-nəqliyyat hadisəsi, fövqəladə hallar, nəqliyyat təhlükəsizliyi, idarəetmə, nəqliyyat hüququ.

Qloballaşma dövründə insanların həyat fəaliyyətində mühüm rol oynayan amillərdən biri də nəqliyyat vasitələri sayılır. Belə ki, nəqliyyat vasitəsi olmadan uzaq məsafələrə səfər etmək, eləcə də sərnişinlərin yerdəyişməsi, yük və baqaj daşınması mümkün deyildir. Başqa sözlə, bütün insanlar öz həyat fəaliyyəti ilə bağlı tələbatlarının ödənilməsində nəqliyyat vasitələrindən faydalanırlar. Lakin bu zaman təhlükəsizlik qaydalarına əməl olunması ən vacib şərtdir. Bir faktı diqqətə çəkmək lazımdır ki, respublika üzrə nəqliyyat vasitələrinin sayı durmadan artır və hal-hazırda 1.79 milyonu ötmüşdür. Ölkədə avtomobilləşmə prosesinin belə sürətli artım tempinə baxmayaraq, aidiyyəti qurumlarla birgə aparılan kompleks işlər yol-nəqliyyat hadisələrinin (YNH) qarşısının alınmasına öz müsbət təsirini göstərmiş və son 5 (beş) ildə qəzaların ardıcıl surətdə azalmasına nail olunmuşdur.

Lakin, təəssüf hissi ilə qeyd etməliyik ki, küçə və yol şəbəkələrində, avtotraslarda təhlükəsizlik qaydalarına biganə yanaşan, qeyri-düzgün davranışı ilə təhlükə törədən yol hərəkəti iştirakçılarına kifayət qədər rast gəlinir. Təkcə keçən 2022-ci il ərzində görülən ciddi tədbirlərə baxmayaraq, ölkədə hər 100 min avtomobil sayına görə yol qəzalarında ölüm sayı çoxdur. Belə ki, rəqəm göstəriciləri ilə ifadə etsək, vəziyyət belədir: YNH – 1668, Ölən – 834, Yaralı – 1456; ötən 2021-ci il dövrü üçün % ilə müqayisə: YNH - +1.2, Ölən - +18.1, Yaralı - +0.3. Bu da, təbii ki, ölkəmizin dinamik sosial-iqtisadi inkişaf prosesləri ilə uyğunluq təşkil etmir.

Göstərdiyimiz statistikanı nəzərə alaraq, qeyd edə bilərik ki, avtəmobil daşımaları zamanı nəqliyyat təhlükəsizliyinin etbarlı şəkildə təmin olunması nəqliyyat hüququnun həll etməli olduğu əsas məsələlərdən biridir. Söhbət nəqliyyat təşkilatlarının (qurumlarının) mühüm vəzifələrindən biri sayılan və dövlət siyasətinin tərkib hissəsi olan nəqliyyat təhlükəsizliyindən gedir. Qeyd etməliyik ki, yük, sərnişin və baqaj daşınması digər nəqliyyat növləri ilə yanaşı, həm də avtonəqliyyat vasitələrinin köməyi ilə həyata keçirilir. Nəqliyyat vasitələri isə yüksək təhlükə mənbəyi hesab olunur və onların istismarı prosesində ətrafdakılara maddi, fiziki, ekoloji və s. formada müəyyən zərər vurulur. Yüksək təhlükə mənbəyi növlərinin təsnifatında nəqliyyat vasitəsi fiziki təhlükə mənbəyi qrupunun mexaniki mənbə növünə aid edilmişdir. Azərbaycan Respublikasının yeni qəbul edilmiş Mülki Məcəlləsi də (1999-cu il) nəqliyyat vasitələrini ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyət növlərinin sırasına aid etmiş (maddə 1108) və belə fəaliyyət nəticəsində əmələ gələn mülki hüquq pozuntusuna görə müvafiq məsuliyyət nəzərdə tutur. Bu kontekstdə nəqliyyat daşıma prosesində nəqliyyat təhlükəsizliyinin təmin olunması ən vacib məsələ kimi çox aktual görünür.

Müasir dövrdə nəqliyyat təhlükəsizliyi anlayışı nəqliyyat yol daşıma prosesinin elə bir vəziyyətini ehtiva edir ki, bu vəziyyət həmin prosesdə iştirak edən şəxslərin yol-nəqliyyat hadisəsindən və onun nəticələrindən müdafiə olunma dərəcəsini əks etdirir.

Qeyd etməliyik ki, nəqliyyat təhlükəsizliyi anlayışının mühüm komponentlərindən biri də avtomobil yollarında baş verən qəzalar zamanı yaranan fövqəladə hallar və onların idarə olunması ilə bağlı məsələdir. Fövqəladə hal dedikdə ətraf mühitə və insan səhhətinə ziyan vura, maddi və mənəvi itkilərə səbəb ola bilən təhlükəli hadisə başa düşülür. Fövqəladə hallar təbii və texnogen mənşəli olmaqla iki qrupa bölünür:

– təbii mənşəli fövqəladə hallar (baş verən fəlakətli təbiət hadisələridir, məsələn – zəlzələ, sel, daşqın, torpaq sürüşməsi, vulkan püskürməsi, qar uçqunu, sunami, fırtına, şimşək çaxması və s. bu kimi təbiət hadisələri);

– texnogen mənşəli fövqəladə hallar (insan fəaliyyəti nəticəsində baş verən hadisələrdir, məsələn - yanğın, partlayış, nəqliyyat qəzaları, kimyəvi qəzalar, radioaktiv qəzalar, tikililərin uçması, dəm qazı təhlükəsi, kommunal təsərrüfatda qəzalar və s.).

Göründüyü kimi, nəqliyyat qəzaları texnogen mənşəli fövqəladə hallar kateqoriyasına aiddir. Bu münasibətlərin tənzimlənməsində “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanunu (1998-ci il) əsas və başlıca rol oynayır. Adıçəkilən normativ hüquqi akt yollarda nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz və rahat hərəkətini təşkil etmək məqsədi ilə kompleks tədbirlər həyata keçirilməsi, yol hərəkəti ilə bağlı insanların həyat və sağlamlığının qorunması, ətraf mühitin və əmlakın mühafizəsi, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin aşağı salınması üçün tədbirlər görülməsinin hüquqi əsaslarını və bu sahədə dövlətin, habelə yol hərəkəti iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir. Qanunda həmçinin yol hərəkəti sahəsində dövlətin vəzifələri kimi aşağıdakılar təsbit edilmişdir:

– yol hərəkətinin inkişafına və təhlükəsizliyinə dair proqramları və planları, avtomobil yolları şəbəkəsinin saxlanılması və inkişaf etdirilməsi, yollarda təhlükəsiz hərəkətin, habelə yol hərəkətinə dair ekoloji tələblərin təmin edilməsi sahəsində həyata keçirilən tədbirləri dövlət büdcəsindən maliyyələşdirmək;

– avtomobil yollarının təmiri və saxlanılması ilə bağlı fəaliyyətin, yol hərəkətinin təhlükəsizliyinə təsir göstərən digər növ fəaliyyətin həyata keçirilməsi, nəqliyyat vasitələrinin təmiri və istismarı, daxili və beynəlxalq sərnişin və yük daşımaları, təhlükəli yüklərin daşınması qaydasını müəyyən etmək;

– ekoloji təhlükəsiz tələblərinə əməl etməklə, ətraf mühiti mühafizə etmək, yol hərəkəti iştirakçılarının ehtiyaclarının təmin olunması məqsədilə avtomobil yollarının saxlanılmasını, təmirini, yenidən qurulmasını və tikintisini təşkil etmək və onların həyata keçirilməsinə nəzarət etmək, yolların qəza təhlükəli sahələrini aradan qaldırmaq;

– yol hərəkəti iştirakçılarının tibbi təminatını, o cümlədən yol-nəqliyyat hadisələrində zərər çəkənlərə tibbi yardımın göstərilməsini təşkil etmək;

– yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət və yerli əhəmiyyətli proqramların işlənib hazırlanması, həyata keçirilməsi və s.

Həmçinin, qeyd etməliyik ki, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda (1999-cu il) yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi polisin fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Eləcə də, göstərilən normativ hüquqi aktda təbii fəlakətlər zamanı, habelə qəza təhlükəsinin aradan qaldırılması ilə əlaqədar yol hərəkətini məhdudlaşdırmaq və ya qadağan etmək yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində polis əməkdaşının hüququ kimi təsbit edlmişdir.

Eyni zamanda, yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Dövlət Proqramı yol-nəqliyyat hadisələrinin sayının və bu hadisələr nəticəsində ölkəyə dəyən sosial-iqtisadi zərərin azaldılması istiqamətində tədbirləri özündə ehtiva edir, eləcə də bəzi anlayışlara aydınlıq gətirilir. Onlardan bir neçəsini qeyd edək:

– yol hərəkətinin təhlükəsizliyi sahəsində idarəetmə dedikdə yol hərəkəti təhlükəsizliyi sferasında Azərbaycan Respublikasının imzalamadığı və ya ratifikasiya etmədiyi beynəlxalq müqavilələrə qoşulması, qoşulduğu beynəlxalq müqavilələrin səmərəli həyata keçirilməsinin təmin edilməsi və zəruri tədbirlər görülməsi, mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi, yol hərəkəti təhlükəsizliyinin idarə edilməsinin səmərəli maliyyələşdirilməsi, yol hərəkətinin təhlükəsizliyi sahəsində vahid dövlət siyasətini formalaşdıran və onun həyata keçirilməsini təmin edən, nəzarət və əlaqələndirmə funksiyasını icra edən daimi əsaslarla fəaliyyətin təşkil edilməsi, bu sahədə səmərəli mərkəzi və yerli idarəetmə mexanizmlərinin formalaşdırılmasının təşviqi, şəffaflığın və qanunçuluğun gücləndirilməsi və vətəndaşlarla münasibətdə etik davranış qaydalarına riayət olunmasının təmin edilməsi, yol hərəkətinin

təhlükəsizliyi sahəsində idarəetmə sistemi üzrə milli texniki reqlamentlərin qəbul edilməsi və tətbiqi, dəqiq statistik və digər məlumatların toplanılması, analitik təhlili və bunların əsasında preventiv tədbirlərin həyata keçirilməsi, görülmüş işlərin səmərəliliyinin monitorinqi başa düşülür;

– qəzasonrası tədbirlər anlayışının məna yükü yol-nəqliyyat hadisələri ilə bağlı xilasetmə, təcili və təxirəsalınmaz tibbi yardım tədbirlərini həyata keçirən aidiyyəti qurumlar arasında əlaqələndirmənin gücləndirilməsi, vahid çağrı mərkəzinin yaradılması, yol-nəqliyyat hadisələrinin qeydiyyatı sisteminin və ilk tibbi yardım göstərilməsi işinin təkmilləşdirilməsi, yol-nəqliyyat hadisələrinin müntəzəm baş verdiyi yerlərin - qəza ocaqlarının müəyyən edilməsi və qəzaların səbəblərinin aradan qaldırılması işinin təkmilləşdirilməsi tədbirlərini ehtiva edir.

Dövlət Proqramında qeyd edilir ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi mürəkkəb sistemdir. Bu sistemin bir tərəfini onun hüquqi, sosial və iqtisadi çərçivəsini müəyyən edənlər, digərini isə həmin çərçivədə fəaliyyət göstərən yol hərəkətinin iştirakçıları təşkil edir. Sistem təminatçıları və iştirakçıları arasında qarşılıqlı əlaqə və birgə fəaliyyət olduğu kimi, məsuliyyət bölgüsü də olmalıdır. Bu cür məsuliyyət bölgüsü bir çox ölkələrdə qəbul edilmiş “təhlükəsiz yol hərəkəti sistemi” yanaşmasının təməlini təşkil edir: həmin sistemin əsasında insan ölümü və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayının minimuma endirilməsi prinsipi durur.

Həmçinin BMT-nin “Yol hərəkəti təhlükəsizliyi sahəsində 2011–2020-ci illər üzrə fəaliyyət Onilliyinin Qlobal Planı”nda yol hərəkətinin təhlükəsizliyi sahəsində milli strategiyanın qəbul edilməsi Dövlət Proqramında zəruri hesab edilir və Azərbaycan Respublikası bu sahədə beynəlxalq səyləri tam dəstəkləyir.

Xüsusilə, təqdirəlayiq hal kimi qeyd etməliyik ki, adıçəkilən Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.01.2022-ci il tarixli 17 nömrəli qərarı ilə “Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları” təsdiq edilmişdir. Qaydalar yol-nəqliyyat hadisələri (YNH) ilə bağlı operativ, əlaqələndirilmiş və keyfiyyətli xilasetmə tədbirlərinin görülməsi üçün bu növ hadisələrə dair çevik reaksiyavermə və ümumi xilasetmə fəaliyyətinin təşkili prosedurlarını müəyyən edir.

Təcili reaksiyavermə xidmətləri dedikdə avtomobil yollarında YNH zamanı təxirəsalınmaz tədbirlər həyata keçirən Fövqəladə Hallar Nazirliyinin qəza-xilasetmə bölmələri, “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin təcili tibbi yardım müəssisələri və Daxili İşlər Nazirliyinin dövlət yol polisi qurumları nəzərdə tutulur. Göstərilən orqan və qurumlar YNH baş verdikdə əlaqələndirilmiş şəkildə fəaliyyət göstərirlər. Belə ki, YNH-də zərərçəkmiş şəxslərə vaxtında kompleks yardımın göstərilməsi hadisə haqqında məlumat daxil olduğu andan başlayır. Dərhal “101”, “102”, “103”, “112” və “113” çağrı mərkəzlərinin növbətçi operatorunun YNH barədə verdiyi məlumatın təcili reaksiyavermə xidmətləri tərəfindən vaxtında və operativ qəbulu təmin edilərək qarşılıqlı təxirəsalınmaz tədbirlər görülür. Belə koordinasiya edilmiş kompleks fəaliyyət

nəticəsində gələcəkdə YNH zamanı ölən və yaralı şəxslərin sayının azalmasının mümkün olması gözləniləndir.

Azərbaycan Respublikasında yol hərəkətinin təşkili, idarə edilməsi və təhlükəsizliyin təmin olunması üzrə işlərə Daxili İşlər Nazirliyi öz müvafiq strukturları vasitəsi ilə rəhbərlik edir. Nazirlər Kabinetinin ümumi rəhbərliyi altında bu işin kompleks şəkildə həyata keçirilməsi tədbirlərinə İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Azərbaycan Dəmir Yolları və digər orqanlar (qurumlar) da cəlb edilir.

Digər tərəfdən, şəhər və digər məkanlarda fərdi yaşayış evlərinin və müxtəlif obyektlərin yolların hərəkət hissəsinə yaxın ərazilərdə tikilməsi gələcəkdə həmin yolların genişləndirilməsi zamanı bir sıra çətinliklərə gətirib çıxarır. Bu baxımdan, həmin tikililərə icazələr verilərəkən yolun qorunma (mühafizə) zolağından 50-70 metr kənarda inşa edilməsi ciddi nəzarətdə saxlanılmalıdır. Həm də, imkan daxilində, toxunulmuş məsələ üzrə layihə variantlarının rasional həllinə dair Azərbaycan İnşaat və Memarlıq Universitetinin peşəkar mütəxəssisləri tərəfindən müvafiq rəy bildirilməsi məqsədəuyğun görünür.

Qeyd olunanlarla yanaşı, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi üzrə fəaliyyətin başlıca prinsipləri kimi aşağıdakıları fərqləndirə bilərik:

– yol hərəkətində iştirak edən insanların həyat və sağlamlığının təsərrüfat fəaliyyətinin iqtisadi nəticələrindən üstünlüyü;

– yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə görə dövlət məsuliyyətinin yol hərəkətində iştirak edən şəxslərin məsuliyyətindən üstünlüyü;

– yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi zamanı insanların, cəmiyyətin və dövlətin mənafelərinə əməl olunması;

– nəqliyyat təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyətə məqsədyönlü və kompleks yanaşma.

Ümumilikdə götürdükdə, nəqliyyat daşımaları zamanı təhlükəsizliyinin təmin edilməsi aşağıda göstərilən əsas istiqamətlər üzrə həyata keçirilir:

– nəqliyyat daşımalarının təşkili prosesində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi;

– avtomobil yollarında yol hərəkəti üçün sərfəli və rahat şəraitin yaradılması;

– avtomobil, şəhər yerüstü elektrik nəqliyyatının və yol təsərrüfatı fəaliyyətinin effektiv şəkildə nizama salınması;

– avtonəqliyyat vasitələrinin yol hərəkətinə buraxılması və yol hərəkətinin nizama salınması;

– avtomobil yollarında təhlükəsiz davranma qaydalarının vətəndaşlara öyrədilməsi və bu sahədə müvafiq maarifləndirmə işlərinin aparılması;

– yol hərəkəti təhlükəsizliyinin tibbi təminatı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi və ətraf mühitin mühafizəsi;

– avtonəqliyyat təhlükəsizliyi tədbirlərinin maddi və maliyyə təminatı;

– yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların nəticələrinin ağırlığını azaltmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;

– nəqliyyat təhlükəsizliyinin təmin edilməsi sahəsində mövcud qanunvericiliyin və

müvafiq qaydaların, standartların, texniki normaların və digər normativ hüquqi sənədlərin tələblərinin yerinə yetirilməsinə dövlət nəzarətinin həyata keçirilməsi və s.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamərində xüsusi əhəmiyyət kəsb edən bəzi məqamları da qeyd edək:

– yol hərəkətini tənzimləyən qanunvericilik aktlarının müasir dövrün tələblərinə uyğun şəkildə daha da təkmilləşdirilməsi;

– yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə bütün avtomobil yollarında işıqəksetdirən elementlərin quraşdırılması;

– paytaxtda yerləşən ali təhsil müəssisələrinin, məsələn, Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Texniki Universitet və s. ətrafında nəqliyyat sıxlığının aradan qaldırılması məqsədilə onların həyətlərində nəqliyyat vasitələri üçün çoxmərtəbəli parklanma yerlərinin inşası məsələsinə baxılması;

– bir sıra təşkilatların, xüsusilə də, bir sıra ali və orta ixtisas təhsili müəssisələrinin, məsələn, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Azərbaycan İqtisad Universitetinin və s. paytaxtdan kənara köçürülməsi məsələsinin nəzərdən keçirilməsi;

– “Tullantılar haqqında” Azərbaycan Respublikasının 24.06. 2023-cü il tarixli 928-VI-QD nömrəli Qanununa edilmiş “II-I fəsil. Nəqliyyat vasitələrinin utilizasiyası” adlı fəslin bəzi maddələrinin 2024-cü il fevralın 1-dən, digər müddəaların isə sentyabrın 1-dən qüvvəyə minməsi nəzərə alınmaqla, ölkədə nəqliyyat parkının yenilənməsi məqsədilə, istismara yarasız vəziyyətdə olan nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsinə start verilməsi;

– yol hərəkətinin təhlükəsizliyi sahəsində mövcud olan problemlərin vaxtında aşkarlanması və aradan qaldırılması barədə, mütəmadi olaraq, Hökumət qarşısında vəsatət qaldırılması və s. silsilə tədbirlər.

XX əsrin sonlarında nəqliyyat hüququnun təşəkkül tapması qloballaşma dövründə “nəqliyyat təhlükəsizliyi” hüquq institutunun, onun prinsiplərinin formalaşması ilə müşaiyət olunur. Bu mövqeyə əsaslanaraq göstərilən prinsiplərin reallaşdırılması problemi, avtonəqliyyat daşımalarının təşkili və onların təhlükəsizliyinin təmin edilməsi prinsipinin həyata keçirilməsi dövlət orqan və qurumlarının sanki konstitusion vəzifəsinə çevrilib.

Göründüyü kimi, “nəqliyyat təhlükəsizliyi” prinsipi müasir dövrdə nəqliyyat hüququnun əsas prinsiplərindən biri olmaqla sərnişinlərin və yüklərin daşınması üzrə subyektlərin nəqliyyat fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. İstənilən təhlükəsizlik növünə xas olduğu kimi, sərnişin və yüklərin avtodaşınması (nəql edilməsi) ilə bağlı olan nəqliyyat təhlükəsizliyi üçün də ən əsas insan həyatının üstünlüyü məsələsidir. Bu zaman hər hansı avtonəqliyyat vasitəsindən istifadə edildikdə nəqliyyat təhlükəsizliyi üçün başlıca əlamət qismində insan hüquqlarının təmin edilməsi, ətraf mühitin qorunması, ekoloji duruma zərər vurulmaması və s. bu kimi faktorlar çıxış edir.

Nəqliyyat daşımaları zamanı təhlükəsizliyin təmin olunması problemi qlobal məsələlərdən biridir. Bu problemin rasional həll olunması istiqamətində dünya birliyi üzvlərinin öz səylərini beynəlxalq, regional və milli səviyyədə birləşdirməsini, yəni nəqliyyat

təhlükəsizliyinin gücləndirilməsində sıx əməkdaşlıq edilməsini şərtləndirir. Belə ki, insan həyatı, sağlam ətraf mühit və digər qlobal amillər nəqliyyat təhlükəsizliyinin kollektiv səylər nəticəsində təmin olunmasının vacibliyini zəruri edir.

Nəqliyyat (daşıma) təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlıq dövlətlərarası, hökumətlərarası, idarələrarası müqavilələr (sazişlər, kontraktlar və s.), habelə qanunvericiliyə uyğun olaraq nəqliyyat müəssisələri tərəfindən birbaşa bağlanan müqavilələr əsasında həyata keçirilir. Azərbaycan Respublikası bir sıra ölkələrlə (məsələn, Türkiyə, Rusiya, Rumıniya, Moldova, Latviya, İran, İordaniya, İsveçrə, Niderland, Tacikistan, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri və s.) avtomobil əlaqələri haqqında müvafiq sazişlər imzalamışdır.

Təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, qloballaşma dövründə nəqliyyat daşımaları sahəsində təhlükəsizliyinin təmin olunması üçün, praktiki olaraq, dövlətlərarası əməkdaşlığın institusional bazası formalaşmaqdadır.

Qeyd etmək lazımdır ki, beynəlxalq aləmdə nəqliyyat təhlükəsizliyinin təmin olunması sahəsində çox pozitiv təcrübə formalaşmış, hətta milli (dövlətdaxili) səviyyədə nəqliyyat təhlükəsizliyi ilə bağlı bir sıra problemlər informasiya-kommunikasiya texnologiyaları vasitələri tətbiq olunmaqla uğurla həll edilməkdədir. Belə bir şəraitdə nəqliyyat təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması məqsədilə dövlətlərin daha yüksək səviyyəli əlaqələrinin və beynəlxalq nəqliyyat təhlükəsizliyi sistemi konsepsiyasının yaradılmasını qloballaşma dövrünün aktual məsələlərindən biri hesab edirik.

Təqdim edilən belə bir sistem çərçivəsində nəzərdə tutula bilər ki, beynəlxalq daşımalarda nəqliyyat təhlükəsizliyinin vahid beynəlxalq strategiyası hazırlansın və qəbul edilsin. Zənn edirik ki, gələcəkdə dövlətlərin və digər subyektlərin intensiv və sıx əməkdaşlığı sayəsində, həmçinin müvafiq beynəlxalq təşkilatların səyləri nəticəsində sözügedən strategiya və konsepsiyanın yaradılması mümkün olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "PG" nəşriyyatı, 2014, 52 s.
2. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı, 1998-2023.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir – B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, 848 s.
4. Allahverdiyeva S.Ə. Nəqliyyatın coğrafiyası. Dərs vəsaiti. Bakı, "AVROPA" nəşriyyatı, 2019, 284 s.
5. Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Bakı, "UniPrint" nəşriyyatı, 2011, 676 s.
6. Əliyev E.Ə. Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, "QHT nəşriyyatı" MMC, 2013, 614 s.
7. "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: E.M.Əfəndiyev. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2011, 49 s.
8. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2017, 180 s.
9. Elektron informasiya mənbələri (URL – Uniform Resourse Locator)
9.1. https://president.az/az/articles/view/31386
9.2. https://www.dyp.gov.az/index.php?/az/content/205
9.3. www.e-qanun.az

# УПРАВЛЕНИЕ ЧРЕЗВЫЧАЙНЫМИ СИТУАЦИЯМИ В РЕЗУЛЬТАТЕ ТРАНСПОРТНЫХ ПРОИСШЕСТВИЙ

**Алиев Этибар Али оглы,**
**Бакинский государственный университет, юридический факультет, профессор кафедры ЮНЕСКО «Права человека и информационное право», действительный член Международной академии транспорта, доктор юридических наук;**
элек. почта: a-etibar@rambler.ru;
**Гусейнзаде Эльвин Джахангир оглу,**
**начальник отдела ГУГДП МВД Азербайджанской Республики, полковник полиции;**
элек. почта: huseynzada1983@gmail.com;
**Тагиев Ровшан Али оглы,**
**начальник отдела ГУГДП МВД Азербайджанской Республики, подполковник полиции.**
элек. почта: tagiyev-rovsen@inbox.ru
**Агаев Фаиг Багадур оглы,**
**Бакинский Государственный Университет, докторант Юридического факультета, доктор философии по техническим наукам.**
элек. почта: faiq_agayev@yahoo.com

В статье рассматриваются чрезвычайные ситуации и управление ими при транспортных авариях. Отмечается, что в современную эпоху под безопасностью дорожного движения понимают такое состояние дорожно-транспортного процесса, при котором понятна степень защищенности лиц, участвующих в этом процессе, от дорожно-транспортного происшествия и его последствий.

**Ключевые слова:** дорожно-транспортное происшествие, чрезвычайные ситуации, транспортная безопасность, управление, транспортное право.

# MANAGEMENT OF EMERGENCIES RESULTING FROM TRAFFIC ACCIDENTS

**Aliyev Etibar Ali oglu,**
**Baku State University, Faculty of Law, Professor of the UNESCO Chair "Human Rights and Information Law", full member of the International T ransport Academy, Doctor of Law;**
email address: a-etibar@rambler.ru
**Huseynzade Elvin Jahangir oglu,**
**head of the Department of the Main State Traffic Safety Inspectorate of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan, police colonel;**
email address: huseynzada1983@gmail.com

**Taghiyev Rovshan Ali oglu,**
**head of the Department of the Main State Traffic Safety Inspectorate of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan, police lieutenant colonel;**
email address: tagiyev-rovsen@inbox.ru
**Agayev Faig Bahadur oghlu,**
**PhD studend of Law faculty of Baku State University, Doctor of philosophy in Technical Sciences.**
e-mail adress: faiq_agayev@yahoo.com

The article examines emergency situations and their management during transport accidents. It is noted that in modern times, the term car transport safety means such a state of the motor transport process that the degree of protection of the persons participating in that process from the traffic accident and its consequences is understood.

**Key words:** traffic accident, emergencies, transport safety, management, transport law.

## TRAFİK KAZALARINDAN KAYNAKLANAN ACİL DURUMLARIN YÖNETİMİ

**Aliyev Etibar Ali oğlu,**
**Bakü Devlet Üniversitesi Hukuk Fakültesi, UNESCO "İnsan Hakları ve Bilgi Hukuku" Kürsüsü profesörü, Uluslararası Ulaştırma Akademisi asil üyesi, hukuk bilimleri doktoru;**
e-posta adresi: a-etibar@rambler.ru
**Hüseyinzade Elvin Cihangir oğlu,**
**İçişleri Bakanlığı Genel Devlet Trafik Emniyet Müdürlüğü Teşkilat-müfettiş Dairesi Başkanı, Polis albayı;**
e-posta adresi: huseynzada1983@gmail.com;
**Taghiyev Rovshan Ali oğlu,**
**İçişleri Bakanlığı Genel Devlet Trafik Emniyet Müdürlüğü Trafik Güvenliğini Geliştirme ve Kamu Kurumlarıyla İlişkiler Dairesi Başkanı, Polis Yarbay.**
e-posta adresi: tagiyev-rovsen@inbox.ru
**Ağayev Faiq Bahadur oğlu,**
**Bakü Devlet Üniversitesi Hukuk Fakültesi Doktoru ögrencisi,**
**Teknik Bilimlər Felsefe Doktoru.**
e-posta: faiq_agayev@yahoo.com

Makalede trafik kazalarından kaynaklanan acil durumların yönetimi ile ilgili konular incelenmektedir. Modern zamanlarda ulaşım güvenliğinin, ulaşım sürecinin öyle bir durumu anlamına geldiği, o sürece katılan kişilerin trafik kazasından ve sonuçlarından korunma derecesinin anlaşıldığı belirtilmektedir.

**Anahtar kelimeler:** trafik kazası, acil durumlar, ulaştırma güvenliği, yönetim, ulaştırma hukuku.

# BEYNƏLXALQ HUMANİTAR HÜQUQDA SİLAHLI MÜNAQİŞƏLƏR

**Məmmədov Nəsir Natiq oğlu,**
**BDU-nun doktorantı, h.ü.f.d.**
e-mail: nasirmammadov
nasirmammadov@gmail.com

*Bu məqalədə beynəlxalq humanitar hüquqda silahlı münaqişələrin növləri araşdırılmışdır. Müəllif göstərir ki, beynəlxalq humanitar hüquqda silahlı münaqişələrin, bir qayda olaraq iki qrupa bölüməsi (beynəlxalq silahlı münaqişələr; qeyri-beynəlxalq silahlı münaqişələr) hərbi faktorlardan daha çox tarixi-siyasi faktorlarla bağlı olmuşdur. Məqalədə silahlı münaqişələrin təsnifatının dəqiq aparılması və silahlı münaqişə növlərindən hər birinin xarakterinin, fərqləndirici cəhətlərinin aşkara çıxarılmasının yalnız doktrinal deyil, həm də praktiki aspektdə müstəsna əhəmiyyətə malik olması əsaslandırılır. Həmçinin müəllif qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı meydana çıxan çətinliklərə diqqət çəkir.*

**Açar sözlər:** beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq, silahlı münaqişə, silahlı münaqişənin növləri, beynəlxalq silahlı münaqişələr, qeyri-beynəlxalq silahlı münaqişələr, ölkədaxili iğtişaşlar, beynəlxalq terrorçuluq.

Təsnifat hər hansı bir anlayışın obyektlərinin daha mühüm xüsusiyyətlərinə və ya əlamətlərinə görə siniflərə ayrılmasıdır. Təsnifat zamanı “cins” anlayışını təşkil edən obyektlər növlərə bölünür və nəticədə növ anlayışları meydana gəlir.

Təsnifat dedikdə təzahürlərin (hadisələrin) ümumi əlamətlərə uyğun şəkildə siniflərə bölünməsi, yəni təsnifləndirilməsi nəzərdə tutulur. Eyni zamanda, sinif ümumi əlamətlərə malik olan təzahürlər (hadisələr) məcmusunun dərəcəsini, kateqoriyasını bildirir. Təzahürlərin siniflər üzrə bölünməsi onların daxili məzmununu əhatə edən müxtəlif, eyni zamanda, vacib əlamətlərə əsasən həyata keçirilir. Bu əlamətlər siniflərə bölünmənin - təsnifatın əsasları adlanır. Ədəbiyyatda [1, s. 450] belə bir əlamət, adətən, meyar adlandırılır.

Terminoloji fəaliyyət üçün təsnifatın əhəmiyyətini qiymətləndirməmək olmaz. Məhz təsnifatın köməyilə bütün rəngarəng əlaqələri ilə birlikdə predmet sahəsinin məntiqi-anlayış quruluşu aşkara çıxarılır. İstənilən elm sahəsi üçün təsnifat mühüm təyinata malikdir. Öyrənilən obyektlərin təsnifləşdirilməsi ənənəvi dərketmə metodu kimi çıxış edir. Təsnifat elmin inkişafının müəyyən mərhələsində, tədqiqat materiallarının qiymətləndirilməsinə, habelə anlayışların iyerarxiyasının və tədqiqat obyektlərinin qarşılıqlı əlaqələrinin müəyyən edilməsinə zərurət yarandıqda meydana çıxır. Hesab edilir ki, təsnifatın aparılması cəhdləri, bir qayda olaraq, təbii “xaos”un nizaman salınması istəyi [8, s. 156] ilə bağlı olur.

Elmi təsnifat insan beynində anlayış formasında əks olunan ideyaların nizamlanmış assosiasiyası, habelə əqli təşkili üsuludur. Bəlli xüsusiyyətlərə malik olan fərdi obyektlərin məcmusu sinif adlanır. Ayrı-ayrı tipik obyektlərin xarakteristikası bütövlükdə

sinfin mahiyyətini dərk etməyə və anlayışı təsnifləşdirməklə onları sistem halında birləşdirməyə [13, s. 138] kömək edir.

"Təsnifat", "bölgü" və "bölünmə" anlayışlarını fərqləndirmək lazımdır. Belə ki, klassik məntiq baxımından, təsnifat bölgünün sadəcə olaraq növlərindən biridir, yəni bölgü təsnifata nisbətən daha geniş məzmuna malik olan kateqoriyadır. Anlayışların bölgüsü məntiqi bir əməliyyat olmaqla anlayışların müəyyən əlamətlərinə görə bir neçə yerə bölünməsini bildirir. Bölgüyə məruz qalmış anlayışlar isə bölünən anlayışlar adlanırlar. Bölgünün tərifdən fərqi ondan ibarətdir ki, tərif anlayışın məzmununu ifadə etdiyi halda, bölgü həcmini ifadə edir. Bölgü dedikdə, anlayışın həcmini ifadə edən məntiqi əməliyyat başa düşülür. Bölgüyə cins anlayışında onun növlərini təşkil edən (ən azı iki) anlayışların fərqləndirilməsi yolu ilə nail olunur. Məsələn, "konstitusiya" cins anlayışı kimi "unitar dövlətin konstitusiyası" və "federativ dövlətin konstitusiyası" kimi cins anlayışlarını əhatə edir. Bölgünü bölünmədən fərqləndirmək lazımdır. Bölgü cinsin növlərə ayrılmasıdır. Növ-cins münasibətləri isə onunla xarakterizə olunur ki, cins barədə deyilənləri növ barədə də söyləmək olar. Məsələn, federativ dövlətin konstitusiyası konstitusiyanın bütün əlamətlərinə malikdir. Bölünmə isə tamın hissələrə ayrılmasıdır. Məsələn, konstitusiya bölmələrə, fəsillərə və maddələrə bölünür. Tam-hissə manasibətləri isə onunla xarakterizə olunur ki, tam barədə deyilənləri hissə barədə də söyləmək olmaz (ayrıca bölmə, fəsil və ya maddə hələ konstitusiya demək deyildir) [2, s. 72].

Müasir müharibələrin (silahlı münaqişələrin) xarakteri onların hərbi-siyasi məqsədləri, bu məqsədlərə nail olunması vasitələri və hərbi əməliyyatların miqyası ilə müəyyən olunur. Bu baxımdan, müharibələr (silahlı münaqişələr) aşağıdakı kimi təsnif edilə bilər [7, s. 49-50]:

**hərbi-siyasi məqsədlərinə görə:**

– ədalətli – BMT Nizamnaməsinə, beynəlxalq hüququn əsas norma və prinsiplərinə zidd olmayan, təcavüzə məruz qalan tərəfin özünümüdafiəsi qaydasında aparılan müharibə (silahlı münaqişə);

– ədalətsiz – BMT Nizamnaməsinə, beynəlxalq hüququn əsas norma və prinsiplərinə zidd olan, təcavüz hesab olunan və silahlı hücum edən tərəfin apardığı müharibə (silahlı münaqişə);

**tətbiq edilən vasitələrə görə:**

– nüvə və digər kütləvi qırğın silahlarının tətbiqi ilə aparılan müharibə (silahlı münaqişə);

– yalnız adi dağıdıcı vasitələrin tətbiqi ilə aparılan müharibə (silahlı münaqişə);

**miqyasına görə:**

– lokal;

– regional;

– genişmiqyaslı.

Lokal müharibə döyüşən dövlətlərin ərazisi hüdudlarında baş verir və məhdud hərbi-siyasi məqsədlər güdür. Regional müharibə bir regionun iki və ya daha çox dövləti arasında, daha ciddi hərbi-siyasi məqsədlərə nail olunması üçün baş verir. Genişmiqyaslı müharibə isə lokal və ya regional münaqişələrin genişlənməsi nəticəsində və dünyanın müxtəlif regionlarından olan çoxsaylı dövlətlərin iştirakı ilə baş verir.

Məlum olduğu kimi, beynəlxalq humanitar hüquqda silahlı münaqişələr, əsasən iki qrupa – beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələrə bölünür. Bu, hərbi zərurətin və ya humanitar planda tələbatın deyil, daha

çox siyasi tarixin nəticəsidir. Yüzilliklər ərzində suveren dövlətlər öz münasibətlərini həm sülh dövründə, həm də müharibə dövründə öz münasibətlərini milli suverenliyin və beynəlxalq hüquq subyektliyinin qarşılıqlı surətdə tanınmasına əsaslanan müqavilə və adətlər vasitəsilə tənzimləmişlər. Hökumətlər heç zaman istəməmişlər ki, onların öz ərazilərində hüquq qaydası və təhlükəsizliyin dəstəklənməsi üzrə hərəkətləri beynəlxalq hüququn tələblərinə tabe olsun. Ona görə də "qeyri-beynəlxalq silahlı münaqişə" anlayışının ümumi 3-cü maddəyə əlavə edilməsi beynəlxalq humanitar hüququn inkişafı və məcəllələşdirilməsində əhəmiyyətli dönüş nöqtəsi olmuşdur. Bundan sonra artıq mütəşəkkil silahlı qruplar beynəlxalq hüquq üzrə öz öhdəlikləri ilə birlikdə silahlı münaqişədə tərəf hesab olunmağa başlamışlar, həm də müharibə vəziyyətinin hər hansı formal tanınmasından asılı olmayaraq. Eyni zamanda, razılığa gələn tərəflər qeyd etmişlər ki, ümumi 3-cü maddənin müddəalarının tətbiqi münaqişədə olan tərəflərin hüquqi statusuna toxunmayacaq. Başqa sözlə, müqavilədə mütəşəkkil silahlı qrupların döyüşən tərəf kimi tanınması nə onların legitim qazanmasını, nə də onların beynəlxalq hüquqa əsasən tam hüquq subyektliyinə malik olmasını nəzərdə tutmur. Bu tarixi fon qeyri-beynəlxalq silahlı münaqişələrə nisbətən beynəlxalq silahlı münaqişələri daha çox tənzim edən hazırkı beynəlxalq humanitar hüquq normaları sistemini formalaşdırdı [17]. Əslində isə humanitar və hərbi baxımdan, mahiyyət etibarilə, həmin normalar sistemi silahlı münaqişələrin hər iki növü üçün eyni əhəmiyyətə malikdir.

A.P.Ladınenko qeyd edir ki, beynəlxalq humanitar hüquq normalarının səmərəli tətbiqi üçün silahlı münaqişənin düzgün tövsifi müəyyənedici əhəmiyyət kəsb edir. Beynəlxalq humanitar hüququn genezisi silahlı münaqişə və uyğun olaraq, onlara tətbiq olunan beynəlxalq humanitar hüquq normalarının növlərinin artdığını göstərir. Müəllif buraya aşağıdakıları aid edir:

– müharibə, indiki anlamda beynəlxalq xarakterli silahlı münaqişə;

– qeyri-beynəlxalq xarakterli silahlı münaqişə;

– beynəlmiləlləşmiş silahlı münaqişə.

Müəllif göstərir ki, beynəlxalq humanitar hüquq üçün silahlı münaqişənin xarakterinin müəyyən edilməsi vacib olsa da, yenə də, bu, köməkçi əhəmiyyət kəsb edir. Çünki əsas məqsəd müharibə qurbanlarını münaqişənin xarakterindən asılı olmayaraq müdafiə etməkdir. Lakin, qeyd etmək lazımdır ki, silahlı münaqişənin bu və ya digər növünün baş verdiyi şəraitdə tətbiq edilməli olan normaların aşkara çıxarılması, habelə himayə olunan şəxslərin statusunun və onların müdafiəsinin səmərəli hüquqi rejiminin müəyyən edilməsi baxımından silahlı münaqişənin xarakteri, onun təsnifatı həlledici əhəmiyyət kəsb edir. Qeyd olunanlar beynəlxalq humanitar hüquqda silahlı münaqişələrin anlayışı və növlərinin, eləcə də onlara tətbiq edilən beynəlxalq humanitar hüquq normaları arasında fərqliliklərin tədqiq edilməsini zərurətə çevirir [6, s. 136].

Beynəlxalq xarakterli silahlı münaqişələrə dövlətin və ya dövlətlərin fərdi və ya kollektiv şəkildə təcavüzdən özünümüdafiə məqsədilə apardığı müharibələr, müstəmləkə və ya asılı xalqların öz milli azadlıqlarına nail olmaq və müstəqil dövlətlərini qurmaq üçün apardığı milli azadlıq müharibələri aid edilir. Birinci halda klassik dövlətlərarası müharibələrdən

danışmaq olar. Hansı ki, onların başlıca əlaməti münaqişədə iki və ya daha çox dövlətin iştirak etməsidir. Silahlı münaqişənin "özünün müdafiə hüququnun həyata keçirilməsi" kimi müəyyən edilməsi "müharibə" termininin tətbiqi üçün tövsifedici əhəmiyyət daşımır. Bu, təcavüzkar, lakin formal tələblərə cavab verən müharibə ola bilər. ABŞ-ın İraqdakı əməliyyatlarını özünümüdafiə müharibəsi adlandırmaq çətindir, lakin elan olunma və s. kimi formal tələblər yerinə yetirilmişdi. Belə növ münaqişələrə İran və İraq arasında müharibəni (1980-1990-cı illər), Folklend adaları uğurunda müharibəni (1982-ci il), Aozu sektoruna sahib olmaq uğrunda Liviya və Çad arasında qarşıdurmanı (1973-1988-ci illər), CAR-ın Anqoladakı əməliyyatlarını (1975-1989-cu illər), Küveyt münaqişəsini (1991-ci il) və s. aid etmək olar. Milli azadlıq müharibələri beynəlxalq xarakterli silahlı münaqişələrin ayrıca növü kimi nəzərdən keçirilir. Beynəlxalq xarakterli silahlı münaqişələrin növü kimi milli azadlıq müharibələri haqqında təsəvvürlərin inkişafı bir neçə mərhələdən keçmişdir [6, s. 141].

BMT TŞ-nın qərarı ilə BMT Nizamnaməsinin 42-ci maddəsinə uyğun olaraq yaradılmış BMT hərbi birliklərinin əməliyyatları da beynəlxalq xarakterli silahlı münaqişələrə aid edilir.

Beynəlxalq silahlı münaqişə gələcəyə yönəlik düşmənçilik niyyətinin olmadığını ifadə edən sülh sazişinin və ya eyniəhəmiyyətli sazişin imzalanması və ya birtərəfli bəyanatın və ya eynimənalı digər aktın qəbul edilməsi ilə bitir. Misal olaraq kapitulyasiya aktını, kapitulyasiya barədə bəyanatı və ya əvvəllər mübahisələndirilən ərazilərdən qeyd-şərtsiz, qəti və tam şəkildə çıxmanı da göstərmək olar. Bu gün beynəlxalq silahlı münaqişələr nadir hallarda formal sülh sazişinin bağlanması ilə bitir. Onlar daha çox gərginliyin tədricən azaldılması, atəşkəs barədə razılaşmalar və ya sülhməramlıların müdaxiləsi [9, s. 69] ilə sona çatır.

Qeyri-beynəlxalq silahlı münaqişə anlayışı və onun əsas əlamətləri "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasının (1949) 3-cü maddəsində və həmin konvensiyaya II Əlavə protokolun 1-ci maddəsində öz təsbitini tapmışdır.

Müəlliflərdən T.V.Kuvırçenkova hesab edir ki, qeyri-beynəlxalq xarakterli silahlı münaqişə dedikdə, siyasi məqsədlərə nail olunmasına yönələn dövlətin ərazisində ölkənin silahlı qüvvələri ilə qanunsuz silahlı qruplaşmalar arasında və ya mərkəzi hakimiyyətin olmadığı bir şəraitdə hərəkətləri ölkənin konstitusiya quruluşu, vətəndaşçların hüquq və azadlıqları üçün təhdid yaradan iki düşmən tərəf arasında yaranan silahlı qarşıdurma müddəti ərzində davam edən silahlı münaqişə başa düşülməlidir. Bu zaman silahlı qruplaşmaların iştirakçıları faktiki olaraq dövlətin bir hissəsinə nəzarət edirlər. Bu isə, onlara imkan verir ki, açıq, fasiləsiz və razılaşdırılmış hərbi əməliyyatlar aparsınlar və II Protokolu tətbiq etsinlər [5, s. 22].

Beynəlxalq hüquq doktrinasında göstərilir ki, qeyri-beynəlxalq xarakterli silahlı münaqişə dövlətin ərazisində bir tərəfdən hökumət, digər tərəfdən isə üsyankar qruplar arasında baş verən silahlı qarşıdurmadır. Qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr beynəlxalq humanitar hüququn məcəlləşdirilməsində mühüm rol oynayır. Bu, ilk növbədə, istənilən dövlətin öz daxili işlərinə müdaxilə olunmasına qəti surətdə yol verməmək istəməməsi ilə bağlıdır. Çünki belə müdaxilə dövlət suverenliyinin pozulması

kimi qiymətləndirilir. Müvafiq hökumətin daxili problemləri öz mülahizəsinə uyğun olaraq həll etmək hüququ suverenliyin əsas rəmzi hesab olunur. Bir sıra hallarda beynəlxalq humanitar hüquq ölkədaxili silahlı münaqişələrə də şamil olunur. Bu, belə bir faktın dövlətlər tərəfindən dərk edilməsi sayəsində mümkün olmuşdur: vətəndaş müharibələri zamanı dövlətlərarası müharibələrə nisbətdə heç də az olmayan həcmdə fəlakətli nəticələr, qurbanlar, iztirablar, dağıntılar ola bilər. Məsələn, 1936-1939-cu illərdə İspaniyada baş verən vətəndaş müharibəsi zamanı milyonlarla insan ölmüşdü [11, s. 26-33] və onların böyük hissəsini məhz dinc əhali təşkil edirdi.

Müəlliflərdən D.Şindler qeyri-beynəlxalq xarakterli silahlı münaqişələri aşağıdakı kimi təsnifləşdirir:

– vətəndaş müharibəsi: klassik beynəlxalq-hüquqi mənada yüksək intensivlikli qeyri-beynəlxalq silahlı münaqişə, hansı ki, bu zaman üçüncü dövlət yeni yaranmış hökumətə döyüşən tərəf statusu verə bilər;

– "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasının (1949-cu il) 3-cü maddəsi kontekstində silahlı münaqişə;

– "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasına (1949-cu il) II Əlavə protokol (1977-ci il) kontekstində silahlı münaqişə.

O.N.Toloçko [14, s. 47-49] isə, qeyri-beynəlxalq xarakterli silahlı münaqişələri aşağıdakı növlərə ayırır:

a) az intensivlikli qeyri-beynəlxalq silahlı münaqişə – bu münaqişələrə "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasının (1949-cu il) 3-cü maddəsi tətbiq edilir;

b) yüksək intensivlikli qeyri-beynəlxalq silahlı münaqişə – bu münaqişələrə "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasının (1949-cu il) 3-cü maddəsi ilə yanaşı II Əlavə protokol (1977-ci il) da tətbiq edilir;

c) iştirakçılar üçün qarşılıqlı surətdə döyüşən tərəf statusunun tanındığı qeyri-beynəlxalq silahlı münaqişə.

Qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr, bir qayda olaraq, aşağıdakı səbəblərə görə yaranır:

– milli azlıqların hüquqlarının pozulması;

– dövlət hakimiyyəti orqanları tərəfindən insan və vətəndaş hüquqlarına əməl olunmaması;

– hakimiyyətin ölkəni idarə edə və ölkədə qanunçuluğu və hüquq qaydasını təmin edə bilməməsi və nəticədə müxtəlif əhali qruplarının öz aralarında hakimiyyət uğrunda mübarizəyə başlaması;

– müxtəlif dinlər arasında konfessional ziddiyyətlərin olması;

– milliyyətçilik, irqçilik və digər xalqlara qarşı dözümsüzlük [7, s. 55].

Beynəlxalq humanitar hüquq normalarında aydın şəkildə göstərilir ki, həmin normaları nə daxili qarşıdurmalar, nə də daxili gərginlik hallarında tətbiq etmək olmaz. Lakin "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə Konvensiyasının (1949-cu il) əsas prinsipləri hüquqi prosedur modeli kimi istifadə oluna və ya hansısa konkret vəziyyətlərdə tətbiq edilmək zəruri olan normaların işlənib hazırlanması üçün əsas kimi çıxış edə bilər. Belə hallarda humanitar hüququn pozitiv normaları deyil, ilk növbədə, beynəlxalq ictimaiyyət tərəfindən müəyyən edilmiş oxşar mexanizmlər nəzərə alınır [10, s. 36-37]. Bu isə, hüququn analogiya üzrə tətbiqi imkanına əsaslanır.

**Ədəbiyyat**


1. Большая советская энциклопедия. - Москва: Советская Энциклопедия, 1973. - 608 с.
2. Иванов, Е.А. Логика. Учебник. 2-е издание, переработанноеи дополненное / Е.А.Иванов. - Москва: Издательство БЕК, 2002. - 368 с.
3. Комментарий к Дополнительному протоколу к Женевским конвенциям от 12 августа 1949 года, касающемуся защиты жертв вооруженных конфликтов немеждународного характера (Протокол II): [Электронный ресурс] / URL: https://www.icrc.org/ru/document/kommentariy-k-dopolnitelnomu-protokolu-k-zhenevskim-konvenciyam-ot-12-avgusta-1949-goda
4. Кувырченкова, Т.В. К понятию вооруженных конфликтов: проблемы определения // Вестник ТвГУ. Серия «Право», - 2014. № 4, с. 240-246.
5. Кувырченкова, Т.В. Защита прав человека в условиях внутренних вооруженных конфликтов: монография / Т.В.Кувырченкова. - Тверь: Твер ГУ, 2007. - 88 с.
6. Ладыненко, А.П. Виды вооруженных конфликтов и применимое к ним право // Альманах міжнародного права, 2009. Вип. 1, с. 136-150.
7. Леншин, С.И. Правовой режим вооружённых конфликтов и международное гуманитарное право: Монография. Серия «Право в Вооруженных Силах — консультант» / С.И.Леншин. – Москва: За права военнослужащих, 2009. - 240 с.
8. Литовченко, В.И. Классификация и систематизация терминов // Вестник Сибирского государственного аэрокосмического университета имени академика М.Ф.Решетнева, Сибирский аэрокосмический журнал, 2006. № 3 (10), с. 156-159.
9. Мельцер, Н. Международное гуманитарное право. Общий курс / Н.Мельцер, Э.Кустер.- Москва: МККК, 2017. - 419 с.
10. Репецький, В.М. Міжнародне гуманітарне право: підручник / В.М.Репецький, В.М.Лисик. – Киев: Знання, 2007. - 467 с.
11. Сагер, М. Контрольные механизмы в международном гуманитарном праве // Советский журнал международного права, 2014. № 3-4, с. 26-33.
12. Смирнов, М.Г. Вооруженный конфликт немеждународного характера: международно-правовой аспект / М.Г.Смирнов. - Москва: Норма, 2014. - 208 с.
13. Суперанская, А.В. Общая терминология. Вопросы теории / А.В.Суперанская, Н.В.Подольская, Н.В.Васильева. - Москва: Наука, 1989. - 254 с.
14. Толочко, О.Н. Особенности международно-правового регулирования внутренних вооруженных конфликтов // Український часопис міжнародного права, 2006. № 2, с. 45-52.
15. Тузмухамедов, Б.Р. Международно-правовая классификация вооруженных конфликтов: дефиниции и реальность // Пути к миру и безопасности, 2018. № 1 (54), с. 44-53.
16. Уоткин, К.У. Комбатанты, «непривилегированные воюющие» и конфликты XXI века: материал для Неформальной встречи экспертов на высшем уровне, посвященной теме «Подтверждение и развитие международного гуманитарного права», – Кембридж, 2003: [Электронный ресурс] / URL: http://www.sk-news.ru/mgp/doc/doc_07_05.doc
17. Commentary on the First Geneva Convention: Convention (I) for the Amelioration of the Condition of the Wounded and Sick in Armed Forces in the Field, 2nd ed., ICRC/ - Cambridge: Cambridge University Press, 2016, 1294 p.
18. "Confronting the dangers of terrorism constitutes a part of the international law dealing with armed conflicts of international character". The Public Committee against Torture in Israel v. The Government of Israel, 11 December 2005, Case HCJ 769/02, para 21: [Electronic resource] / URL: https://supreme.court.gov.il/sites/en/Pages/fullsearch.aspx.
19. Metz, S., Johnson, D.V. Asymmetry and U.S. Military Strategy: Definition, Background, and Strategic Concepts / Strategic Studies Institute Report, US Army War College, 2001. – 30 p.
20. Pfanner, T. Asymmetrical warfare from the perspective of humanitarian law and humanitarian action / Toni Pfanner // International Review of the Red Cross, 2005. № 857, pp. 95-125.

## ВООРУЖЕННЫЕ КОНФЛИКТЫ В МЕЖДУНАРОДНОМ ГУМАНИТАРНОМ ПРАВЕ

**Мамедов Насир Натиг оглы**

В данной статье рассматриваются виды вооруженных конфликтов в международном гуманитарном праве. Автор показывает, что, как правило, разделение вооруженных конфликтов на две группы (международные вооруженные конфликты; немеждународные вооруженные конфликты) в международном гуманитарном праве было больше связано с историческими и политическими факторами, чем с военными факторами. В статье обосновано, что точная классификация вооруженных конфликтов, раскрытие характера и отличительных особенностей каждого из видов вооруженных конфликтов имеют исключительное значение не только в доктринальном, но и в практическом аспекте. Автор также обращает внимание на трудности, возникающие во время вооруженных конфликтов немеждународного характера.

**Ключевые слова:** международное право, международное гуманитарное право, вооруженный конфликт, виды вооруженных конфликтов, международные вооруженные конфликты, немеждународные вооруженные конфликты, внутренние беспорядки, международный терроризм.

## ARMED CONFLICTS IN INTERNATIONAL HUMANITARIAN LAW

**Mammadov Nasir Natig oghlu**

This article examines the types of armed conflicts in international humanitarian law. The author shows that, as a rule, the division of armed conflicts into two groups (international armed conflicts; non-international armed conflicts) in international humanitarian law was more related to historical and political factors than military factors. In the article, it is justified that the accurate classification of armed conflicts and the revealing of the character and distinguishing aspects of each of the types of armed conflicts are of exceptional importance not only in the doctrinal but also in the practical aspect. The author also draws attention to the difficulties that arise during armed conflicts of a non-international nature.

**Key words:** international law, international humanitarian law, armed conflict, types of armed conflict, international armed conflicts, non-international armed conflicts, domestic unrest, international terrorism.

## ULUSLARARASI İNSANCI HUKUKTA SİLAHLI ÇATIŞMALAR

**Memmedov Nasır Natig oğlu**

Bu makale uluslararası insancıl hukukta silahlı çatışma türlerini incelemektedir. Yazar, uluslararası insancıl hukukta silahlı çatışmaların iki gruba ayrılmasının (uluslararası silahlı çatışmalar; uluslararası olmayan silahlı çatışmalar) kural olarak askeri faktörlerden ziyade tarihi ve siyasi faktörlerle ilgili olduğunu göstermektedir. Makalede, silahlı çatışmaların doğru bir şekilde sınıflandırılmasının ve her bir silahlı çatışma türünün karakterinin ve ayırt edici yönlerinin ortaya konulmasının, sadece doktrinsel değil, pratik açıdan da olağanüstü önem taşıdığı savunulmaktadır. Yazar ayrıca uluslararası nitelikte olmayan silahlı çatışmalar sırasında ortaya çıkan zorluklara da dikkat çekiyor.

**Anahtar kelimeler:** uluslararası hukuk, uluslararası insani hukuk, silahlı çatışma, silahlı çatışma türleri, uluslararası silahlı çatışmalar, uluslararası olmayan silahlı çatışmalar, iç karışıklıklar, uluslararası terörizm.

# AZƏRBAYCANDA "ELEKTRON DÖVLƏT" QURUCULUĞUNUN HÜQUQİ ƏSASLARI: informasiya cəmiyyətində insan hüquqlarının təminatı və bu sahədə beynəlxalq təcrübə

**Etibar Əli oğlu Əliyev,**
**Azərbaycan Hüquqşünasları Konfederasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru.**
e-mail: a-etibar@rambler.ru,
telefon:+99450 220 24 42;

**Mirzəyeva Leyla Eytibar qızı, Azərbaycan Respublikası Sumqayıt İnzibati Məhkəməsinin hakimi, hüquqşünas.**
e-mail: leylamirzayeva88@mail.ru,
telefon:+99455 310 55 85.

*Elmi tədqiqat işində müəlliflər tərəfindən Azərbaycan Respublikasında "elektron dövlət" quruculuğunun hüquqi əsasları kontestində qloballaşma dövründə informasiya cəmiyyətində insan hüquqlarının formalaşması və təminatı, eləcə də bu sahədə beynəlxalq təcrübənin konseptual aspektləri elmi cəhətdən araşdırılır. Belə bir doktrinal definisiya formulə olunur ki, informasiya cəmiyyətinin sistem şəklində komponentləri aşağıdakı elementlərdən ibarətdir: biliklərə pərəstiş, informasiya infrastrukturu, informasiya əmək bazarı, informasiya iqtisadiyyatı, dövlət idarəetmə və sosial sahələrin informasiyalaşdırılması, informasiya mədəniyyəti, informasiya cəmiyyətində insan hüquqları və informasiya qanunvericiliyi.*

*İnformasiya cəmiyyətinin formalaşması və sürətli inkişafı ictimai həyatın bütün sferalarını əhatə edir və bu sahədə yaranan ictimai münasibətlərin – informasiya münasibətlərinin hüquqi tənzimlənməsini şərtləndirir.*

*Azərbaycan Respublikasının milli hüquq sferasında informasiya hüququnun mövqeyi barədə qeyd edilir ki, informasiya hüququ müasir dövrdə dövlətdaxili hüquq sistemində müstəqil hüquq sahəsi kimi formalaşmış iqtisadi hüququn tərkibində yarımsahə statusuna malikdir.*

**Açar sözlər:** elektron dövlət quruculuğu, elektron hökumət, informasiya cəmiyyəti, informasiya hüququ, informasiya münasibətləri, informasiya infrastrukturu, informasiya iqtisadiyyatı, informasiya qanunvericiliyi, dövlət tənzimetməsi, hüquq subyektləri.

**Aktuallıq.** Müasir dövrdə bütün dünya dövlətləri insan hüquqları institutunu qəbul edir və öz milli dövlət siyasətində insan hüquq və azadlıqlarının təminatı məsələsinə prioritet əhəmiyyət verirlər. Belə ki, beynəlxalq hüququn ümumqəbuledilmiş əsas prinsiplərindən biri olan "əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi" prinsipi universal və regional səviyyələrdə beynəlxalq-hüquqi tənzimləmənin, eləcə də insan haqlarına dair milli qanunvericilik aktlarının təməlini təşkil edir. Dünyada baş verən qloballaşma prosesləri kontekstində informasiya cəmiyyətinin formalaşması insan hüquqlarına da öz təsirini göstərməkdədir. Hər kəs üçün açıq olan belə bir cəmiyyət insan hüquqları insitutunun müsbət isti-

qamətdə təkamülünə gətirib çıxarmışdır. Hazırda insanların həyat fəaliyyəti informasiya-kommunikasiya texnologiyaları vasitələri ilə bütövlükdə əhatə edilmişdir. Bunun da nəticəsində cəmiyyətdə insan hüquqları institutuna yanaşma tərzi dəyişmiş, habelə "elektron-vətəndaş", "ağıllı kamera","rəqəmsal iqtisadiyyat", "rəqəmsal hüquqlar", "elektron bulud" əsaslı texnologiyaların və sairə bu kimi elektron sistemlərin tətbiqi istiqamətində yeni meyillər formalaşmışdır. Göstərilən aspektlər sözügedən tədqiqat işinin aktuallığını şərtləndirir.

**Məqsəd.** Tədqiqat işi üzrə 2023-cü il üçün nəzərdə tutulmuş mərhələdə informasiya sahəsində insan haqlarının təminat mexanizmlərinin hərtərəfli təhlili məqsədilə aşağıdakı sualların cavablandırılması qarşıya məqsəd kimi qoyulmuşdur:

– informasiya sahəsində əsas insan hüquq və azadlıqlarının təminatı sahəsində beynəlxalq hüquqi müdafiə mexanizmlərinin tədqiqi;

– informasiya sahəsində əsas insan hüquq və azadlıqlarının milli (dövlətdaxili) səviyyədə təminat mexanizmlərinin elmi-praktik təhlili;

– sözügedən sahədə mövcud qanunvericiliyin beynəlxalq təcrübə nəzərə alınmaqla, beynəlxalq normalara uyğunluğunun araşdırılması.

**Elmi tədqiqat işinin məzmunu.** Müasir dövrdə dünya yeni texnologiyaların icad olunması hesabına sürətlə dəyişir, inteqrasiya prosesləri dərinləşir, qlobal informasiya texnologiyaları bazarında fəal canlanma müşahidə olunur və bütün bunlar yüksək texnologiyaların tətbiqi sayəsində baş verir. Ümummilli lider Heydər Əliyevin söylədiyi kimi,"Dünya inkişafının indiki mərhələsinin başlıca meyilləri mədəni inteqrasiya və qloballaşmadır" və "Texnika, elm, texnologiyalar böyük sürətlə inkişaf edir. Buna görə də, biz də Azərbaycanda bu inkişafda öz yerimizi tapmağa çalışmalı, onu sürətləndirməli və qabaqcıl ölkələrlə bir sırada olmalıyıq" [6;7;18.1]. Məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü məqsədyönlü və ardıcıl siyasət nəticəsində ölkədə informasiya-kommunikasiya sahəsində qlobal informasiya cəmiyyətinə inteqrasiya prosesləri uğurla aparılır, bu istiqamətdə insan hüquqlarının etibarlı təminatına daim xüsusi diqqət yetirilir.

Ölkədə vətəndaş cəmiyyətinin formalaşmasında informasiya atributu mühüm rol oynayır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasında (1995-ci il) məlumat azadlığı prinsipi (maddə 50) əsas insan hüquqlarından biri kimi təsbit olunmuşdur [1,s.14]. Həmin maddəyə görə, hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır; dövlət kütləvi informasiyanın azadlığına təminat verir.Hüquq ədəbiyyatı səhifələrində haqlı olaraq göstərilir ki, informasiya azadlığı dedikdə ictimai-siyasi hüquqlar sırasına daxil olan məlumat azadlığı başa düşülür və müstəqil Azərbaycanda məlumat azadlığı bu gün vətəndaşların əsas siyasi hüquqlarından birinə çevrilmişdir [11,s.45].

Müasir dövrdə dövlətin və cəmiyyətin qarşılıqlı formada əlaqələrinin nizamlanması meyili sosial həyatın mürəkkəbləşməsi, əhalinin dövlətə münasibətdə aktivliyinin artması, dövlət hakimiyyətinin qapalı sistemdən müxtəlif sosial institutların təsir edə biləcəyi açıq sistemə çevrilməsi,dövlət

və cəmiyyətin qarşılıqlı asılılığının artması və s. ilə bağlıdır [10, s.65-66]. Bu proseslərin harmonik şəkildə gerçəkləşməsində informasiya və real informasiya axtarışı prosedurları əhəmiyyətli rol oynayır.

Terminoloji lüğətlərə görə,”informasiya” (lat.informatio,ing.infotmation) anlayışının məna yükü şəxslər, predmetlər, faktlar, hadisələr və proseslər haqqında onların təqdimolunma formasından asılı olmayaraq, müvafiq məlumatları ehtiva edir [17,s.374]. İnformasiya axtarışı isə informasiya sorğusunun mövzusuna aid olan və ya zəruri faktları əks etdirən məlumatların axtarılması prosesidir [13,s.116].

Ölkəmizdə bu istiqamətdə həyata keçirilən islahatların yeni mərhələsi başlayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi,”ən müasir texnologiyalar Azərbaycanda bütün sahələrdə tətbiq edilməlidir” [8;18.6] : “ağıllı şəhər” (“smart-city”), ”ağıllı kənd” (“smart-village”), ”elektron bulud” əsaslı texnologiyaların və sairə elektron sistemlərin tətbiqi nəticəsində sosial-iqtisadi problemlərin həllinin asanlaşdırılmasına, dövlət idarəetmə orqanlarının fəaliyyətinin effektivliyinin yüksəlməsinə, turizm sektorunun sürətli inkişafına nail olunacaq, Azərbaycanın innovasiya-startap mərkəzinə çevrilməsinə və müasir informasiya cəmiyyətinin formalaşmasına münbit şərait yaranacaq [18.5;18.8]. İnformasiya cəmiyyətinin formalaşması və sürətli inkişafı ictimai həyatın bütün sferalarını əhatə edir və bu sahədə yaranan ictimai münasibətlərin – informasiya münasibətlərinin hüquqi tənzimlənməsini şərtləndirir.

İnformasiya anlayışının elmi dövriyyədə üç forması fərqləndirilir [9,s.51]: bioloji informasiya, maşın informasiyası və sosial informasiya. İnformasiya və cəmiyyətin qarşılıqlı təsiri bütün ictimai həyatın tənzimlənməsində əhəmiyyətli struktur cərəyanların baş verməsi ilə nəticələnir ki, informasiya cəmiyyəti belə dəyişikliklərin ən böyük və parlaq nümunəsidir.

İnformasiya cəmiyyətinin sistem şəklində komponentləri aşağıdakı elementlərdən ibarətdir: biliklərə pərəstiş, informasiya infrastrukturu, informasiya əmək bazarı, insan hüquqları, informasiya iqtisadiyyatı, dövlət idarəetmə və sosial sahələrin informasiyalaşdırılması, informasiya mədəniyyəti və informasiya qanunvericiliyi və s. İlk növbədə, qeyd etməliyik ki, informasiya cəmiyyətinin bərqərar olmasında, formalaşmasında və inkişafında yaranan genezis informasiya münasibətləri aparıcı rol oynayır. Bu növ ictimai münasibətlərin nizama salınması və tənzimlənməsi müvafiq hüquq normaları vasitəsilə həyata keçirilir ki, həmin hüquq normaları informasiya qanunvericilik aktlarında təsbit olunmuşdur və onların məcmusu informasiya hüququnu formalaşdırır [9,s.15].

Bu kontekstdə Azərbaycanda informasiya qanunvericiliyinin təşəkkül tapması istiqamətində “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə 2003–2012-ci illər üçün Milli Strategiya” Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmişdir. Milli Strategiyanın icrası ilə əlaqədar “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005 – 2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)” və “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının

inkişafı üzrə 2010–2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" adlı sənədlər informasiya-kommunikasiya texnologiyalarının (İKT) ictimai həyatın bütün sferalarında (elm və təhsil müəssisələri, seçkilərdə səsvermə zamanı, tibbi xidmət və digər idarəetmə və sosial təminat sahələrində) tətbiqini və informasiya cəmiyyəti quruculuğunu əsas məqsəd kimi müəyyənləşdirirdi. Azərbaycan Respublikası Prezidentinin 02.04.2014-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014–2020-ci illər üçün Milli Strategiya" təsdiq olunmuşdur. Sözügedən sənəd ölkədə artıq formalaşmış informasiya cəmiyyətinin inkişaf etdirilməsini və müasir dövrdə vətəndaşların ictimai həyatın aktiv üzvünə çevrilməsini əsas hədəf kimi ehtiva edir. Həmçinin Dövlət Başçısı tərəfindən "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" (2006-cı il), "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" (2011-cı il), "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" (2007-ci il), "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanin həyata keçirilməsi üzrə 2016–2020-ci illər üçün Dövlət Proqramı", "Açıq Hökumətin təşviqinə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyət Planı" və s. bu kimi vacib aktların qəbul olunmasını xüsusilə qeyd edirik [4,s.7;9,s.7;18.2;18.4]. Adıçəkilən sənədlər "elektron hökumət", "elektron cəmiyyət", "elektron vətəndaş", "elektron təhsil", "elektron tibb", "elektron ticarət", "elektron sığorta" və s. prioritet sahələrin formalaşmasına, bütövlükdə isə ölkədə vətəndaş hüquq və azadlıqlarının, habelə vətəndaşların layiqli həyat səviyyəsinin təmin olunmasına xidmət edir. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının müasir çağırışları və əsas prioritetləri də deyilənləri təsdiq edir [9,s.7].

Diqqətəlayiq hal kimi qeyd edirik ki, İKT-nin inkişaf etdirilməsi baxımından, Azərbaycan Respublikası Prezidentinin 16.01.2013-cü il tarixli 2664 nömrəli Sərəncamı ilə 2013-cü il Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmiş və bu istiqamətdə dövlət tərəfindən məqsədyönlü, kompleks və davamlı fəaliyyət həyata keçirilmişdir [18.3].

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 13.07.2012-ci il tarixli 685 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" stasionar və səyyar mərkəzlərinin yaradılması təqdirəlayiqdir [18.2;18.8]. Azərbaycan brendı kimi vətəndaşlara göstərilən bu xidmət növü operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət, rahatlıq və müasir innovasiya vasitələrinin tətbiq edilməsi meyarları əsasında həyata keçirilir. Prezident İlham Əliyevin müəllifi olduğu bu yeni xidmət modeli qısa müddətdə ölkədə ictimai xidmət sahəsində dönüş yaradaraq əhali arasında o qədər populyarlaşdı ki, bunun davamı olaraq belə xidmət mərkəzlərinin regionlarımızda da yaradılmasına başlanıldı, həmçinin göstərilən xidmətlərin sayı və növü çoxaldı. Hazırda respublikamızda fəaliyyət göstərən 20-dən çox "ASAN xidmət" mərkəzində

vətəndaşlara müxtəlif dövlət orqanları, eləcə də özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 300-dən çox xidmətin həyata keçirilməsi cəmiyyətdə "vətəndaş-məmur" məmnunluğunu təsdiqləyən reallıqdır.

Qeyd etməliyik ki, ölkədə rəqabətədavamlı və yüksək ixrac potensiallı, innovativ İKT sənayesinin inkişaf etdirilməsi və bu istiqamətdə əməkdaşlığın dərinləşdirilməsi məqsədilə, Dövlət Başçısının təşəbbüsü ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində "İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu" və "Yüksək Texnologiyalar Parkı" yaradılmışdır. Təsis olunan bu qurumlar iqtisadiyyatın güclənməsinə, xarici investisiyaların cəlb edilməsinə və ölkədə İKT məhsullarının istehsalının genişlənməsinə, yeni yaranan şirkətlərin fəaliyyətinin təşkilinə və innovativ təşəbbüslərə ("start-up") maliyyə və təşkilati dəstəyi təmin edir [9,s.66].

Həmçinin rabitə və yüksək texnologiyalar sektoru ilə bağlı Azərbaycan Hökumətinin təşəbbüsü kimi BMT tərəfindən dəstəklənən ölkəni tranzit-informasiya məkanına çevirəcək TASİM (Trans Avrasiya Super İnformasiya Magistralı) layihəsinin icrası həyata keçirilir. Frankfurtdan Honkonqa istiqamətlənən əsas tranzit xəttinin yaradılmasını nəzərdə tutan bu layihə Avropa və Asiyada ən böyük informasiya mübadiləsi mərkəzlərini birləşdirəcək Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək Almaniyaya qədər uzanacaq, eləcə də ehtiyat Şimal tranzit xətti Rusiya, Ukrayna və Polşadan keçəcəkdir [18.2; 9, s.66].

Sözügedən sektorda beynəlxalq təcrübənin formalaşması kontekstində qeyd edə bilərik ki, 2023-cü ilin may ayında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi formatında üzv-dövlətlərin informasiya və kommunikasiya sahəsinə məsul şəxslərinin "Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsi çərçivəsində İKT infrastrukturunun inkişafı" mövzusunda virtual görüş keçirilmişdir. Keçirilən görüş üzv-dövlətlər arasında əməkdaşlığı gücləndirmək və İKT infrastrukturunun inkişafında beynəlxalq təcrübə mübadiləsinə nail olmaq məqsədi daşıyıb, ən son yeniliklər paylaşılıb və səmərəli təcrübələr müzakirə edilib [18.6].

Qloballaşma dövründə informasiya cəmiyyətinin formalaşması və informasiya qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən aşağıda göstərilən normativ hüquqi aktın adını xüsusilə çəkməliyik. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 12.09.2018-ci il tarixli 263 nömrəli Fərmanı ilə "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" (bundan sonra – Qaydalar) təsdiq edilmişdir [18.2;18.3]. Adıçəkilən aktda informasiya cəmiyyəti kontekstində işlədilən terminlərə normativ anlayış verilir, onların məna yükü açıqlanır, informasiya sisteminin formalaşdırılmasının ümumi prinsip və tələbləri müəyyənləşdirilir. Sözügedən Fərmana uyğun olaraq, dövlət informasiya ehtiyatları və sistemlərində müvafiq sahə üzrə toplanan məlumatların sistemliyini təmin etmək, dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsinin səmərəliliyini artırmaq və əhaliyə elektron xidmətlərin göstərilməsində idarəetməni optimallaşdırmaq məqsədi ilə Elektron Hökumət İnformasiya Sisteminin ilkin olaraq aşağıdakı

altsistemləri yaradılmışdır: Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi, Sosial Xidmətlər Vahid İnformasiya Sistemi; Aqrar Xidmətlər Vahid İnformasiya Sistemi.

Deməli, qeyd etməliyik ki, Azərbaycanda informasiya cəmiyyətinin formalaşması ictimai həyatın və dövlət idarəetmə sisteminin bütün sferalarını əhatə edir: sosial-idtisadi, inzibati, hərbi, elmi-texniki, mədəni, nəqliyyat, təhsil, səhiyyə, kənd təsərrüfatı, aqrar sektor və s.

Ən parlaq nümunə kimi göstərə bilərik ki, Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən Müharibəsinə başladı. Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında "Dəmir yumruq" kimi birləşərək düşmənə qarşı sarsıdıcı zərbələr endirildi və torpaqlarımız işğaldan azad olundu [18.6]. 44 günlük Vətən Müharibəsinin zəfərlə başa çatmasında ən müasir innovativ texnologiyalardan çevik və səmərəli istifadə edilməsi bu qələbəyə nail olunmasında öz töhfəsini verdi.

Cəmiyyətdə ictimai asayişin qorunması və cinayətkarlığa qarşı aparılan mübarizə tədbirlərində ən yeni innovasiya vasitələrindən səmərəli şəkildə istifadə edilir. Məsələn, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 29.04.2010-cu il tarixli 253 nömrəli əmri ilə "DİN-in Vahid Məlumat-Axtarış Sisteminin yaradılması ilə əlaqədar təşkilati tədbirlərə dair" müvafiq təlimatlar təsdiq edilmişdir və onlar polis orqanlarında Vahid Məlumat-Axtarış Sistemindən istifadə qaydalarını müəyyənləşdirir. Sözügedən sistem özündə cinayətkarlıqla mübarizə, asayişin mühafizəsi, yol hərəkəti təhlükəsizliyi sahəsində zəruri məlumatları cəmləşdirir; bu Sistemə həm də şəxsiyyəti təsdiq edən sənədlər, axtarışda olan şəxslər, avtonəqliyyat vasitələri, sürücülük vəsiqələri, odlu silahlar və s. haqqında informasiyalar daxildir; o, həm də Məlumat Portalı adlanır. Bundan başqa, aşağıdakı aktlar da polis-informasiya hüququ üçün əhəmiyyətlidir: "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il), "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il), "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1998 -ci il), Azərbaycan Respublikası Prezidentinin 22.04.2008-ci il tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edimiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə", "Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkili və aparılması qaydaları barədə" Təlimat (2012-ci il), "Cinayət və hadisələr barədə əməliyyat məlumatlarının hazırlanması və təsdiq edilməsi qaydalarına dair" Təlimat (2015-ci il), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında veb saytların işinin təşkili qaydalarına dair" Təlimat (2008-ci il), "DİN-in Təhlükəsiz Şəhər və "102" xidmətlərinin əsasnamələri" (2009-cu il) və s. [14,s.512-517].

Ölkədə gömrük işi sahəsində informasiya sistemlərinin və informasiya texnologiyalarının tətbiq olunması, eləcə də gömrük orqanlarının fəaliyyətində elektron məlumat sistemlərindən effektiv istifadə edilməsi xüsusilə qeyd edilməlidir. Belə ki, Azərbaycan Respublikasında malların gömrük sərhə-

dindən keçirilməsi barədə məlumatların toplanması, təhlili, elektron üsullarla işlənməsi yolu ilə xarici ticarətin gömrük statistikası aparılır. Göstərilən sahədə gömrük-informasiya münasibətlərinin nizama salınmasında aşağıdakı aktlar mühüm rol oynayır:

– "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi" (2011-ci il);

– "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu (2004-cü il);

– "Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə qəbul edilmişdir, 2012-ci il);

– "Gömrük işində informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən istifadə Qaydaları" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə qəbul edilmişdir, 2012-ci il);

– "Azərbaycan Respublikası – Rusiya Federasiyası arasında keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkilinə dair" Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında Protokol (Bakı, 2017-ci il - Azərbaycan Respublikası Prezidentinin 06.09.2017-ci il tarixli 1595 nömrəli Fərmanı ilə təsdiq edilmişdir);

– "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə" Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikasının Maliyyə Nazirliyi arasında Saziş (Bakı, 2017-ci il – Azərbaycan Respublikası Prezidentinin 23.02.2017-ci il tarixli 1266 nömrəli Fərmanı ilə təsdiq edilmişdir) və s. [12,s.394-427].

Vətəndaşların müraciət etmək hüquqlarının həyata keçirilməsi ilə bağlı münasibətlərin tənzimlənməsində də elektron informasiya sistemlərindən səmərəli istifadə olunur. Bu sırada aşağıdakı normativ hüquqi sənədlərin adlarını çəkə bilərik:

– "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu (2015-ci il);

– "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası" (Azərbaycan Respublikası Prezidentinin 23.06.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir);

– "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə Qaydaları" (Azərbaycan Respublikası Prezidentinin 29.04.2015-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir);

– "Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması Qaydası" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01.09.2016-cı il tarixli Qərarı ilə təsdiq edilmişdir);

– "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.02.2015-ci il tarixli Qərarı ilə qəbul edilmişdir) və s. [16,136 s.].

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 21.08.2020-ci il tarixli Sə-

rəncamı ilə ictimai xarakter daşıyan kommunal, yol və nəqliyyat problemləri, infrastrukturun cari təmiri, abadlaşdırılması və təmizliyi ilə bağlı şikayətlərin elektron xəritə üzərində qeyd edilməklə operativ surətdə aidiyyəti dövlət qurumlarına göndərilməsini və həmin şikayətlərə baxılmasının nəticələrinin izlənilməsini təmin edən “ASAN müraciət” informasiya sistemi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sözügedən informasiya sisteminin operatoru müəyyən edilmiş və onun mobil tətbiqi formalaşdırılmışdır. “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 12.09.2018-ci il tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, “ASAN müraciət” informasiya sisteminin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əlaqələndirilməsi, habelə yerli icra hakimiyyəti orqanlarının “ASAN müraciət” informasiya sisteminə çıxışı təmin olunmuşdur [18.3;18.5].

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 01.06.2020-ci il tarixli Fərmanı ilə “Elektron məhkəmə” informasiya sistemi haqqında Əsasnamə təsdiq edilmişdir. Bu Əsasnamə “Elektron məhkəmə” informasiya sisteminin formalaşdırılmasının, aparılmasının, digər qurumların informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasının, habelə İnformasiya sistemi ilə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir. İnformasiya sisteminin tətbiqi insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinə, məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəliliyinin və şəffaflığının artırılmasina, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlığın və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir. Təqdirəlayiq haldır ki, hazırda məhkəmə və proses iştirakçıları tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 10-1.2-ci maddəsində nəzərdə tutulan “Elektron məhkəmə” informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir [18.2].

Bununla yanaşı, qeyd etməliyik ki, Azərbaycan Respublikası Prezidentinin 04.06.2010-cu il tarixli Fərmanı ilə “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə” qəbul olunmuş, həmçinin Azərbaycan Respublikası Prezidentinin 13.02.2021-ci il tarixli Fərmanı ilə “Elektron su təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə” təsdiq edilmişdir [18.7].

Müasir dövrdə “Sosial aktivlik” milli layihəsi çərçivəsində aparılan işlər nəticəsində ölkə əhalisinin müəyyən hissəsi - insanlar könüllülük fəaliyyətinə cəlb olunmuşdur [18.5]. Bu məqsədlə təhsil, səhiyyə, gənclər, ekologiya, mədəni irsin qorunması, sosial xidmət, yoxsulluğun azaldılması və

s. sahələrdə müvafiq layihələr həyata keçirilir. Hazırda ölkəmizdə dövlətin ciddi dəstəyi və cəmiyyətin sosial sifarişi nəticəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN xidmət), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST), Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) "KOB Dostu" şəbəkəsi yaradılmışdır. Sözügedən sosial xidmət müəssisələri çərçivəsində "ASAN xidmət" mərkəzləri (stasionar və səyyar), "myGov", "ASAN viza","ASAN imza", "ASAN könüllüləri", "Könüllü DOST", "Gənc DOST", "Gümüşü DOST", "Virtual DOST", "Məzun evi" və s. layihələr fəaliyyət göstərir və bu hərəkatlar müasir gəncliyin avanqardına çevrilmişdir. Təqdirəlayiq haldır ki, əhaliyə xidmət, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində əksər xidmətlər artıq tam elektronlaşdırılmışdır. Belə ki, hazırda "e-xidmətlər", "e-satınalma", "e-aqro", "e-sosial", "İNNOLAND", "Əmək müqaviləsi bildirişi", "Ünvanlı yardım" (VEMTAS), "Əlillik" (TSERAS), "Sığorta", "Pensiya", "Məşğulluq", "e-arayış" və s. sistem/altsistemlər vasitəsilə qeyd olunan istiqamətlərdə xidmətlər elektron şəkildə formalaşdırılaraq, fiziki və hüquqi şəxslərin istifadəsinə verilmişdir. Eləcə də vətəndaşların müraciətləri və onların məlumatlandırılması məqsədilə 101, 102, 103, 112, 142, 161, 195, 902, 961 və s. çağrı mərkəzləri və qaynar xətlər fəaliyyət göstərir.

Qloballaşma dövründə informasiya cəmiyyətinin formalaşdırılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsini təmin edən "Dövlət Nəzarəti İnformasiya Sistemi" yaradılmışdır. "Dövlət Nəzarəti İnformasiya Sisteminin iş Qaydası" Azərbaycan Respublikası Prezidentinin 30.01.2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir [18.3;18.6]. Bu Qayda İnformasiya sisteminin formalaşdırılmasının, aparılmasının və ondan istifadə edilməsinin, habelə İnformasiya sistemi ilə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

Sözügedən İnformasiya sisteminin tətbiqi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında dövlət nəzarətinin təşkili və icra intizamının təmin edilməsi istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasına, o cümlədən Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin və Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsinə xidmət edir.

Beləliklə, qloballaşma dövründə Azərbaycanda təhlükəsiz, səmərəli və effektli fəaliyyət göstərən və ictimai həyatın, eləcə də dövlət idarəetmə orqanlarının bütün sferalarını əhatə edən informasiya cəmiyyətinin formalaşması prosesi uğurla davam edir [15]. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları artıq hamı üçün o qədər əlçatandır ki, istənilən ictimai proseslə bir andaca tanış olmaq və xidmətdən yararlanmaq mümkündür. Bəzi müəlliflər tərə-

findən informasiya cəmiyyəti quruculuğu kontekstində müvafiq "İnformasiya Məcəlləsi"nin yaradılması problemi də nəzərdən keçirilir [9,s.13]. Bu istiqamətdə informasiya-hüquq pozuntularının aktual problemləri, insan hüquqlarının təminatı və s. məsələlər də elmi kontekstdə tədqiq edilir [5, 32 s.].

**Alınmış nəticələr:** Azərbaycan Respublikasının insan hüquqları sahəsində mövcud qanunvericiliyi məlumat azadlığını (konstitusion qaydada) və informasiya əldə etmək azadlığını ("İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunu) prinsiplərini müəyyənləşdirir. Belə ki, məlumat azadlığı anlayışı daha geniş məzmuna malik olub, məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığını ehtiva edir. İnformasiya əldə etmək azadlığı isə sırf informasiyanın əldə edilməsi ilə bağlı olan məsələdir. Deməli, sözügedən ikinci anlayış məhdud məna xarakterinə malik olmaqla, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş məlumat azadlığının, mahiyyət etibarilə, tərkib elementini təşkil edir. Eyni zamanda, belə bir məqamı da qeyd edə bilərik ki, məlumatın əldə olunması yalnız informasiya sorğusu verməklə deyil, başqa üsul və yollarla da həyata keçirilir. Həmçinin məlumat azadlığını nəzərdə tutan beynəlxalq normalar da bu azadlığı ayrıca bir maddədə deyil, informasiya ilə bağlı olan digər hüquqlarla birlikdə nəzərdə tutur. Şərh olunanlar belə bir yekun nəticəyə gəlməyə əsas verir ki, konstitusion qaydada bəyan edilmiş məlumat azadlığı anlayışı çoxaspektli olub, özündə obyektini informasiya təşkil edən bir sıra hüquq və azadlıqları məntiqi kontekstdə birləşdirir.

**İstifadə edilmiş mənbələr**

**a) azərbaycan dilində**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "N" nəşriyyatı, 2015, 52 s.
2. Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı,"Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, ümumi hissə, 752 s.; II cild, xüsusi hissə, 704 s.
3. Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı, "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 624 s.
4. Əliyev Ə. İ. İnsan hüquqları. Dərslik.Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı, "Nurlar" nəşriyyatı, 2019, 352 s.
5. Əlizadə H.O. İnformasiya hüquq pozuntuları və informasiya-hüquqi məsuliyyət: nəzəri və təcrübi aspektlər // Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ...dissertasiyanın avtoreferatı. Bakı, "Adiloğlu" MMC, 2023, 32 s.
6. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında.Bakı, XXI əsr – yeni nəşrlər evi, 2001,55 s.
7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1-46 kitab / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı, Azərnəşr, 1997-2013.
8. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1-126 kitab / Bakı, Azərnəşr, 2003-2023.
9. İnformasiya hüququ. Dərslik / Kollektiv müəlliflər: Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. Bakı, "Nurlar" nəşriyyatı, 2019, 448 s.
10. Konstitusiya hüququ. Dərs vəsaiti / Əsgərov Z.A. Bakı, Bakı Universiteti nəşriyyatı, 2002,632s.
11. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr / Allahverdiyev S.S. Bakı, "Hüquq Yayın Evi", 2018, 452 s.
12. Qulu Novruzov, Heydər Qəmbərov, Fatimə Hüseynova. Gömrük hüququ. Dərslik / Məsul redaktor - Etibar Əliyev. Bakı, "Zərdabi Nəşr" MMC nəşriyyat-poliqrafiya müəssisəsi, 2021, 592s.
13. Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən terminlər. Xarici iqtisadi biliklərə dair azərbaycanca-rusca-ingiliscə

lüğət-məlumat kitabı / Müəllif-tərtibçilər: Əfəndiyev O.F., Əliyev E.Ə. Bakı, Hüquq ədəbiyyatı, 2005, 676 s.
14. Polis hüququ. Dərslik.Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşr / Əliyev E.Ə. Bakı, "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 552 s.
15. Rəşad Əzizov. Elektron hüququn əsasları. elaw/az. Bakı, "Ziya" nəşriyyatı, 2009, 148 s.
16. Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu. Normativ hüquqi aktlar toplusu / Buraxılışa məsul: Kərimli B.C.Bakı,"Hüquq Yayın Evi", 2017, 136 s. b) rus dilində
17. Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.: Юринформцентр, 2005, 972 с.

**c) informasiya resursları**

18. Elektron informasiya resursları (URL – Uniform Resourse Locator):
18.1.www.aliyev.by.ru
18.2.www.e-qanun.az;
18.3.www.president.az;
18.4.www.kabmin.gov.az;
18.5.www.sosial.az;
18.6.www.azerbaijan-news.az;
18.7.www.respublika-news.az;
18.8.www.xalqqazeti.com.

# ПРАВОВЫЕ ОСНОВЫ СОЗДАНИЯ «ЭЛЕКТРОННОГО ГОСУДАРСТВА» В АЗЕРБАЙДЖАНЕ: обеспечение прав человека в информационном обществе и международный опыт в этой сфере

**Этибар Али оглы Алиев,**
**член Конфедерации юристов Азербайджана, профессор кафедры ЮНЕСКО «Права человека и информационное право» Юридического факультета Бакинского государственного университета, доктор юридических наук.**
электронная почта: a-etibar@rambler.ru,
телефон: +99450 220 24 42;

**Лейла Эйтибар кызы Мирзаева,**
**судья Сумгайытского административного суда, юрист-правовед.**
**электронная почта:**
leylamirzayeva88@mail.ru

В статье авторы с научного точки зрения исследуют концептуальные аспекты формирования информационного общества в условиях глобализации в контексте правовых основ «электронного правительства» в Азербайджанской Республике. Сформулировано такое доктринальное определение, что системные компоненты информационного общества состоят из следующих элементов: поклонение знанию, информационная инфраструктура, информационный рынок труда, информационная экономика, информатизация государственного управления и социальной сферы, информационная культура и информационное законодательство. Становление и быстрое развитие информационного общества охватывает все сферы общественной жизни и определяет правовое регулирование общественных отношений - информационных отношений.

Что касается положения информационного права в сфере национального права Азербайджанской Республики, то отмечается, что в современную эпоху информационное право имеет статус подотраслья в структуре экономического права, сформировавшегося как самостоятельная отрасль права в отечественной правовой системе.

**Ключевые слова:** учреждение электронного государства, электронное правительство, информационное общество, информационное право, информационные отношения, информационная инфраструктура, информационная экономика, информационное законодательство, государственное регулирование, юридические лица.

## LEGAL BASIS OF THE ESTABLISHMENT OF "ELECTRONIC STATE" IN AZERBAIJAN: ensuring human rights in the information society and international experience in this field

**Etibar Ali oglu Aliyev,**
**Member of the Azerbaijan Lawyers Confederation, Professor of the UNESCO Chair "Human Rights and Information Law", Faculty of Law, Baku State University, Doctor of Law.**
mail: a-etibar@rambler.ru,
phone: +99450 220 24 42;

**Leyla Eytibar gizi Mirzayeva,**
**judge of Sumgayit Administrative Court, jurist-lawyer.**
e-mail: leylamirzayeva88@mail.ru

The authors scientifically examines the conceptual aspects of the formation of the information society in the era of globalization in the context of the legal basis of "e-government" in the Republic of Azerbaijan. Such a doctrinal definition is formulated that the system components of the information society consist of the following elements: worship of knowledge, information infrastructure, information labor market, information economy, informatization of public administration and social spheres, information culture and information legislation. The formation and rapid development of the information society covers all spheres of public life and determines the legal regulation of public relations - information relations. The formation and rapid development of the information society covers all spheres of public life and determines the legal regulation of public relations - information relations.

Regarding the position of information law in the sphere of national law of the Republic of Azerbaijan, it is noted that information law has a semi-field status in the structure of economic law formed as an independent branch of law in the domestic legal system in modern age.

**Key words:** e-government building, e-government, information society, information law, information relations, information infrastructure, information economy, information legislation, state regulation, legal entities.

## AZERBAYCAN'DA "ELEKTRONİK DEVLET"İN KURULUŞUNUN YASAL TEMELLERİ: Bilgi toplumunda insan haklarının sağlanması ve bu alanda uluslararası deneyim

**Etibar Ali oqlu Aliyev,**
**Azerbaycan Avukatlar Konfederasyonu Üyesi, UNESCO "İnsan Hakları ve Bilgi Hukuku" Kürsüsü Profesörü, Hukuk Fakültesi, Bakü Devlet Üniversitesi, Hukuk Doktoru.**
e-posta: a-etibar@rambler.ru,
telefon: +99450 220 24 42;

**Leyla Eytibar kızı Mirzayeva,**
**Sumgayıt İdare Mahkemesi hakimi, avukat.**
e-posta: leylamirzayeva88@mail.ru

Makalede yazarlar, Azerbaycan Cumhuriyetinde "e-devlet" in yasal dayanağı bağlamında küreselleşme bağlamında bilgi toplumunun oluşumunun kavramsal yönlerini bilimsel olarak incelemektedirlər. Böyle bir doktrinsel tanım, bilgi toplumunun sistem bileşenlerinin şu unsurlardan oluştuğu formüle edilmiştir: bilgiye tapınma, bilgi altyapısı, bilgi işgücü piyasası, bilgi ekonomisi, kamu yönetimi ve sosyal alanların bilgilendirilmesi, bilgi kültürü ve bilgi mevzuatı. Bilgi toplumunun oluşumu ve hızlı gelişimi, kamusal yaşamın tüm alanlarını kapsar ve halkla ilişkiler - bilgi ilişkilerinin yasal düzenlemesini belirler.

Azerbaycan Cumhuriyeti milli hukuku alanında bilişim hukukunun konumuna gelince, modern çağda iç hukuk sisteminde bilgi hukukunun bağımsız bir hukuk dalı olarak oluşturulan ekonomik hukuk yapısında bilgi hukukunun yarı alan statüsüne sahip olduğu belirtilmektedir.

**Anahtar Kelimeler:** e-devlet kurumu, e-devlet, bilgi toplumu, bilgi hukuku, bilgi ilişkileri, bilgi altyapısı, bilgi ekonomisi, bilgi mevzuatı, devlet düzenlemesi, tüzel kişilikler.

# KREDİT MÜNASİBƏTLƏRİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİNDƏ KREDİT ƏQDLƏRİNİN VƏ KREDİT ƏMƏLİYYATLARININ XÜSUSİYYƏTLƏRİ

**İsmayılova Vəfa Natiq qızı,**
**Bakı Dövlət Unversiteti, Hüquq fakültəsi, Mülki hüquq kafedrasının doktorantı.**
e-mail: mahabbat_d.h.t@mail.ru

*Kredit öhdəliklərinin yerinə yetirilməsi kredit təşkilatı tərəfindən kredit vəsaitinin köçürülməsi, borcalan tərəfindən kredit vəsaitinin qəbulu, müqavilə ilə müəyyən edilmiş kreditin geri qaytarılması müddətinin başlaması, pul vəsaitlərinin qaytarılması, faizlərin ödənilməsi və s. kimi komponentləri özündə birləşdirən mürəkkəb hüquqi tərkib təşkil edir. Kredit fəaliyyətiilə əlaqədar əqdlər və əməliyyatlar anlayışlarından istifadə olunur. Hər iki termin istər hüquq ədəbiyyatında, istərsə də qanunvericilikdə istifadə olunur. Müəllif kredit fəaliyyətinin həyata keçirilməsinə yönəlmiş hər iki anlayışın məzmunun təhlil edir və onlar arasında fərqi müəyyən edir. Bu isə, kredit təşkilatlarının və ilk növbədə, bank qurumları tərəfindən həyata keçirilən fəaliyyət sferasını daha dəqiq müəyyən edilməsinə imkan verir.*

**Açar sözlər:** kredit,əqd, əməliyyat, müqavilə, anlayış, hüquq, tənzimləmə.

Kredit təşkilatlarının kredit fəaliyyətinin həyata keçirilməsinin hüquqi formasının müəyyən edilməsi həm nəzəri cəhətdən həm də praktiki aspektdən vacib əhəmiyyət kəsb edir.Hər hansı bir sahibkarlıq fəaliyyəti kimi, kredit təşkilatlarının kredit fəaliyyəti də kredit təşkilatları tərəfindən bağlanan mülki-hüquqi müqavilələr formasında həyata keçirilir. Hüquq ədəbiyyatında və qanunvericilikdə həm "əməliyyat", həm də "əqd" terminlərindən istifadə olunur. Bununla belə, kredit əqdləri və kredit əməliyyatları heç də eyni terminlər deyil. Belə ki, Azərbaycan Respublikasının "Banklar haqqında" qanununun 48.1.3 maddəsi bu terminləri fərqləndirir. [1] Həm "əqd" termini, həm də "əməliyyat" termini kredit fəaliyyətinin həyata keçirilməsinin müxtəlif formalarına aiddir. Eyni zamanda, bu terminlərdən həm qanunvericilikdə, həm də hüquq ədəbiyyatında istifadə olunur. [5, s. 16, 51] Belə ki, "Mərkəzi Bank haqqında" qanunun 16.3 mad. qeyd olunur ki, MB tərəfindən Azərbaycan dövlətinin buraxdığı borc qiymətli kağızların alınması əqdlər kimi dəyərləndirilir. Bu qanunun X fəsli isə "Əqdlər və əməliyyatlar" adlanır. Bu anlayışlar arasında fərq də mövcüddur.

Kredit təşkilatların həyata keçirdiyi əməliyyatda kredit təşkilatı ilə onun müştərisi arasında mülki hüquq münasibətləri yaranır. Belə növ əqdlər mülki hüququn predmetini təşkil edir. "Bank əməliyyatı"

anlayışı daha genişdir.Hüquq ədəbiyyatda belə bir fikir irəli sürülmüşdür ki, kredit əməliyyatlarının bir növü olan bank əməliyyatları kredit təşkilatı ilə bank nəzarəti orqanı arasında şaquli hüquqi münasibətlərdir. Başqa sözlə, bank əməliyyatı sırf bank hüququnun bir kateqoriyasıdır. [5, s.16] Lakin bu fikirlə razılaşmaq çox çətindir. Məsələn, "Banklar haqqında" qanunun 3.2-ci mad. müəyyən edilmişdir ki, depozit əməliyyatları yalnız banklar və milli poçt operatoru tərəfindən həyata keçirilə bilər. [1] Depozit əməliyyatları kredit təşkilatlarının, o cümlədən bankların əmanət formasında vəsait cəlb etmək və bu əmanətləri yerləşdirmək üzrə əməliyyatlarıdır. Mahiyyətcə, belə əməliyyatlar əmanətlərin (depozitlərin) alınması hesabına nağd kreditləşmə üzrə həyata keçirilən əməliyyatlardır. Depozit saxlanmaq üçün banka verilən və müddəti və müəyyən şərtlərlə qaytarılmalı olan pul və ya qiymətli kağızlardır. Bank əmanəti müqaviləsinin hansı müddətə bağlanmasından asılı olaraq (belə müqavilə öz hüquqi mahiyyətinə görə mülki-hüquqi müqaviləsidir, əqdidir) onlar tələb olunan depozitlər, müddətli depozitlər və əmanət depozitlərikimi fərqləndirilir.[9, s. 63] Beləliklə, aydındır ki, kredit əməliyyatları mülki-hüquq əqdləri formasında ola bilər. Eyni nəticəni "Mərkəzi Bank haqqında" qanunun 54-cü mad. təhlilindən əldə etmək olar. Belə ki, bu maddə MB tərəfindən çeklərin, veksellərin, qiymətli metalların və daşların, habelə onlardan hazırlanmış məmulatların alqı-satqısı və saxlanması üzrə əməliyyatları həyata keçirə biləcəyini nəzərdə tutur (mad. 54.1.3). Bundan əlavə, MB xarici valyutanı, habelə xarici valyutada təqdim edilən ödəniş sənədlərini və öhdəliklərini almaq və satmaq hüququna malikdir (mad. 54.1.2) və s. Bütün belə əməliyyatlar mülki-hüquqi əqdlərin bağlanması yolu ilə həyata keçirilir. Beləliklə, bu halda qanun belə əməliyyatların həyata keçirilməsinin ifadə forması mülki-hüquq əqdi olan müəyyən kredit fəaliyyəti kimi müəyyən edir.Bu halda "əməliyyat" və "əqd" anlayışları identikdir.

Lakin mülki hüquq münasibətlərini xarakterizə edən digər əlamətlər də mülki hüquq əqdinə aid edilir.Bu, müqavilə tərəflərinin muxtariyyəti, müqavilə tərəflərinin müstəqilliyi, müqavilə tərəflərinin bərabərliyi, müqavilənin azadlığı [3, s. 14-45], müqavilənin bağlanmasına tərəflərin qarşılıqlı razılığı, öhdəlikdə zəif tərəfin müdafiəsi və s. kimi mülki hüquq prinsipləridir. [2, s. 16-20;4, s. 21;8, s. 90-91; 10, s. 7-8] Belə mülki-hüquq prinsiplər öz hüquqi təbiətinə görə mütləq xarakter daşıyır və buna görə də mülki hüququn bütün subyektləri üçün məcburi olmaqla, tərəflərin istəyi ilə dəyişdirilə bilməz. [6, s. 87] Bundan əlavə, mülki hüquq münasibətləri, öz mahiyyətinə görə üfüqi hüquq münasibətləridir. Kredit təşkilatları ilə onların kontragentləri arasında münasibətləri tənzimləyən mülki hüquq normaları əsasən dispozitiv xarakter daşıyır. Lakin əqd və əməliyyat kimi anlayışları öz hüquqi məzmununa görə fərqləndirən digər hallar da mümkündür.

Kredit əməliyyatı kredit təşkilatı ilə bu fəaliyyətə nəzarəti həyata keçirən orqan arasında yaranan şaquli hüquqi münasibətlər adlanan xarakterə də malik ola bilər. Belə hüquq münasibətləri maliyyə hüququ normaları ilə tənzimlənir. Bir sıra hallarda banklara münasibətdə "bank hüququ" termini də işlədilir. Hüquq ədəbiyyatında bank hüququna həm mülki hüquq normalarını (məsələn, kredit təşkilatlarının kommersiya təşkilatı kimi yaradılmasını və fəaliyyət göstərməsinə dair münasibətləri tənzimləyən, kredit təşkilatları ilə onların müştəriləri arasında münasibətləri tənzimləyən), həm də maliyyə hüquq normalarını (məsələn, kredit sisteminin əsas prinsiplərinin müəyyən edilməsini, MB-ın statusunun müəyyən edilməsini, sonuncu ilə kredit təşkilatları arasında münasibətlərin tənzimlənməsini və s. müəyyən edən) özündə birləşdirən kompleks xarkterli hüquq sahəsi kimi baxılır. Həmçinin, hüquq ədəbiyyatında göstərilir ki, bank hüququ təkcə bankların təşkili və fəaliyyətinin ümumi prinsiplərini deyil, həm də maliyyə və onunla əlaqəli olan xidmətlərin göstərilməsini tənzimləyən normalar məcmusunu əhatə edir. Bank hüququnupublik-hüquqi metodun mövcudluğu xarakterizə edir. Bu metod həm də imperativ metod, inzibati-hüquqi metod, hakimiyyət və tabeçilik metodu, subordinasiya metodu və s. kimi də adlandırılır. Bu növ metodlar mülki hüquqa xas deyil.Buna görə də belə əməliyyatların həyata keçirilməsi mülki-hüquqəqdləri anlayışı ilə əhatə oluna bilməz.

Beləliklə, fikrimcə, bank əqdinin mülki hüququn kateqoriyasına, bank əməliyyatının isə sırf bank hüququ kateqoriyasına aid olması fikri ilə razılaşmaq olar. [5, s. 16] Bank əməliyyatı yalnız bir tərəf - kredit təşkilatı tərəfindən həyata keçirilir. Bank əməliyyatının bir sıra ünsurlarınıqeyd etmək olar: 1) məqsəd; 2) müəyyən texnologiya; 3) bank risklərinin idarə edilməsi. [7, s. 18-27] Bank əməliyyatı,öz mahiyyətinə görə, kredit təşkilatı ilə kredit təşkilatlarının fəaliyyətinə nəzarət funksiyalarını həyata keçirən orqan arasında şaquli hüquqi münasibətləri də əhatə edə bilər. Beləliklə, belə nəticəyə gəlmək olar ki, bank əməliyyatı öz məzmununa görə bank əqdi anlayışından fərqlənir.

Lakin, fikrimcə, bir mühüm xüsusiyyəti də qeyd etmək lazımdır. Kredit münasibətlərinin ilkin olaraq banklar tərəfindən bu cür fəaliyyəti həyata keçirməsi nəticəsində yarandığını nəzərə alaraq, belə münasibətləri tənzimləyən normalar məcmusuna bank hüququ kimi baxılmağa başlandı. Lakin hazırki dövrdə kredit münasibətləri digər kredit təşkilatları tərəfindən də həyata keçirilir. Bunu nəzərə alaraq, fikrimcə, "kredit hüququ" ifadəsini işlətmək daha düzgün olardı. "Kredit hüququ" anlayışı daha geniş münasibətləri tənzimlədiyinə görə "bank hüququ" anlayışını da əhatə edərdi. Bu hüququn sistemi müvafiq olaraq "kredit əməliyyatı" və "kredit əqdi" anlayışlarını da əhatə edir.Bütün bunları nəzərə alaraq, fikrimcə, bu anlayışlar Azərbaycan Respublikasının qanunvericiliyində

daha aydın şəkildə müəyyən edilməlidir. Bu təkcə nəzəri deyil, həm də mühüm praktiki əhəmiyyətə malikdir. Birincisi, bu yolla kredit tənzimlənməsinin çərçivəsini və kredit fəaliyyətini tənzimləyən orqan tərəfindən müvafiq nəzarətin həyata keçirilməsi dəqiq müəyyən etmək olar. Bu isə yalnız kredit əməliyyatlarının həyata keçirilməsi ilə məhdudlaşır. İkincisi, kredit və xüsusilə bank fəaliyyətinin həyata keçirilməsi sahəsi müəyyən edilir. Məsələn, müəyyən edilə bilər ki, bank əməliyyatları - yalnız bankın baş ofisində, onun filial və bölmələrində həyata keçirilə bilər, bank əqdləri isə, həmçinin bankın nümayəndəliyində də bağlana bilər.

Aparılmş tədqiqata əsasən belə bir nəticəyə gəlmək olar ki, kredit təşkilatı kimi fəaliyyət göstərən banklar tərəfindən bağlanan bank əqdləri mülki hüquq kateqoriyasına, bank əməliyyatının aparılması isə sırf bank hüququ kateqoriyasına aiddir. Bu anlayışlar Azərbaycan Respublikasının qanunvericiliyində daha aydın şəkildə müəyyən edilməlidir. Bu halda kredit tənzimlənməsinin və kredit fəaliyyətini tənzimləyən orqan tərəfindən müvafiq nəzarətin həyata keçirilməsi çərçivəsinidəqiq müəyyənləşdirmək olar.Bununla yanaşı, kredit və ilk növbədə bank fəaliyyətinin həyata keçirilməsi sferasını daha dəqiq müəyyən etməsinə imkan verir. Məsələn, belə bir qayda müəyyən edilə bilər ki, bank əməliyyatları müstəsna olaraq bankın əsas, baş ofisində, onun filial və bölmələri olduqda, həmçinin onlarda da həyata keçirilə bilər. Bank əqdləri isə, bundan əlavə, belə bir bank qurumun nümayəndəliyində də bağlanıla bilər.

**Ədəbiyyat siyahısı**


1. "Banklar haqqında" Azərbaycan Respublikasının 16 yanvar 2004-cü il tarixli qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, m. 130.
2. Mülki hüquq. (Ümumi hissə). Mühazirə toplusu. R.A. Göyüşovun məsul redaktorluğu ilə Bakı: Təknur, 2011, 378 s.
3. Yusifov, Ş.M. Azərbaycan Respublikası mülki hüququnda müqavilə azadlığı prinsipi. Bakı, "Elm", 2012, 192 s.
4. Волос, А.А. Принципы-методы гражданского права и их система. М.: Юстицинформ, 2018, 258 с.
5. Гасанов, А.Ш. Банковское право Азербайджана. Взгляд со стороны /А.Ш. Гасанов. - Баку, - 2013. -531 с.
6. Климова, А.Н. Понятие и значение принципов гражданского права: теоретические и практические аспекты// -М.:Юридическая наука, 2014, № 4, - с. 85-89
7. Коровяковский, Д.Г. Правовые способы обеспечения исполнения обязательств по кредитному договору //- М.: Финансы и кредит, 2005, № 29, с. 49-59.
8. Кузнецова, О.А. Принципы гражданского права: современное состояние вопроса // Власть закона, 2011, № 4, с. 87-95.
9. Муллинова, С.А., Собкалова,К.С. Депозитные операции: от теории к практике // Современные тенденции в экономике и управлении: новый взгляд: сб. Материалов V Международ. науч.-практ. конф., Новосибирск, 20 ноября 2010 г.: [в 2 ч.] / под общ. ред. С. С. Чернова. – Новосибирск, 2010, Ч. 2, с. 63-68
10. Ткаченко, А.А. Понятие и система принципов гражданского права // - Краснодар: Политематический сетевой электронный журнал Кубанского государственного аграрного университета. – 2012. – № 84. – с. 877-896.

# ОСОБЕННОСТИ КРЕДИТНЫХ ДОГОВОРОВ И КРЕДИТНЫХ СДЕЛОК В ПРАВОВОМ РЕГУЛИРОВАНИИ КРЕДИТНЫХ ОТНОШЕНИЙ

**Исмайлова Вафа Натик кызы,**
**докторант кафедры гражданского права**
**Бакинского Государственного Университета.**

Исполнение кредитных обязательств представляет собой сложную юридическую конструкцию, включающую такие составляющие, как передача кредитных средств кредитной организацией, прием кредитных средств заемщиком, начало определенного договором срока погашения кредита, возврат денежных средств, выплата процентов и т.д. Такие отношений регулируются различными юридическими конструкциями. При осуществлении кредитной деятельности в юридической литературе и в законодательстве используются понятия «сделка» и «операция». Автор анализирует содержание обеих понятий и определяет разницу между ними. Это позволяет более точно определить сферу деятельности кредитных и, в первую очередь, банковских учреждений.

**Ключевые слова:** кредит, сделка, операция, договор, понятие, право, регулирование.

## CHARACTERISTICS OF CREDIT AGREEMENTS AND CREDIT TRANSACTIONS IN THE LEGAL REGULATION OF CREDIT RELATIONS

**Ismayilova Vafa Natig,**
**Baku State Universitydoctoral student of the "Civil Law" department.**

The fulfillment of credit obligations is a complex legal structure, including such components as the transfer of credit funds by a credit institution, the acceptance of credit funds by the borrower, the beginning of the loan repayment period specified by the agreement, the return of funds, the payment of interest, etc. Such relations are regulated by various legal structures. When carrying out lending activities in the legal literature and legislation, the concepts of "transaction" and "operation" are used. The author analyzes the content of both concepts and determines the difference between them. This allows you to more accurately determine the scope of activities of credit and, in the first place, banking institutions.

**Key words:** credit, transaction, transaction,operation, contract, concept, law, regulation.

## KREDİ İLİŞKİLERİNİN YASAL DÜZENLEMESİNDE KREDİ SÖZLEŞMELERİ VE KREDİ İŞLEMLERİNİN ÖZELLİKLERİ

**Ismayilova Vafa Natig gizi,**
**Bakü Devlet Üniversitesi, Hukuk Fakültesi,**
**Medeni Hukuk Anabilim Dalı doktora öğrencisi.**

Kredi yükümlülüklerinin yerine getirilmesi, kredi fonlarının kredi kuruluşu tarafından transferini, kredi fonlarının borçlu tarafından kabul edilmesini, sözleşmeyle belirlenen kredi geri ödeme süresinin başlamasını, fonların iadesini, faiz ödemesini vb. içerir. gibi bileşenleri içeren karmaşık bir hukuki yapıdır. Kredi faaliyetine ilişkin işlem ve işlem kavramları kullanılmaktadır. Her iki terim de hem hukuki literatürde hem de mevzuatta kullanılmaktadır. Yazar, kredi faaliyetlerinin uygulanmasına yönelik her iki kavramın içeriğini analiz etmekte ve aralarındaki farkı tanımlamaktadır.

**Anahtar kelimeler:** kredi, işlem, işlem, sözleşme, kavram, hukuk, yönetmelik.

# HAKİM STATUSUNDAN İRƏLI GƏLƏN TƏLƏBLƏRİN TƏMİNATININ HÜQUQİ ƏSASLARI

**Axundova Könül Arif qızı,**
**"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti Milli Aviasiya Akademiyasının doktorantı.**
e-mail: k.akhundova@a-akhundoff.az

*Məqalədə hakim statusundan irəli gələn tələblərin təminatının hüquqi əsasları nəzərdən keçirilərək qeyd olunur ki, hakimin statusunun bir çox aspektləri mövcuddur: hakimlərə irəli sürülən tələblər; hakimlərin səlahiyyətlərin verilməsi qaydası; hakimlərin hüquqlar, vəzifələri və səlahiyyətləri; hakim təminatları və immunitetləri; hakimlə cəmiyyət və dövlətin qarşılıqlı əlaqələrini ifadə edən hüquqi prinsiplər; hakimlərin məsuliyyəti; hakimlərin səlahiyyətlərinin dayandırılması və onlara xitam verilməsi əsasları.*

*Müəllif Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin I hissəsinə istinad edərək qeyd edir ki, hakimlər müstəqildir. Bunun təminatları kimi hakimlərin yalnız Konstitusiya və qanunlara tabe olması, həmçinin səlahiyyətləri müddətində dəyişilməzliyi birbaşa təsbit edilmişdr. Həmçinin müəllif tərəfindən hakimlərin qanuna tabe olması məsələsinə dair hüquq ədəbiyyatında mövcud fərqli mövqelərin təhlili aparılaraq belə bir nəticəyə gəlinmişdir ki, hakimin Konstitusiyaya uyğun olması şərti ilə qanuna tabe olduğuna dair mövqe daha əsaslıdır. Müəllifin fikrincə, hakim yalnız o qanunlara istinad edib onları tətbiq etməlidir ki, onlar Konstitusiyaya və beynəlxalq müqavilələrə uyğun gəlir və məhkəmə tərəfindən hüquq baxımından qənaətbəxş sayılsın. Belə olduqda hakimin qanunverici hakimiyyət tərəfindən qəbul edilmiş qanuna tabe olması halında belə, ondan asılı olmadığını təsdiq etmək mümkündür.*

**Açar sözlər:** hakimin statusu, hakimin səlahiyyəti, hakimin toxunulmazlığı, hakimin müstəqilliyi, hakimlərin şəxsi təhlükəsizliyi, hakimin maddi təminatları, hakimin sosial təminatları.

Hər şeydən əvvəl qeyd etməliyik ki, hakimin statusu hakim səlahiyyətlərinə malik olan şəxsin statusudur. Bu status özündə konstitusiya və digər normativ hüquqi aktların müddəaları ilə həyatın bütün fəaliyyət sferalarında müəyyən edilən onun hüquqları, vəzifələri, məhduiyyətlər, təminatar, sosial-hüquqi müdafiə tədbirləri və s. birləşdirir. Hakimin statusunu bir neçə aspektdə biruzə verir: əsas vəzifəsi vətəndaşların hüquqlarını və qanuni maraqlarını, həmçinin dövlət və onun orqanları ilə münasibətdə müdafiə etmək, ədalət mühakiməsini həyata keçirən məhkəmə hakimiyyətinin daşıyıcısı olan şəxs kimi – hakimin statusunun bu aspekti onun məzmununun prosessual cəhətlərini – şəxsin hakim kimi prosessual qanunvericiliklə müəyyən edilən səlahiyyətini özündə birləşdirir. Dövlət vəzifəsində dövlət qulluğu keçən və eyni zamanda onun hakim korpusunun üzvi kimi dövləq qulluğu sistemində xüsusi statusunu müəyyən edən şəxs kimi; xüsusi hüquqi statusa malik olan vətəndaş kimi hakimin müəyyən

hüquqları məhdudlaşır və qanunvericiliklə onun cəmiyyətdə xüsusi vəziyyəti təsit olunur. Onu digər vətəndaşlara nisbətdə xüsusi səlahiyyətləri nəzərdə tutan belə bir vəziyyəti müstəqil şəkildə ədalət mühakiməsinin həyata keçirilməsinin təminatı kimi çıxış edir. Bu baxımdan razılaşmaq lazımdır ki, hakimin statusu onun şəxsi üstünlüyü kimi qiymətləndirilə bilməz, əksinə hər kəsin hüquq vəazadlıqlarının müdafiə vasitəsi kimi şəxsiyyətin ümumi konstitusion hüquqi statusunun təminatı kimi nəzərdən keçirilməlidir [6, s.15].

Beləliklə də, hakimin statusunun bir çox aspektlərini ayırmaq mümkündür: hakimlərə irəli sürülən tələblər; hakimlərin səlahiyyətlərin verilməsi qaydası; hakimlərin hüquqlar, vəzifələri və səlahiyyətləri; hakim təminatları və immunitetləri; hakimlə cəmiyyət və dövlətin qarşılıqlı əlaqələrini ifadə edən hüquqi prinsiplər; hakimlərin məsuliyyəti; hakimlərin səlahiyyətlərinin dayandırılması və onlara xitam verilməsi əsasları. Bununla da hakimin statusu bir neçə tərkib hissələrdən ibarətdir: struktur-təşkilati (statusun əldə edilməsi və xitam verilməsi), məzmun (hüquqsubyektliliyi,subyektiv hüquqları, hüquqi vəzifələri, məsuliyyət, səlahiyyətləri) hüquqi statusun realizə şərtləri (təminatlar, immunitetlər, prinsiplər və s.) [11, s. 48].

Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin I hissəsinə görə hakimlər müstəqildir. Bunun təminatları kimi hakimlərin yalnız Konstitusiya və qanunlara tabe olması, həmçinin səlahiyyətləri müddətində dəyişilməzliyi birbaşa təsbit edilmişdr. “Məhkəmələr və hakimlər haqqında” qanunun 100-cü maddəsinə əsasən hakimlərin müstəqilliyi 1) hakimlərin səlahiyyəti dövründə siyasətsizləşdirilməsi, 2) dəyişilməzliyi, 3) toxunulmazlığı, 4) vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, vəzifədən kənarlaşdırılmasının və səlahiyyətlərinə xitam verilməsinin məhdudlaşdırılması, 5) məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsi və ədalət mühakiməsinin qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilməsi, 6) məhkəmə icraatına hər hansı şəxs tərəfindən məhdudiyyət qoyulmasının və müdaxilə edilməsinin yolverilməzliyi, 7) hakimlərin şəxsi təhlükəsizliyinin təmin edilməsi, 8) maddi və sosial təminatları və məhkəmə qərarları hakimlərin sərbəst daxili inamına və məhkəmə araşdırmasının nəticələrinə əsaslanması və 9) təşkilati-hüquqi kimi üsul və vasitələr məcmusu ilə realizə olunur [1].

Bundan başqa hakimlərin müstəqilliyinin təminat sistemi özünü aşağıdakı istiqamətlər üzrə biruzə verdiyi ilə razılaşmaq mümkündür: ədalət mühakiməsinin həyata keçirilməsinin qanunla müəyyən edilmiş qaydası; ədalət mühakiməsinin həyata keçirilməsi fəaliyyətinə qanunsuz müdaxilənin məsuliyyət qorxusu ilə qadağan edilməsi; hakimlərin səlahiyyətlərinin dayandırılması və xitam verilməsinin müəyyən edilmiş qaydası; hakimlərin istefa vermək hüquq; hakimlərin toxunulmazlığı; hakimlərin özünüidarə orqanları sistemi; hakimlərin yüksək statusuna uyğun olan dövlət hesabına maddi və sosial təminatının təqdim edilməsi [12].

Hakimlərin müstəqilliyini bəyan edən ölkə Konstitusiyasının 127-ci maddəsinin birinci hissəsi bu müstəqilliyi ilk növbədə, onların qərarlar qəbul edərkən yalnız Azərbaycan Respublikasının Əsas Qanununa və ona uyğun olaraq qəbul edilmiş qanunlara tabe olması ilə təmin edir və onların vəzifə səlahiyyətlərinin icra etdiyi müddətdə dəyişdirilməsinin qadağan edilməsi ilə davam elətdirir. Hakimlərin işlərin araşdırılması və qərarların qəbulu zamanı yalnız ən yüksək

hüquqi qüvvəyə malik olan normativ hüquqi akta və qanuna tabe olması təkcə onları qeyri-hüquqi təsirlərdən müdafiə edərək onların müstəqilliyinin təminatı kimi deyil, həmçinin ədalət mühakiməsində iştirak edən ayrı-ayrı fiziki və hüquqi şəxsləri ədalət mühakiməsinin həyata keçirilməsi zamanı hakimin mümkün sui-istifadə hallarında qoruyur və onların hüquqlarının və qanuni maraqlarının təmin edilməsi üçün təminat yaradır. Ona görə də hakimlərin mövqeyinin Əsas Qanundan irəli gəlməsinin zəruriliyini və insan hüquq və azadlıqlarının təminatının konstitusion formada imperativ norma kimi ədalət mühakimə yolu ilə həyata keçirilməsinin birbaşa təsbit edildiyini müşahidə etmək olar.

Hakimlərin qanuna tabe olması müddəası ilə bağlı hüquq ədəbiyyatında fərqli fikirlərə rast gəlmək mümküdür. Hüquq nəzəriyyəsi sahəsində yanaşmaya görə hakimin qanuna tabe olması daha geniş şərh edilməlidir. Həmin normanın hərfi təfsiri hakimlərin qanunqüvvəli aktlara tabe olmaması haqqında nəticəyə gəlməyə imkan verə bilər. Lakin qanunverici "qanun" sözünü geniş mənada istifadə etmişdir. O, hakimlərin qanunlara tabe olmasını qeyd edərkən yalnız qanunvericilik orqanının qəbul etdiyi qanunları deyil, həm də onların əsasında səlahiyyətli dövlət orqanları tərəfindən qəbul edilmiş bütün digər normativ huquqi aktları nəzərdə tutmuşdur. Başqa sözlə, burada qanunun hərfinə deyil, onun ruhuna istinad edilməsinin zəruriliyi göstərilir [5, s. 299]. Başqa bir yanaşmaya görə isə hakimlərin qanuna tabe olması heç də istisnasız olaraq bütün qanunlara tabe olduğunu özündə əks etdirmir və bu qanunlarda müəyyən istisnalar mövcuddur. Hakim yalnız o qanunlara istinad edib onları tətbiq etməlidir ki, onlar Konstitusiyaya və beynəlxalq müqavilələrə uyğun gəlir və məhkəmə tərəfindən hüquq baxımından qənaətbəxş sayılsın. Belə olduqda hakimin qanunverici hakimiyyət tərəfindən qəbul edilmiş qanuna tabe olması halında belə, ondan asılı olmadığını təsdiq etmək mümkündür. Bu baxımdan hakim yalnız Konstitusiyaya uyğun olması şərti ilə qanuna tabe olduğunu əsaslı sayan mülahizələrlə razılaşmaq olar [10].

Bununla bağlı Azərbaycan Respublikasını qanunvericiliyinin təhlili nəticəsində belə bir qənaətə gəlmək olar ki, qitə hüquq sistemində məhkəmələrin Konstitusiyaya uyğunluğu səlahiyyətini konstitusiya nəzarəti orqanı həyata keçirsə də, məhkəmələrin özləri də bu uyğunluq məsələsini həll etmək səlahyyətinə malikdirlər. Belə ki, həm ölkə Konstitusiyasında, həm də milli maddi və prosessual qanunvericilikdə qanunların Əsas Qanuna zidd olduğu halda sonuncuna üstünlük verildiyinin məcburiliyi barədə müddəalar öz əksini tapmışdır. Əgər ölkə Konstitusiyasında məhkəmələrin Konstitusiya Məhkəməsinə müraciət etmək səlahiyyəti barədə normaya (130-cu maddə VI hissə) və həmin normanın məhkəmələr tərəfindən həyata keçirilməsi qaydasını nəzərdə tutan mülki-prosessual, cinayət-prosessual və inzibati prosessual qanunvericiliyin ayrı-ayrı müddəalarına baxsaq, görərik ki, bu müraciət yalnız Konstitusiya və qanunların şərh edilməsini özündə ehtiva edə bilər. Qanunlarla Konstitusiya arasında ziddiyyətin müəyyən edilməsi halında məhkəmələr özü bu barədə doğru hesab etdiyi qərarı qəbul etməlidir. Bütün bunlar hakimin bütün qanunlara tabe olması müddəasının əleyhinə olan mülahizələr olsa da, belə mülahizələrin heç biri hakimin qanunlara tabe olması kimi ümumi qaydanın inkar olunması qənaətinə gəlməyə imkan vermir. Hüquqa – haqqa və ədalətə uyğun olmayan qanunun hüquqi qüvvəsi olmasa da, hakimin qanuna

tabe olması müddəası məhkəmə hakimiyyətinin təşkilinə dair dünyada formalaşan hüquq sistemlərinin əsas fərqləndirici cəhətlərindən biridir və bu müddəanı hakimin qanunvericilik orqanının qəbul etdiyi normativ hüquqi akt kimi qanuna tabe olması mənasında təfsir edilməsini istisna edir.

Hakimlərin müstəqilliyi məhkəmə hakimiyyətinin əsas vəzifəsi olan ədalət mühakiməsinin effektiv və səmərəli surətdə həyata keçirilməsi üçün cəmiyyətdə ona olan tələbatın həddində zəruridir. Bu baxımdan hakimlərin müstəqilliyi ədalət mühakiməsinin həyata keçirilməsinin zəruri şərti kimi çıxış edir, onun təmin olunmasında əvəzedilməz rola malikdir. Hakimlərin müstəqilliyi ədalət mühakiməsinin hər kəsin istənilən halda məhkəmı müdafiəsini effektiv surətdə təmin edilməsi məqsədlərinə xidmət edir, onun prinsip kimi mühüm təminat vasitəsi olaraq çıxış edir. Bu baxımdan o fikirlə razılaşmaq olar ki, ədalət mühakiməsinin həqiqi müstəqilliyi onun əsas tərkib hissəsi kimi çıxış edən hakimlərin müstəqilliyinin realizə olunmasından asılıdır. Bu prinsipə aid edilir: 1) hakimlərin qanunvericilik və icra hakimiyyətindən asılı olmaması; 2) hakimlərin "məhkəmələrin şaquli hakimiyyətindən" müstəqilliyi və 3) müstəqilliyin şəxsi formda təzahürü kimi hakimin qərəzsizliyi [9, s.122].

Hakimlərin müstəqilliyinin bir-biri ilə qarşlıqlı əlaqədə olan və bir-birinə qarşılıqlı təsir göstərən obyektiv (xarici) və subyektiv (xarici) tərəflərinin fərqləndirildiyi müşahidə etmək mümkündür. Hakimlərin müstəqilliyinin obyektiv tərəfi özünü məzmununda ədalət mühakiməsinin həyata keçirilməsi fəaliyyətinə digər hakimiyyət orqanlarının müdaxilə etməsinin qadağan edilməsini, həmçinin qanunvericiliklə hakimlərə və onların fəaliyyətinin təşkilinə müvafiq tələblər irəli sürən hüquqi dövlətdə hakimiyyətin təşkilinin demokratik prinsipi sayılan, hakimiyyət bölgüsü əsasında təşkilində büruzə verir. Hakimlərin müstəqilliyinin subyektiv tərəfi tam surətdə məhkəmə hakimiyyəti daşıyıcısının şəxsi keyfiyyətlərindən asılıdır [8, s. 181].

Hakimlərin müstəqilliyinin təminatı anlayışına nəzər salaraq onun mühüm əlamətlərinə diqqət yetirdikdə görmək olar ki, bu məsələnin müxtəlif aspektləri mövcuddur. Hakimlərin müstəqilliyinin təyinatı hakimin qanunda təsbit olunmuş statusunun həyata keçirilməsində təzahür edən fəaliyyəti üçün şəraitin yaradılmasından ibarətdir. Hakimin müstəqilliyinin təminatları onun hüquqi, maddi, təşkilati və sosial müdafiə tədbirlərinin qanunvericilikdə dəyişikliklərlə daimi təkmilləşdirilir. Belə təkmilləşdirmə həmin təminatların inkişaf etdirilməsini nəzərdə tutur. Belə təminatlar hakimin müstəqilliyini daha da inkişaf etdirməli, onların azaldılmasına yönəlik olmamalıdır. Bununla bağlı Azərbaycan Respublikasında hakimlərin sosial təminatı ilə bağlı qanunvericilikdə edilən dəyişikliklərin mahiyyəti ilə əlaqədar ölkə Konstitusiya Məhkəməsinin hüquqi mövqeyinin xüsusi diqqəti cəlb edir. Ölkə Konstitusiya Məhkəməsinin bu məsələdə özünün hüquqi yanaşmasını "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 109-cu, "Konstitusiya məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 73-cü və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20.1.4 və 20.7 maddələrinin şərh edilməsinə dair qərarında ifadə etmişdir. Məhkəmə hesab edir ki, hakimlərin sosial müdafiəsinə yönəldilən pensiya təminatı onların müstəqilliyini və qərəzsizliyinin müdafiəsini nəzərdə tutan Konstitusiya və beynəlxalq-hüquqi

aktlarda nəzərdə tutulan təminatların zəruri elementlərindən biridir. Baqşqa sözlə, hakimlərin layiqli sosial müdafiəsi onların yüksək konstitusion hüquqi statusundan irəli gəlir və xüsusi növ hakimiyyət fəaliyyəti olan ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi xüsusi yanaşmanı tələb edir. Məhkəmə birbaşa şəkildə göstərir ki, hakimlərə münasibətdə qanunvericilik orqanı pensiya qanunvericiliyini inkişaf etdirdikdə nəzərə alınmalıdır ki, məhkəmənin istənilən təsirə dayanıqlığı yalnız hakimlərin etikası, nüfuzu, ixtisası, ləyaqəti və məsuliyyəti ilə deyil, həmçinin onların müstəqilliyinin bir hissəsi kimi çıxış edən yüksək maddi-sosial təminatları ilə də birbaşa bağlıdır və pensiya təminatı hakimlər üçün müəyyənləşdirilmiş maddi-sosial imtiyaz kimi deyil, əksinə, hakimlərin müstəqilliyinin təminatının bir vasitəsi kimi dəyərləndirilməlidir.

Bu yanaşma əsasında qanunverici, hakimlərin pensiya təminatına dair yeni qanunvericilik müddəalarını, o cümlədən "Əmək pensiyaları haqqında" Qanunu qəbul edərkən, əvvəllər "Məhkəmələr və hakimlər haqqında" və "Konstitusiya Məhkəməsi haqqında" qanunlarda nəzərdə tutulmuş pensiya yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş sabiq hakimlərin pensiya təminatının şərtlərini dəyişdirərkən, fəaliyyətdə olan hakimlərin müstəqilliyinə verilən təminatların pozulmasına və onların pensiya təminatı ilə bağlı hüquqi vəziyyətinin pisləşdirilməsinə şərait yaratmamaq üçün mütləq keçid müddəaları nəzərdə tutulmalıdır [3]. Razılaşmaq lazımdır ki, hakimin müstəqilliyinin təminatlarından biri kimi, onun sosial təminatı ilə bağlı olan müddəaların qəbulunda qanunvericilik orqanı onu digər şəxslərə münasibətdə fərqli yanaşma sərgiləməlidir.

Hakimlərin müstəqilliyinin təminatları kimi onun statusunun həyata keçirilməsi üçün zəruri olan müəyyən sferada mövcud olan şərtlərin deyil, ümumilikdə bütün şərtlərin məcmusunu nəzərdə tutur. Belə şərtlərə hüquq normaları ilə birgə prinsiplər və ayrı-ayrı institutlar da daxil edilir. Hakimlərn müstəqilliyinin təminatları ədalət mühakiməsinin effektiv surətdə həyata keçiriləsini təmin edən vasitə, üsul və metodları kompleksini, hüquqyaratma və hüquqtətbiqi fəaliyyətə təsir edn və ictimai münasibətləri xarakterizə edən şərtlərin və faktorların (xarici və daxili, obyektiv və subyektiv) məcmusu kimi izahı ilə razılaşmaq mümkündür.

Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 100, 101-ci maddələri və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 17 yanvar 2022-ci il tarixli qərarında hakimin müstəqilliyinin təminatlarını ədalət mühakiməsinin publik hüquqi məqsədlərinin hakimlər tərəfindən realizə edilməsi ilə izah edərək onları "xüsusi təminatları" kimi adlandırır. Məhkəmənin müstəqilliyinin müstəsna publik əhəmiyyətinə xüsusi önəm verən qanunverici bu onun təmin olunmasının siyasi, iqtisadi və hüquqi mexanizmlərini müəyyən etmişdir [4]. Heç şübhəsiz ki, bunu hakimlərin müstəqilliyi prinsipinin özünün əhəmiyyəti ilə əlaqədardır. Belə ki, bu prinsip bütün məhkəmə sisteminin müstəqilliyinin vacib elementi olmaqla hakimiyyət bölgüsü, qanunun aliliyi, ədalət, insan hüquqlarının təmin edilməsi prinsiplərinin realizəsinə yönəlmiş mühüm təminatlardan biridir. Demokratik cəmiyyətdə məhkəmə hakimiyyətinin müstəqilliyinin gerçəklikdə mövcudluğunda dövlətin xüsusi publik marağı mövcud olur.

Konstitusiya Məhkəməsi qərarında hakimlərin müstəqilliyinin siyasi təminatlarına onların heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməməsi, siyasi fəaliyyətlə məşğul və siyasi partiyalara üzv ola bilməməsi kimi məhdudiyyətləri aid edir. Bununla məhkəmə qərarlarının hakimlərin siyasi baxışlarından və siyasi məqsədəmüvafiqlikdən azad olunmasına zəmin yaradılır. İqtisadi təminatlara dövlət tərəfindən hakimlərin maddi və sosial təminatı məsələlərinin hakimin yüksək statusuna uyğun səviyyədə həll edilməsi daxildir. Hüquqi təminatlara hakimlərin dəyişilməzliyi, təyin edilməsi, vəzifədən kənarlaşdırılması və səlahiyyətinə xitam verilməsinin xüsusi qaydaları, təhlükəsizliyi, intizam məsuliyyətinə cəlb edilməsinin qaydaları, toxunulmazlığı kimi digər müddəalar aid edilir.

Elmi ədəbiyyatda hakimin müstəqilliyinin vahid təminat sisteminin müxtəlif növlərini fərqləndirildiyinin şahidi olmaq olar: 1) institusional təminatlar, 2) funksional (prosessual) təminatlar, 3) təşkilati təminatlar, 4) sosial təminatlar və 5) mənəvi təminatlar [7, s. 131].

Hakimlərin müstəqilliyinin təminatlar sistemini ümumilik dərəcəsinə görə sahəvi və institusional təminatlara bölmək mümkündür. Hakimlərin müstəqilliyinin institusional məzmunu barədə onun prosessual qanunvericilikdə təminatlar mexanizmini təsbir edir. İnstitusional təminatlara məhkəmə quruluşu, məhkəmə sistemi, məhkəmə qərarlarının müddəalarının icrası barədə qanunvericilikdə təsbit edilən təminatlar, həmçinin məhkəmə hakimiyyətinin konstitusion statusuna uyğun hakimlərin seçkisi və təyin edilməsinin demokratik sistemin, hakimlərin toxunulmazlığının, dəyişilməzliyi və onların fəaliyyətinə müaxilənin yolverilməzliyi institutunn təmininə yönəlmiş üsul, vasitə və metodların kompleksi aiddir.

Hakimlərin müstəqilliyinin prosessual (funksional) təminatlarına prosessual normaları, məhkəmə icraatının prinsipləri, prosessual institutlar, prosessual forma, məhkəmə icraatı iştirakçılarının fəaliyyəti, prosessual sanksiyalar aid edilir. Prosessual təminatlara hakimin öz funskiyasına yerinə yetirmək, onun başqa bir orqana tabe olmasını istisna edən şəraitdə qanun və daxili inamı əsasında qərarları azad və müstəqil surətdə qəbul etməyə imkan yaradan müddəalar, vasitələr nəzərdə tutulur.

Hakimlərin müstəqilliyinin təminatlarını milli və beynəlxalq təminatlar kimi bölgüsü də mühüm nəzəri və praktiki əhəmiyyətə malikdir.

Hakimlərin müstəqilliyinin milli hüquqi təminatlarına ölkə Konstitusiyası və qanunlarında nəzərdə tutulan təminatlar aid edilirsə, beynəlxalq təminatlara beynəlxalq-hüquqi aktlarda nəzərdə tutulan təminatlar aid edilir.

Hakimlərin müstəqilliyi ilə əlaqədar mühüm təminatlardan biri İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyasının 6-cı maddəsində ifadə olunmuş ədalətli məhkəmə araşdırmasının tərkib hissəsi kimi çıxış edən hər kəsin onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə araşdırılması hüququnda əks olunur [2]. Konvensiyaya dair pozuntulara baxan Avropa İnsan Hüquqları Məhkəməsi özünün presedent hüququnda müstəqil məhkəmənin milli qanunvericilikdə hansı təminatlarla müşayət olunmasının zəruriliyini ayrı-ayrı qərarlarındakı hüquqi mövqeyi ilə formalaşdırmışdır. AİHM-in məhkəmələrin müstəqilliyi ilə bağlı təminatları müxtəlif meyarlar üzrə xarakterizə olunur. İlknövbədə məhkəmə

hakimiyyətin digər qollarından (yəni icra hakimiyyəti və qanunverici hakimiyyətdən), həmçinin tərəflərdən müstəqillik tələb edir. Eyni zamanda AİHM işə baxan məhkəmənin müstəqilliyinin qiymətləndirilməsi meyarları kimi 1) məhkəmənin üzvlərinin təyin olunma qaydası və onların vəzifədə qalma müddəti; 2) kənar təzyiqlərə qarşı təminatların mövcudluğu; 3) orqan müstəqillik görüntüsünü malikdirmi.

Hakimin qanunverici və ira hakimiyyəti tərəfindən bilavasitə təyin olunması özü-özlüyündə onlardan asılı anlamna gəlməsə də, bu zaman məhkəmə funksiyasının həyata keçirilməsi zamanı onlara təsir və təzyiqdən kənar fəaliyyət göstərmək imkanı olmamalıdır. Hakimlərin vəzifədə olduqları müddətdə kənarlaşdırıla bilməməsi ümumilikdə onların müstəqilliyinin əsası hesab olunmalıdır. Lakin bu kənarlaşdırılmama qaydasının qanunla rəsmi qaydada tanınmaması özü-özlüyündə müstəqilliyin olmaması deyildir, bir şərtlə ki, bu prinsip faktiki olaraq tanınmış olsun və digər zəruri təminatların mövcud olsun. Məhkəmənin müstəqilliyi ayrı-ayrı hakimlərin məhkəmə sistemi daxilində və xaricində qanunsuz təsirlərdən azad olmağı tələb edir. Məhkəmənin daxili müstəqilliyi onlardan hakim həmkarlarının və ya məhkəmədə inzibati öhdəlikləri yerinə yetirən şəxslərin, məsələn, məhkəmə sədrinin və ya kollegiyanın sədrinin təzyiqlərindən və göstərişlərindən azad olmağı tələb edir. Hakimlərin məhkəmə sistemi daxilində, xüsusən tabe olduqları şəxslərə münasibətdə müstəqilliyini təmin edən yetərli təminatların olmaması Məhkəmənin ərizəçinin həmin məhkəmənin müstəqilliyi və qərəzsizliyi ilə bağlı şübhələrinin əsaslı olduğu qənaətinə varmasına gətirib çıxara bilər. Bundan başqa, məhkəmənin müstəqil hesab oluna bilib-bilməyəcəyinin müəyyən edilməsi üçün zahiri meyarlar da əhəmiyyətli ola bilər. Məsələ demokratik cəmiyyətdə məhkəmələrin əhaliyə və söhbət cinayət mühakimə icraatından getdikdə, təqsirləndirilən şəxsə aşılamalı olduğu etimaddadır. Müəyyən bir məhkəmənin müstəqil və ya qərəzsiz olmaması ilə bağlı narahatlığın qanuni əsasının olub-olmadığının qərarlaşdırılmasında təqsirləndirilən şəxsin mövqeyi əhəmiyyətli olsa da, həlledici deyil. Həlledici olan onun şübhələrinin obyektiv olaraq əsaslandırıla bilinib-bilinməməsidir. Məhkəmə "obyektiv müşahidəçi"nin baxılan məhkəmə işinin hallarında bu məsələ ilə bağlı narahatlıq üçün əsas görməyəcəyi qənaətinə vardıqda, müstəqilliklə bağlı problem olmayacaq. "Məhkəmənin" üzvlərin tərkibinə vəzifə və xidmətlərinin təşkili baxımından işin tərəflərindən birinin tabeçiliyində olan şəxslər daxil olarsa, təqsirləndirilən şəxs həmin şəxslərin müstəqilliyindən şübhəsi legitim olar [2].

### İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2023.
2. Avropa İnsan Hüquqları Konvensiyasının 6-ci maddə üzrə təlimat - ədalətli məhkəmə araşdirması hüququ (cinayət hüququ aspekti). 2017, 124 s., s.26-27 https://rm.coe.int/guide-on-article-6-of-convention-criminal-limb-aze-/16808bbd0e
3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 109-cu, "Konstitusiya məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 73-cü və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20.1.4 və 20.7 maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı. https://e-qanun.az/framework/15964

4. Azərbaycan Respublikası Konstitusiyasının 128-ci maddəsinin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 100, 101-ci maddələri və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53.1.5-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair Azərbaycan Respublikasi Konstitusiya Məhkəməsi Plenumunun Qərarı. https://e-qanun.az/framework/49109
5. Məlikova M.F. nəzəriyyəsi. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş üçüncü nəşri. Bakı, "Elm və təhsil", 2019, 448 s.
6. Ермошин Григорий Тимофеевич. Статус судьи в российской федерации. Автореферат диссертации на соискание ученой степени доктора юридических наук. Москва, 2016. səh.15.
7. Ищенко Ульяна Сергеевна, Можаева Ирина Павловна. Система гарантий, обеспечивающих принцип независимости судей в уголовном судопроизводстве // ВЕСТНИК ВОСТОЧНО-СИБИРСКОГО ИНСТИТУТА МВД РОССИИ 2 (89), 2019, с.12-131.
8. Корнакова С.В., Щербакова И.А. Гарантии независимости, обеспечивающие статус судьи в российской федерации. Вестник Томского государственного университета. 2018, № 433,с. 180–185, 181.
9. амина О.И. Правосудие в механизме правового государства: концепции и реальность: дис. ... канд. юрид. наук. Тамбов, 2007,с.122.
10. Морщакова Т.Г. Конституционные основы судебной власти. М. : ГУ-ВШЭ Факультет права, 2005.
11. Орлова Ксения Александровна. Теоретико-правовые аспекты статуса судьи как субъекта права. Калининград, 2017, 241с.
12. Петров А. Гарантии и компенсации, предоставляемые судьям // https://www.top-personal.ru/adminlawissue.html?335

**Правовые основы обеспечения требований, вытекающих из статуса судьи**

**Ахундова Конюль Ариф кызы,**
**докторант Национальной Авиационной Академии ЗАО «AZAL».**

В статье рассматриваются правовые основы обеспечения требований, вытекающих из статуса судьи, и отмечается, что существует множество аспектов статуса судьи: требования к судьям; порядок наделения судей полномочиями; права, обязанности и полномочия судей; судебные гарантии и иммунитеты; правовые принципы, выражающие взаимоотношения судьи с обществом и государством; ответственность судей; основания приостановления и прекращения полномочий судей.

Ссылаясь на ч. 1 статьи 127 Конституции Азербайджанской Республики, автор отмечает, что судьи независимы. В качестве гарантии этого прямо было установлено подчинение судей только Конституции и законам, а также их неизменность в течение срока полномочий. Также проанализировал существующие в юридической литературе различные позиции по вопросу подчиненности судей закону автор пришел к выводу, что более разумной является позиция, согласно которой судья подчиняется закону, если он соответствует Конституции. По мнению автора, судья должен ссылаться и применять только те законы, которые соответствуют Конституции и международным договорам и считаются судом юридически удовлетворительными. В этом случае можно констатировать, что даже если судья подчиняется закону, принятому законодательной властью, он от него не зависит.

**Ключевые слова:** статус судьи, полномочия судьи, неприкосновенность судьи, независимость судьи, личная безопасность судьи, материальные гарантии судьи, социальные гарантии судьи.

**Legal basis for ensuring the requirements arising from the status of a judge**

**Akhundova Konul Arif,**
**Doctoral student at the National Aviation Academy of CJSC "AZAL".**

The article discusses the legal basis for ensuring the requirements arising from the status of a judge, and notes that there are many aspects of the status of a judge: requirements for judges; the procedure for vesting judges with powers; rights, duties and powers of judges; judicial guarantees and immunities; legal principles expressing the relationship of a judge with society and the state; responsibility of judges; grounds for suspension and termination of powers of judges.

Referring to Part 1 of Article 127 of the Constitution of the Azerbaijan Republic, the author notes that judges are independent. As a guarantee of this, the subordination of judges only to the Constitution and laws, as well as their invariability during their term of office, was directly established. He also analyzed the various positions existing in the legal literature on the issue of judges' subordination to the law, the author came to the conclusion that a more reasonable position is that a judge is subject to the law if it complies with the Constitution. According to the author, a judge should refer to and apply only those laws that comply with the Constitution and international treaties and are considered legally satisfactory by the court. In this case, it can be stated that even if a judge is subject to the law made by the legislature, he is not dependent on it.

**Key words:** status of a judge, powers of a judge, immunity of a judge, independence of a judge, personal safety of a judge, material guarantees of a judge, social guarantees of a judge.

**Hâkimin statüsünden kaynaklanan iddiaları garanti altına almanın yasal dayanağı**

**Ahundova Konul Arif kızı,**
**"Azerbaycan Havayolları" Kapalı Anonim Şirketinin**
**Ulusal Havacılık Akademisi doktora öğrencisi.**

Makale, hakimin statüsünden kaynaklanan gereklilikleri güvence altına almanın yasal dayanaklarını incelemekte ve bir hakimin statüsünün pek çok yönünün bulunduğunu belirtmektedir: hakimlere ileri sürülen gereklilikler; hakimlere yetki verme prosedürü; hakimlerin hakları, görevleri ve yetkileri; adli garantiler ve dokunulmazlıklar; hakim ile toplum ve devlet arasındaki karşılıklı ilişkileri ifade eden hukuk ilkeleri; hakimlerin sorumluluğu; Hakimlerin yetkilerinin askıya alınması ve sona erdirilmesi gerekçeleri.

Yazar, Azerbaycan Cumhuriyeti Anayasası'nın 127. maddesinin I. Kısmına atıfta bulunarak, hakimlerin bağımsız olduğunu belirtmektedir. Bunun garantisi olarak hakimlerin sadece Anayasa ve kanunlara uymaları ve görev süreleri boyunca değişmez olmaları doğrudan tespit edilmiştir. Ayrıca yazar, hâkimlerin hukuka itaati konusunda hukuk literatüründe var olan farklı tutumları da analiz etmiş ve hâkimin hukuka tabi olduğu tutumunun Anayasa'ya uyması durumunda daha makul olduğu sonucuna varmıştır. Yazara göre hakim, yalnızca Anayasa ve uluslararası anlaşmalarla tutarlı olan ve mahkeme tarafından hukuken yeterli görülen kanunlara atıfta bulunmalı ve bunları uygulamalıdır. Bu durumda hâkimin yasama organı tarafından kabul edilen kanuna uysa dahi ona bağımlı olmadığının teyit edilmesi mümkündür.

**Anahtar Kelimeler:** hâkimin statüsü, hâkimin yetkisi, hâkimin dokunulmazlığı, hâkimin bağımsızlığı, hâkimin kişisel güvenliği, hâkimin mali güvenliği, hâkimin sosyal güvenliği.

## "İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin 126-cı kitabı çapdan çıxıb

Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin fevral-mart aylarını əhatə edir. Fevral ayının mühüm hadisələrindən biri Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyaya səfəri olub. Dövlətimizin başçısı konfrans çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı Qarabağ ermənilərinin təhlükəsizliyi ilə bağlı Azərbaycanın mövqeyini bir daha bəyan edib: "Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq".

Prezident İlham Əliyev konfrans çərçivəsində, həmçinin "Boru arzuları: gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada iştirak edib, Münxendə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmidt, İsrail Dövlətinin müdafiə naziri Yoav Qalant, ATƏT-in Baş katibi xanım Helqa Maria Şmid və başqaları ilə görüşlər keçirib, xarici və Azərbaycan telekanallarına müsahibələr verib. Bütün bu görüşlər haqqında informasiyalarla və müsahibələrin mətnləri ilə yeni kitabda tanış olmaq mümkündür.

Yeni kitaba Prezident İlham Əliyevin digər mühüm tədbirdə - Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Ankarada "Fəlakət – fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda keçirilən Fövqəladə Zirvə görüşündəki çıxışının mətni daxil edilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşündə Azərbaycan və Türkiyənin hər zaman bir-birinin yanında olduğu vurğulanıb, Vətən müharibəsində qardaş ölkənin siyasi və mənəvi dəstəyi minnətdarlıq hissi ilə xatırlanıb, hazırda münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyi qeyd edilib. Dövlətimizin başçısı son 20 ildə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyənin böyük inkişaf yolu keçdiyini də diqqətə çatdırıb, dağıdıcı zəlzələnin nəticələrinin uğurla aradan qaldırılacağına əminliyini bildirib.

Sitat: Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaqdır.

Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır.

Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir. 2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır.

Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçib, dünyada söz sahibi olub, güc mərkəzinə çevrilib. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər.

Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir.

Çoxcildliyin 126-cı kitabına Prezident İlham Əliyevin mart ayında Almaniyaya işgüzar səfərinə aid materiallar, o cümlədən Prezident Frank-Valter Ştaynmayer, Kansler Olaf Şolts ilə təkbətək və geniş tərkibdə görüşləri haqqında informasiyalar, Olaf Şolts ilə birlikdə mətbuata bəyanatlarının mətnləri daxil edilib.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radevlə videokonfrans formatında görüşünə, Albaniya Prezidenti Bayram Beqay ilə görüşünə dair materiallarla da tanış ola bilər.

Yeni nəşrdə Prezident İlham Əliyevin "Qoşulmama Hərəkatının "COVID-19"a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə çıxışının mətni, Azərbaycana səfər etmiş İslam İnkişaf Bankı qrupunun Prezidenti Məhəmməd Süleyman Əl-Casir, Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes, Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru Rafael Mariano Qrossi, BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anxel Moratinos ilə görüşləri, müxtəlif ölkələrin yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi haqqında informasiyalar verilib.

Prezident İlham Əliyev martın 18-də Tərtər rayonuna səfər edib. Səfər çərçivəsində Suqovuşan qəsəbəsində yaşayış məhəlləsinin təməlini qoyub, qəsəbə tam orta məktəbində yaradılan şəraitlə, Suqovuşan su anbarında aparılan əsaslı təmir işlərinin gedişi, turizm infrastruktur obyektlərinin tikintisi ilə tanış olub. Bütün bunlar haqqında informasiyalar da yeni kitabda yer alıb.

"Azərnəşr" tərəfindən buraxılan 126-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# "Beynəlxalq tibb hüququ haqqında ümumi müddəalar"

Hüquq üzrə fəlsəfə doktoru, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının dosenti Fatimə Hüseynovanın "Beynəlxalq tibb hüququ haqqında ümumi müddəalar" adlı monoqrafiyası kitab şəklində çap olunmuşdur. Müasir dövrdə respublikamızın beynəlxalq səhiyyə və tibb əlaqələrinə inteqrasiyası şəraitində belə bir monoqrafiyanın yazılması və nəşr edilməsi olduqca əhəmiyyətli hadisədir.

352 sıhifədən ibarət olan kitab 4 fəsildən ibarətdir.

Birinci fəsil Beynəlxalq tibb hüququnun anlayışı, predmeti, sistemi və hüquqi statusuna həsr olunmuşdur. Müəllif bu fəsildə Beynəlxalq tibb hüququnun təşəkkülü və formalaşması, yaranma əlamətləri, metodu, funksiyaları barədə geniş məlumat vermiş, Beynəlxalq tibb hüququnun elm və tədris fənni kimi öyrənilməsi, bu hüququn elm sahəsi kimi biliklər və sistemləşdirilmiş informasiya verməsi vəzifəsinin tibb münasibətlərinin qloballaşması dövründə vacib əhəmiyyət kəsb etməsini diqqətə çatdırmışdır.

İkinci fəsil oxucunu "Beynəlxalq tibb hüququnun subyektləri" barədə lazımi biliklərlə təmin edir. Bu fəsildə müəllif Beynəlxalq tibb hüququnun subyektləri institutu, anlayışı, xarakteristikası, növləri, beynəlxalq təşkilatların tibb sferasında fəaliyyətinin hüquqi tənzimlənməsi, beynəlxalq tibb təşkilatları və onların təsnifatını nəzərdən keçirmişdir.

Üçüncü fəsil "Beynəlxalq tibb hüququnun mənbələri"adlanır. Bu fəsildə müəllif beynəlxalq tibb hüququnun mənbə növləri, onların xarakteristikası, beynəlxalq hökumət və tibb təşkilatlarının, eləcə də milli qanunvericilik aktlarının tibb münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsindəki rolunu şərh etmişdir.

Dördüncü fəsil "Beynəlxalq tibb hüququnun prinsipləri"nə həsr olunmuşdur. Bu fəsildə beynəlxalq tibb hüququnda tətbiq edilən prinsiplərin sistemi, tibb hüququnda tətbiqi məsələləri öz əksini tapmışdır.

Müəllif Azərbaycan Respublikasının beynəlxalq hüquq doktrinasında, ilk dəfə olaraq, yazılmış bu monoqrafiyada beynəlxalq tibb hüququ haqqında ümumi müddəalarla bağlı məsələlərin əhatəli şəkildə işıqlandırılmasına təşəbbüs göstərmişdir. Burada beynəlxalq tibb hüququna, onun institutlarına anlayış verilmiş, ayrı-ayrı tibbi fəaliyyət istiqamətləri üzrə beynəlxalq münasibətlərin və əlaqələrin hüquqi tənzimlənməsinin xüsusiyyətləri şərh edilmişdir.

Səhiyyə və tibb fəaliyyəti sahəsində ən yeni qanunvericilik aktları və çoxsaylı elmi mənbələr əsasında hazırlanmış bu fundamental əsər Azərbaycanda beynəlxalq tibb hüquq elmində mövcud olan boşluqların doldurulmasına, hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir. Müasir dövrdə səhiyyə, təbabət və tibb sferasında baş verən qlobal inteqrasiya prosesləri fonunda əhalinin bu istiqamətdə maariflənməsi, cəmiyyətdə hüquqi düşüncə və tibb mədəniyyətinin formalaşması baxımından, monoqrafiya mühüm əhəmiyyətə malikdir.

Monoqrafiyanın "Ön söz"ünün müəllifləri Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru Zaur Əliyev və Hüquq və İnsan Haqları İnstitutu İdarə Heyətinin sədri, hüquq üzrə fəlsəfə doktoru Məhəmməd Quluzadədir.

Əsərdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, tibb hüquq elmi sahəsində çalışan mütəxəssislər, praktik işçilər və digər şəxslər faydalana bilərlər.

*RƏSMİ SƏNƏDLƏR*

## "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 606; 2002, № 4 (I kitab), maddə 165; 2007, № 7, maddə 709, № 10, maddə 938; 2008, № 6, maddə 460; 2012, № 7, maddə 648; 2017, № 6, maddə 1017; 2018, № 2, maddə 144; 2019, № 1, maddələr 20, 43, № 11, maddə 1689; 2020, № 7, maddə 823) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

**2.** Preambulada "istehsalat və məişət tullantılarının (bundan sonra - tullantıların)" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**3.** 3.2-ci maddədə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**4.** 12-6-cı maddənin adında və birinci hissəsində, 13-cü maddənin üçüncü hissəsində "istehsalat və məişət tullantılarının, habelə" sözləri "tullantıların, o cümlədən" sözləri ilə əvəz edilsin.

**5.** Aşağıdakı məzmunda II-I fəsil əlavə edilsin:

**"II-I fəsil**
**NƏQLİYYAT VASİTƏLƏRİNİN UTİLİZASİYASI**

**Maddə 14-1. Nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı ümumi müddəalar**

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 (dörd) il keçən minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) gömrük rəsmiləşdirilməsi, həmçinin nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi zamanı nəqliyyat vasitələrinin utilizasiyası fonduna utilizasiya haqqı ödənilir.

Minik avtomobillərinin gömrük ərazisinə gətirilməsinə görə utilizasiya haqqının bəyannaməçilər tərəfindən ödənilməsi gömrük orqanları tərəfindən təmin edilir.

Dövlət texniki baxışı üzrə utilizasiya haqqı nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VI hissəsində nəzərdə tutulan müddətlərdə texniki baxışa faktiki təqdim olunan vaxt ödənilir.

Utilizasiya haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitəsinin istehsal-buraxılış ili üzrə müəyyən edilir.

Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini bu Qanunun 14-4-cü və 14-5-ci maddələrində nəzərdə tutulan reyestrdə qeydiyyata alınmış şəxslər (bundan sonra - utilizatorlar) və digər şəxslər həyata keçirə bilər.

Utilizasiyaya verilmiş nəqliyyat vasitələri ilə bağlı bu Qanunun 14-7-ci və 14-8-ci maddələrinin tələbləri nəzərə alınmaqla, utilizatorlar tərəfindən özündə güzəştin məbləğini və birdəfəlik ödənişin həcmini əks etdirən təsdiqedici sənəd verilir.

Utilizatorlar tərəfindən nəqliyyat vasitələrinin utilizasiyaya qəbulu növbəlilik qaydasında və ödənişsiz həyata keçirilir.

Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri təsdiqedici sənəd təhvil verilməklə

satın alındıqda nəqliyyat vasitələrinin satıcıları tərəfindən güzəşt tətbiq edilir. Güzəştin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Qeyd:**

Bu fəslin məqsədləri üçün nəqliyyat vasitələri dedikdə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin II və III hissələrində nəzərdə tutulan nəqliyyat vasitələri başa düşülür. Digər nəqliyyat vasitələrinə bu fəslin müddəaları şamil edilmir və onlar mülki qanunvericiliyə uyğun olaraq bağlanmış müqavilə əsasında utilizasiyaya qəbul edilir.

Bu fəslin məqsədləri üçün nəqliyyat vasitələrinin satıcıları dedikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi kimi uçota alınmaqla nəqliyyat vasitələrinin satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki və ya hüquqi şəxslər başa düşülür.

**Maddə 14-2. Nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator**

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator (bundan sonra - operator) müəyyən edilir. Operator aşağıdakı funksiyaların icrasını təşkil və təmin edir:

nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitlərinin idarə olunması;

utilizatorların reyestrinin (bundan sonra - reyestr) aparılması, saxlanılması və ona nəzarət;

bu Qanunun 14-9-cu və 14-10-cu maddələrində nəzərdə tutulan yazılı məlumatların alınması;

bu Qanunun 14-9-cu maddəsinin üçüncü hissəsinə uyğun olaraq təsdiqedici sənədlərin uçotunun aparılması.

Operator nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyəti ilə məşğul ola bilməz.

Operator ona təqdim olunmuş məlumatları ümumiləşdirərək hər növbəti təqvim ili fevralın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı məlumat verir.

**Maddə 14-3. Nəqliyyat vasitələrinin utilizasiyası fondunun yaradılması və fəaliyyəti**

Bu Qanunun 14-8-ci maddəsinə əsasən, güzəştin və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiya fondu yaradılır.

Nəqliyyat vasitələrinin utilizasiyası fondu məqsədli büdcə fondudur və aşağıdakı müstəqil mədaxil mənbələri hesabına maliyyələşir:

utilizasiyası haqqı;

kreditlər və qrantlar;

hüquqi və fiziki şəxslərin könüllü ianələri;

beynəlxalq təşkilatların və digər donorların ayırmaları;

qanunla qadağan olunmayan digər mənbələr.

Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 14-4. Reyestrdə qeydiyyata alınmaq üçün tələblər**

Reyestrdə qeydiyyata alınmaq üçün ərizəçidən (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya hüquqi şəxs) aşağıdakılar tələb olunur:

vergi, məcburi dövlət sosial sığorta haqqı, icbari tibbi sığorta haqqı və işsizlikdən sığorta haqqı üzrə borcu olmamaq;

nəqliyyat vasitələrinin qəbulunu, saxlanılmasını və utilizasiyasını həyata keçirmək üçün mülkiyyətində, yaxud sahibliyində və ya istifadəsində müvafiq ərazilərə malik olmaq;

nəqliyyat vasitələrinin, o cümlədən utilizasiya nəticəsində əldə edilən materialların və hissələrin saxlanılması üçün onların zədələnməməsini təmin edən, üzəri dağılmayan və texniki mayeləri sızdırmayan material ilə örtülən (asfalt, beton, gil-beton, polimer beton) sahələrə malik olmaq;

təhlükəli tullantıların saxlanılması üçün normativ hüquqi aktlarla nəzərdə tutulan tələblərə cavab verən sahələrə malik olmaq;

nəqliyyat vasitələrinin, onların hissələrinin (partlayıcı qabiliyyətli, o cümlədən təhlükəli tullantılara xas olan digər xüsusiyyətlərə malik hissələrin) təhlükəsiz qaydada sökülməsi üçün maddi-texniki bazaya malik olmaq;

nəqliyyat vasitələrinin təkrar istifadəyə yararlı hissələrinin yoxlanılması üçün maddi-texniki bazaya malik olmaq.

**Maddə 14-5. Reyestrin aparılması**

Reyestrin aparılması, saxlanılması və ona nəzarət operator tərəfindən həyata keçirilir.

Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

utilizatorlar barədə məlumatlar;

utilizatorların qeydiyyatı və ləğvi barədə məlumatlar;

qeydiyyata alınma və dəyişikliklər üçün təqdim edilmiş sənədlər, qeydiyyatın ləğvi üçün əsaslar və müvafiq faktı təsdiq edən sənədlər.

Reyestrə utilizatorlar barədə aşağıdakı məlumatlar daxil edilir:

hüquqi şəxs olan utilizatorun tam adı, təşkilati-hüquqi forması, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları;

hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan utilizatorun soyadı, adı, atasının adı, ünvanı, əlaqə məlumatları;

vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

utilizatorun səlahiyyətli nümayəndəsinin (təmsilçisinin) soyadı, adı, atasının adı, ünvanı, əlaqə məlumatları.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya hüquqi şəxs reyestrdə qeydiyyata alınmaq üçün operatora ərizə ilə müraciət edir.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyat şəhadətnaməsinin surəti;

hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti;

səlahiyyətli nümayəndənin (təmsilçinin) səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surəti;

"Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və müsbət dövlət ekoloji ekspertiza rəyi;

texniki-iqtisadi əsaslandırma sənədi;

bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərə cavab verməsini təsdiq edən sənədlərin surətləri.

Ərizə və ona əlavə olunan sənədlər ərizəçi tərəfindən birbaşa və ya səlahiyyətli nümayəndə tərəfindən təqdim olunmalıdır. Ərizəyə daxil olduğu gündən 10 (on) iş günü müddətində baxılır.

Reyestrdə qeydiyyata alınmaq üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

Sənədlərdə və ya məlumatlarda çatışmazlıq və ya uyğunsuzluq olduqda ərizənin qəbul edildiyi gündən etibarən 3 (üç) iş günü müddətində bu barədə ərizəçiyə yazılı məlumat verilir. Bütün çatışmazlıq və uyğunsuzluqlar ərizəçiyə eyni anda bildirilməlidir.

Ərizəçi həmin məlumatı aldığı gündən 10 (on) iş günü müddətində çatışmazlıq və ya uyğunsuzluqları aradan qaldırmalıdır. Bu zaman ərizəyə baxılması ilə bağlı müddətin axımı dayandırılır. Çatışmazlıq və ya uyğunsuzluqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

Ərizəçi sənədlərdə və ya məlumatlarda aşkar olunmuş çatışmazlıq və ya uyğunsuzluqları vaxtında aradan qaldırmadıqda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada ərizəçiyə göndərilir. Çatışmazlıq və uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra ərizəçinin reyestrdə qeydiyyata alınmaq üçün yenidən müraciət etmək hüququ vardır.

Sənədlərdə və məlumatlarda çatışmazlıq və ya uyğunsuzluq olmadıqda ərizəçinin reyestrdə qeydiyyata alınması və ya ərizəçi reyestrdə qeydiyyata alınmaq üçün bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərə cavab vermədiyi hallarda onun reyestrdə qeydiyyata alınmasından imtina haqqında əsaslandırılmış qərar qəbul edilir və 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada ərizəçiyə göndərilir.

Ərizəçinin reyestrdə qeydiyyata alınması barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində ona dair məlumatlar reyestrə daxil edilərək bu barədə ərizəçiyə sifarişli poçt bildirişi ilə və ya elektron qaydada məlumat verilir.

Utilizatorlara vahid və təkrarolunmaz 11 (on bir) rəqəmdən ibarət qeydiyyat nömrəsi verilir və reyestrdə əks olunur.

Aşağıdakı hallarda utilizatorların qeydiyyatı ləğv edilir və onlar reyestrdən çıxarılır:

utilizatorun bu barədə ərizəsi olduqda;

hüquqi şəxs olan utilizator ləğv edildikdə;

fiziki şəxs olan utilizator öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə;

bu Qanunun 14-4-cü və 14-6-cı maddələrində nəzərdə tutulan tələblərin və vəzifələrin yerinə yetirilməməsi ilə bağlı bir təqvim ili müddətində 3 (üç) dəfədən artıq qanunla müəyyən olunan məsuliyyətə cəlb edilərək barəsində qanuni qüvvəyə minmiş inzibati tənbeh vermə haqqında qərar olduqda.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu maddənin on dördüncü hissəsinin beşinci abzasında nəzərdə tutulan inzibati tənbeh vermə haqqında qərarlar qüvvəyə mindiyi gündən 5 (beş) iş günü müddətində onların surətini operatora göndərir.

Utilizatorun qeydiyyatı ləğv edildikdə onun qeydiyyat nömrəsi silinmir, başqasına verilmir və bu barədə reyestrdə müvafiq qeyd aparılır.

Reyestrdə qeydiyyata alınmış utilizatorlar bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulan məlumatlarda dəyişiklik baş verdiyi gündən 5 (beş) iş günü müddətində həmin dəyişikliyin reyestrə daxil edilməsi məqsədilə operatora məlumat verməlidirlər.

Dəyişikliklərin qeydiyyatı bu maddənin dördüncü hissəsində, beşinci hissəsinin ikinci – dördüncü abzaslarında və altıncı – on ikinci hissələrində nəzərdə tutulan qaydada həyata keçirilir.

Reyestrdə dəyişiklik edilərkən qeydiyyat nömrəsi dəyişilmir.

Utilizatorların reyestrdə qeydiyyatı və reyestrə daxil edilmiş məlumatlarda dəyişiklik edilməsi ödənişsiz həyata keçirilir.

Reyestr kağız (reyestr kitabı) və elektron formada tərtib edilir. Kağız və elektron daşıyıcılardakı qeydlər arasında uyğunsuzluq olduqda, kağız daşıyıcılar üzərində olan qeydlərə üstünlük verilir.

Reyestr kitabı qaytanlanır, səlahiyyətli vəzifəli şəxs tərəfindən imzalanır və möhürlənir.

**Maddə 14-6. Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən şəxslərin vəzifələri**

Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən şəxslərin bu fəaliyyətlə bağlı aşağıdakı vəzifələri vardır:

utilizasiya prosesində ətraf mühitə zərərli maddələrin atılmasının qarşısının alınması üçün zəruri tədbirlər görmək;

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda tullantıların utilizasiyası sahəsində lisenziya və ya icazə tələb olunan müvafiq fəaliyyət növlərini və ya hərəkətləri müvafiq lisenziya və ya icazə alındıqdan sonra həyata keçirmək;

yanacaq çənini, partlayıcı xüsusiyyətə malik detalları (xüsusilə hava yastıqlarını), o cümlədən təhlükəli tullantılara xas olan digər xüsusiyyətlərə malik hissələri təhlükəsiz qaydada sökmək;

yanacaq, mühərrik və transmissiya yağı, hidravlik ötürücü sistemlərin mayeləri, soyuducu və əyləc mayeləri, kondisioner sistemindəki mayelər və digərləri daxil olmaqla mayeləri ayrı-ayrı hermetik qablara boşaltmaq;

təhlükəli tullantıları çeşidləyərək ayrı toplamaq və onlarla bağlı bu Qanunun tələblərinə uyğun tədbirləri həyata keçirmək;

toplanmış tullantıları onların təkrar emalını və ya zərərsizləşdirilməsini həyata keçirən ixtisaslaşmış şəxslərə satmaq və ya təhvil vermək;

birbaşa utilizasiya proseslərinə yalnız peşə hazırlığına malik olan işçi heyətini cəlb etmək;

birbaşa utilizasiya proseslərinə cəlb edilən işçi heyətinin əməyin mühafizəsi üzrə təlimatlandırılmasını və biliklərinin yoxlanılmasını təmin etmək.

Bu maddənin birinci hissəsində nəzərdə tutulan vəzifələrin və bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərin yerinə yetirilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 14-7. Nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi**

Nəqliyyat vasitələri utilizasiyaya aşağıdakılar tərəfindən verilir:

nəqliyyat vasitələrinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs;

aşağıdakı nəqliyyat vasitələri üzrə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin II və III hissələrinə uyğun olaraq onların dövlət qeydiyyatını həyata keçirən aidiyyəti orqanlar (bundan sonra – dövlət qeydiyyatı orqanı):

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada sahibsiz hesab edilən;

istismara yararsız vəziyyətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mühafizə olunan duracağında saxlanılan, əgər nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs yazılı şəkildə imtina edibsə.

Nəqliyyat vasitələri utilizasiyaya verilməzdən əvvəl "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin IX-I və IX-II hissələri ilə müəyyən edilən qaydada dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır.

Nəqliyyat vasitələri utilizasiyaya verildikdə utilizatorlar tərəfindən aşağıdakı sənədlər tələb edilir:

nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizə;

nəqliyyat vasitəsini utilizasiyaya mülkiyyətçi adından digər şəxs verdikdə, nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu təsdiq edən etibarnamə;

nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması barədə aidiyyəti dövlət qeydiyyat orqanının yazılı məlumatı;

fiziki şəxsin şəxsiyyətini təsdiq edən, hüquqi şəxsin dövlət qeydiyyatını təsdiq edən sənədin surəti.

Ərizəyə baxılması və sənədlərdə hər hansı çatışmazlıq və ya uyğunsuzluq olduqda onun baxılmamış saxlanılması bu Qanunun 14-5-ci maddəsinin altıncı – onuncu hissələrində müəyyən edilmiş qaydada həyata keçirilir.

Göstərilən sənədlərdə hər hansı çatışmazlıq və ya uyğunsuzluq olmadıqda utilizasiyaya verilən nəqliyyat vasitəsinin təhvil alınması barədə akt (bundan sonra - akt) tərtib olunur və aktda aşağıdakılar göstərilir:

nəqliyyat vasitəsinin ümumi texniki vəziyyəti və komplektliyi barədə məlumat;

nəqliyyat vasitəsinin eyniləşdirmə məlumatları;

nəqliyyat vasitəsinin mövcud olmayan hissələri barədə məlumatlar;

güzəşt məbləği və birdəfəlik ödənişin həcmi barədə məlumat.

Akt ciddi hesabat blankıdır və 3 (üç) nüsxədə tərtib edilir. Aktın hər bir nüsxəsinə sayı beşdən az olmamaq şərtilə utilizasiyaya verilən nəqliyyat vasitəsinin fotoşəkilləri (ön, arxa, hər iki yandan və içəridən) əlavə edilir.

Nəqliyyat vasitəsi akt əsasında təhvil alındıqdan sonra 2 (iki) iş günü müddətində utilizator tərəfindən bu Qanunun 14-8-ci maddəsinin tələbləri nəzərə alınmaqla utilizasiyaya verilmə barədə təsdiqedici sənəd verilir. Təsdiqedici sənəd ciddi hesabat blankıdır və 3 (üç) nüsxədə tərtib edilir.

Aktın və təsdiqedici sənədin bir nüsxəsi utilizatorda, bir nüsxəsi nəqliyyat vasitəsini utilizasiyaya verən şəxsdə saxlanılır, bir nüsxəsi isə utilizator tərəfindən 3 (üç) iş günü müddətində operatora göndərilir.

Nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizənin, nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın və utilizasiyaya verilmə barədə təsdiqedici sənədin formaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Təsdiqedici sənədin, güzəştin və birdəfəlik ödənişin tətbiqi ilə bağlı müddəalar istisna olmaqla, bu maddənin tələbləri qoşqu və yarımqoşqulara, habelə nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxslərə də şamil olunur.

**Maddə 14-8. Təsdiqedici sənədin, güzəştin və birdəfəlik ödənişin tətbiqinin xüsusiyyətləri**

Utilizasiyaya verilən hər nəqliyyat vasitəsinə görə utilizatorlar tərəfindən yalnız bir təsdiqedici sənəd verilir və güzəştin tətbiqi satın alınacaq yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinin kateqoriyası üzrə məhdudlaşdırılmır.

Təsdiqedici sənəd verildiyi gündən 3 (üç) il müddətində qüvvədə olmaqla, yalnız bir dəfə istifadə üçün nəzərdə tutulur. Təsdiqedici sənəd adsızdır və başqa şəxs tərəfindən də istifadə edilə bilər.

Utilizasiyaya verilən müxtəlif nəqliyyat vasitələrinə görə verilmiş, qüvvədə olan və istifadə edilməmiş təsdiqedici sənədlər əsasında əldə edilən güzəşt məbləğlərinin cəmlənməklə istifadəsinə yol verilir.

Nəqliyyat vasitəsinin utilizasiyaya verilməsi barədə təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinə güzəştin tətbiqindən nəqliyyat vasitələrinin satıcısı tərəfindən imtina edilə bilməz.

Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələrinin satışı təsdiqedici sənədlər əsasında güzəşt tətbiq edilməklə həyata keçirildikdə nəqliyyat vasitələrinin satıcıları 3 (üç) iş günü müddətində alqı-satqını rəsmiləşdirən sənədlərin və təsdiqedici sənədlərin surətlərini, habelə onların tətbiq edildiyi nəqliyyat vasitələri barədə məlumatları (ban, şassi, mühərrik nömrəsi) operatora göndərirlər.

Operator nəqliyyat vasitələrinin satıcıları tərəfindən bu maddənin beşinci hissəsində qeyd olunan sənədlər təqdim edildiyi gündən 30 (otuz) iş günü müddətində müvafiq güzəşt məbləğinin nəqliyyat vasitələrinin utilizasiyası fondundan nəqliyyat vasitələrinin satıcılarının hesabına köçürülməsini təmin edir. Tətbiq edilən güzəşt məbləği satın alınan nəqliyyat vasitəsinin müqavilə üzrə satış dəyərindən çox olduqda güzəşt məbləğinin artıq olan hissəsi nəqliyyat vasitələrinin satıcılarına ödənilmir.

Təsdiqedici sənədə malik şəxs öz seçimi əsasında yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinin satın alınması üçün güzəştin əvəzinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən daha az həcmdə birdəfəlik ödəniş ala bilər.

Aşağıdakı nəqliyyat vasitələri üzrə birdəfəlik ödəniş məbləğləri dövlət büdcəsinə köçürülür:

– dövlət adından yaradılan publik hüquqi şəxslərə, dövlət idarə, müəssisə və təşkilatlarına məxsus olan;

– bu Qanunun 14-7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına uyğun olaraq aidiyyəti dövlət qeydiyyat orqanı tərəfindən utilizasiyaya verilən.

Operator müvafiq təsdiqedici sənəd ona təhvil verildiyi gündən 30 (otuz) iş günü müddətində birdəfəlik ödəniş məbləğinin nəqliyyat vasitələrinin utilizasiyası fondundan aidiyyəti üzrə təsdiqedici sənədi təqdim edən şəxsin hesabına və ya dövlət büdcəsinə köçürülməsini təmin edir və ödənişin həyata keçirilməsi barədə sənədi təsdiqedici sənədi təqdim edən şəxsə verir.

**Maddə 14-9. Təsdiqedici sənədlər üzrə məlumatların verilməsi**

Utilizatorlar verdikləri təsdiqedici sənədlərlə bağlı hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.

Nəqliyyat vasitələrinin satıcıları təsdiqedici sənədlərin uçotunu aparırlar və bununla bağlı hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.

Operator təsdiqedici sənədlərin uçotunun aparılmasını təmin edir.

**Maddə 14-10. Utilizasiya nəticəsində əldə edilmiş yararlı material və əşyalar**

Utilizatorlar tərəfindən utilizasiya edilmiş nəqliyyat vasitələrindən əldə olunan yararlı materiallar və əşyalar mülki qanunvericiliyə uyğun olaraq bağlanılmış müqavilə əsasında ehtiyat hissələrinin emalı və satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə satılır.

Utilizatorlar bağlanılmış müvafiq müqavilənin və təhvil-təslim sənədlərinin surətlərini əlavə etməklə bu barədə hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.”.

**6.** Aşağıdakı məzmunda 25-ci maddə əlavə edilsin:

**“Maddə 25. Keçid müddəa**

Bu Qanunun 14-1-ci maddəsinin birinci-dördüncü hissələri və 14-3-cü maddəsi 2024-cü il fevralın 1-dən, II-I fəslinin digər müddəaları 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyun 2023-cü il
№ 928-VIQD

**"Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI
NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 7.5.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 14 yanvar 2022-ci il
№ 17

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 yanvar tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

**Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili**
**Q A Y D A L A R I**

**1. Ümumi müddəalar**

**1.1.** "Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları" (bundan sonra – Qaydalar) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 7.5.1.1-ci yarımbəndinə əsasən hazırlanmışdır və yol-nəqliyyat hadisələri ilə bağlı operativ, əlaqələndirilmiş və keyfiyyətli xilasetmə tədbirlərinin görülməsi üçün bu növ hadisələrə dair çevik reaksiyavermə və ümumi xilasetmə fəaliyyətinin təşkili prosedurlarını müəyyən edir.

**1.2.** Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.2.1.** yol-nəqliyyat hadisəsi (bundan sonra – YNH) - yollarda, küçələrdə, meydanlarda, dəmiryol keçidlərində nəqliyyat vasitələrinin hərəkəti prosesində baş verən və insanların ölməsinə və ya müxtəlif dərəcəli bədən xəsarətlərinin almasına, heyvanların və ya

hərəkətsiz maneələrin vurulmasına, nəqliyyat vasitələrinin, yolların, qurğuların zədələnməsinə və ya başqa maddi zərər dəyməsinə səbəb olan hadisədir;

**1.2.2.** təcili reaksiyavermə xidmətləri - Azərbaycan Respublikasının avtomobil yollarında YNH zamanı təxirəsalınmaz tədbirlər həyata keçirən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qəza-xilasetmə bölmələri, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin təcili tibbi yardım müəssisələri və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət yol polisi qurumlarıdır;

**1.2.3.** təcili və təxirəsalınmaz tibbi yardım stansiyası (bölməsi, məntəqəsi) (bundan sonra – TTTYS) - əsas fəaliyyəti hadisə yerində, həm də marşrut boyu təcili və təxirəsalınmaz tibbi yardım göstərilməsi olan "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tibbi müəssisəsidir;

**1.2.4.** qəza-xilasetmə işləri - YNH zamanı insanların xilas edilməsi, zərərçəkmiş şəxslərə təcili tibbi və psixoloji yardım göstərilməsi, həmin hadisələr üçün səciyyəvi olan amillərin təsirinin məhdudlaşdırılması və qarşısının alınması istiqamətində fəaliyyətdir;

**1.2.5.** zərərçəkmiş şəxs - bu Qaydalara münasibətdə YNH nəticəsində ölmüş (həlak olmuş) və ya sağlamlığına zərər dəymiş (yaralanmış) şəxsdir.

## 2. Yol-nəqliyyat hadisəsi haqqında daxil olmuş məlumatlara təcili reaksiyavermə qaydası

**2.1.** YNH-də zərərçəkmiş şəxslərə vaxtında kompleks yardımın göstərilməsi hadisə haqqında məlumat daxil olduğu andan başlayır. YNH-də zərərçəkmiş şəxslərin, YNH-nin şahidlərinin, habelə "101", "102", "103", "112" və "113" çağrı mərkəzlərinin (bundan sonra – çağrı mərkəzi) növbətçi operatorunun YNH barədə verdiyi məlumatın təcili reaksiyavermə xidmətləri tərəfindən vaxtında və operativ qəbulu təmin edilir.

**2.2.** YNH zamanı çağrı mərkəzinə məlumat daxil olduqda, növbətçi operator məlumatı bu Qaydaların 1 və 2 nömrəli əlavələrinə müvafiq olaraq "Yol-nəqliyyat hadisəsi zamanı təcili reaksiyavermə xidmətlərinin xəbərdarlıq sxemi"nə (bundan sonra - Sxem) və növbətçi operatorun hərəkət alqoritminə uyğun xidməti ərazisində YNH baş verdiyi təcili reaksiyavermə xidmətlərinin ən yaxın bölməsinə ötürür.

**2.3.** YNH barədə ilk olaraq məlumat alan təcili reaksiyavermə xidməti çağrı mərkəzindən istifadə etməklə məlumatı aldığı andan dərhal digər təcili reaksiyavermə xidmətlərinə ötürür. Çağrı mərkəzinin növbətçi operatorunun məlumatı əsasında təcili reaksiyavermə xidməti dərhal YNH yerinə çıxır.

**2.4.** YNH zərərçəkmiş şəxslər və digər nəticələr barədə məlumat dəyişdikdə və ya ona əlavələr edildikdə, bu məlumatları ilk olaraq alan təcili reaksiyavermə xidməti dərhal çağrı mərkəzini məlumatlandırır.

**2.5.** YNH barədə bütün məlumatların qeydiyyatı bu Qaydaların 3 nömrəli əlavəsinə uyğun olaraq təcili reaksiyavermə xidmətlərinin "Yol-nəqliyyat hadisələri barədə informasiyanın qeydiyyatı jurnalı"nda qeyd olunur.

**2.6.** Təcili reaksiyavermə xidmətlərindən hər hansı biri baş vermiş YNH-yə öz funksional təyinatına uyğun reaksiyavermə ehtiyacına dair məlumat aldıqdan sonra həmin xidmət tərəfindən hər hansı bir tədbirin görülməsi mümkün olmadıqda və ya bu tədbirləri görməyə ehtiyac olmadıqda, digər məsul xidmətlərə bununla bağlı qəbul edilmiş qərar barədə dərhal məlumat verir.

**2.7.** Məlumatın ötürülməsinin daha səmərəli təşkili məqsədilə təcili reaksiyavermə xidmətləri tərəfindən Sxem əsasında öz operator xidmətlərinin, mobil briqadalarının və onların məsul şəxslərinin telefon nömrələrinin göstərildiyi birgə xəbərdarlıq sxemləri işlənilib hazırlanır.

**3. YNH-də zərərçəkmiş şəxslərə vaxtında kompleks yardımın göstərilməsi qaydası**

**3.1.** YNH-də zərərçəkmiş şəxslərə vaxtında kompleks yardımın təşkilinin əsas tədbirləri aşağıdakılardır:

**3.1.1.** zərərçəkmiş şəxslərin nəqliyyat vasitələrindən və ya digər obyektlərdən operativ şəkildə çıxarılmasının təmin edilməsi;

**3.1.2.** YNH-də zərərçəkmiş şəxslərə təcili tibbi yardım göstərilməsi;

**3.1.3.** YNH-nin nəticələrinin aradan qaldırılması.

**3.2.** YNH yerində şəxslərin həyat və sağlamlığının qorunması məqsədilə xilasetmə hərəkətlərinin növbəliliyi təcili reaksiyavermə xidmətləri tərəfindən öz funksional təyinatlarına uyğun olaraq müstəqil şəkildə müəyyən edilir və qarşılıqlı qaydada əlaqələndirilir. YNH yerinə ilk olaraq gəlmiş təcili reaksiyavermə xidmətinin nümayəndələri mövcud vəziyyətin qiymətləndirilməsini həyata keçirir və hadisə yerindəki vəziyyət barədə ilkin məlumatları YNH-yə dair siqnalı birinci qəbul etmiş xidmətin növbətçi operatoruna ötürürlər. YNH yerinə gəlmə vaxtı hadisə yerində digər xidmətlərin də iştirakı göstərilməklə növbətçi hissəyə həmin hadisə haqqında məlumatın ötürüldüyü vaxt hesab edilir.

**3.3.** Zərərçəkmiş şəxslərin nəqliyyat vasitələrindən və ya digər obyektlərdən operativ şəkildə çıxarılması Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qəza-xilasetmə bölmələri tərəfindən təmin edilir.

**3.4.** YNH-də zərərçəkmiş şəxslərə göstərilən tibbi yardım aşağıdakıları əhatə edir:

**3.4.1.** TTTYS briqadaları tərəfindən YNH yerində göstərilən ilk tibbi yardım;

**3.4.2.** TTTYS briqadaları tərəfindən tibb müəssisəsinə aparılarkən yolda göstərilən tibbi yardım;

**3.4.3.** tibb müəssisələrində ixtisaslaşdırılmış tibbi yardım.

**3.5.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət yol polisi qurumları tərəfindən qəza-xilasetmə işləri yol-patrul xidməti çərçivəsində həyata keçirilir.

**3.6.** YNH-nin xarakterinə, zərərçəkmiş şəxslərin sayına, nəticələrin ağırlığına və insanların həyatı və sağlamlığı üçün təhlükə ilə əlaqəli olan digər şəraitə əsasən YNH yerinə ilk gələn təcili reaksiyavermə xidmətinin nümayəndəsi ehtiyac yarandıqda əlavə qüvvə və vasitələrin cəlb edilməsi barədə qərar qəbul edir. Qəbul edilmiş qərar barədə YNH haqqında informasiyanın ötürülməsinə məsul olan şəxs məlumatlandırılır və həmin şəxs əlavə qüvvə və vasitələrin cəlb edilməsi barədə qərar qəbul edildiyi andan 5 dəqiqədən gec olmayaraq bütün məsul xidmətləri məlumatlandırır.

**3.7.** Təcili reaksiyavermə xidmətinin əməkdaşlarının YNH yerindən çıxarılması və ya yönləndirilməsi barədə qərar hər bir təcili reaksiyavermə xidməti tərəfindən digər təcili reaksiyavermə xidmətlərinin növbətçi xidmətləri ilə razılaşdırılaraq qəbul edilir.

**3.8.** YNH yerində təcili reaksiyavermə xidmətləri arasında qarşılıqlı fəaliyyətin təşkili həmin təcili reaksiyavermə xidmətlərinin yuxarı vəzifəli şəxsləri tərəfindən birgə həyata keçirilir. YNH yerində aidiyyəti xidmətlərdən biri olmadıqda, həmin xidmətlə qarşılıqlı əlaqələr təcili reaksiyavermə xidmətlərinin növbətçi xidmətləri (hissələri) vasitəsilə həyata keçirilir. YNH yerində aidiyyəti xidmətlərdən birinin olmaması vəziyyətin ağırlaşmasına, zərərverici amillərin yaranmasına səbəb ola bildikdə, təxirəsalınmaz tədbirlərin görülməsi barədə qərar YNH yerində olan xidmətlər tərəfindən iştirak etməyən xidmətin növbətçi hissəsi ilə birgə qəbul edilir.

**3.9.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət yol polisinin naryadları YNH yerində təhlükəsizliyi və YNH yerinin yanından nəqliyyat vasitələrinin və hərəkətin digər iştirakçılarının ötüb keçməsini təmin edirlər. Naryadlar gələnə qədər ehtiyac yarandıqda, YNH yerinin yanından nəqliyyat vasitələrinin və hərəkətin digər iştirakçılarının ötüb keçməsi üçün YNH iştirakçıları "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin IV hissəsinin 3-cü bəndinə uyğun olaraq zəruri tədbirlər görürlər.

**3.10.** Təcili reaksiyavermə xidmətləri gələnədək hadisə yerində olan zərərçəkmiş şəxslərin ixtisaslaşdırılmamış nəqliyyat vasitələri ilə hadisə yerindən təxliyə edilməsi zərurəti yarandıqda (zərərçəkmiş şəxslərin həyat üçün təhlükəli xəsarət aldığı hallarda), belə təxliyə YNH iştirakçısı tərəfindən "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin IV hissəsinin 2-ci bəndinə uyğun olaraq səmt üzrə gedən nəqliyyat vasitəsi, bu mümkün olmadıqda isə özünün nəqliyyat vasitəsi ilə yerinə yetirilir.

**3.11.** Hadisə yerinə ərazi tibb müəssisələrinin əlavə qüvvə və vasitələrinin cəlb edilməsinə ümumi rəhbərliyi TTTYS-nin briqadasının rəhbəri öz üzərinə götürür.

**3.12.** TTTYS briqadası və qəza-xilasetmə bölmələri ilə tibb müəssisələri arasında fəaliyyət birbaşa və əks-əlaqə prinsipləri üzrə həyata keçirilir. YNH zamanı bütün hallarda təcili və təxirəsalınmaz tibbi yardım göstərilməsi təmin edilir.

*"Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları"na*
**1 nömrəli əlavə**

**Yol-nəqliyyat hadisəsi zamanı təcili reaksiyavermə xidmətlərinin xəbərdarlıq SXEMİ**




*"Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları"na*
**2 nömrəli əlavə**

**Yol-nəqliyyat hadisəsi haqqında informasiyanın qəbulu zamanı çağrı mərkəzinin növbətçi operatorunun hərəkətlərinin ardıcıllığı (alqoritmi)**

**1.** YNH barədə çağrı mərkəzinə məlumat daxil olduqda, çağrı mərkəzinin növbətçi operatoru Sxem üzrə aşağıdakı məlumatları təcili reaksiyavermə xidmətlərinə ötürür:

**1.1.** ən yaxın yaşayış məntəqəsinə qədər olan məsafə və ya onun oriyentirləri göstərilməklə YNH-nin dəqiq yeri;

**1.2.** YNH-nin növü (toqquşma, aşma, dayanmış nəqliyyat vasitəsini vurma, maneəni vurma, piyadanı vurma, velosipedçini vurma, qoşqunu vurma, heyvanları vurma, sərnişinin yıxılması və s.);
**1.3.** YNH-nin dəqiq və ya təxmini vaxtı;
**1.4.** zərərçəkmiş şəxslərin (yaralı və həlak olanların) sayı;
**1.5.** xəsarətlərin xarakteri və növləri;
**1.6.** zərərçəkmiş şəxslər arasında uşaqların olması;
**1.7.** məlumatı verən şəxsin soyadı, adı və atasının adı (olduqda) əlaqə telefonu.
**2.** Çağrı mərkəzinin növbətçi operatoru informasiyanın mötəbərliyini əks-əlaqə metodu ilə yoxlayır.

*"Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları"na*
**3 nömrəli əlavə**

**Yol-nəqliyyat hadisələri barədə informasiyanın qeydiyyatı**
**J U R N A L I**

| Sıra №-si | İnformasiyanın daxil olması (tarix, vaxt) | İnformasiyanın daxilolma mənbəyi | YNH-nin yeri (istiqaməti, məsafə km-lə) | YNH-nin törədildiyi vaxt və onun xarakteri | Həlak olanların sayı | | Yaralıların sayı | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | cəmi | o cümlədən uşaqlar | cəmi | o cümlədən uşaqlar |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |

| YNH-də iştirak edən nəqliyyat vasitələrinin sayı (zərurət olduqda, onların texniki göstəriciləri) | Xidmət daxilində YNH haqqında informasiya kimə və nə vaxt ötürülmüşdür | Görülmüş tədbirlər, YNH-nin nəticələrinin aradan qaldırılması ilə bağlı yerinə yetirilmiş işlərin başa çatması vaxtı | Təcili reaksiyavermə xidmətlərinə informasiyanın ötürülməsi | | |
|---|---|---|---|---|---|
| | | | təcili reaksiya vermə xidmətinin adı | informasiyanın ötürüldüyü tarix və vaxt | YNH haqqında informasiyanı qəbul etmiş şəxs barədə məlumatlar |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

## MÜNDƏRİCAT


Növbədənkənar Azərbaycan Respublikasi Prezidenti seçkilərinin elan edilməsi haqqinda Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......... 3

*Samir Nuriyev.* Ümummilli Lider Heydər Əliyev – dövlətə və xalqa xidmətin ali meyarını yaratmış tarixi şəxsiyyət .......... 4

*Zaur Əliyev.* İxtisaslaşmış və peşəkar hüquqşünas kadrların yetişdirilməsi vacib amildir .. 13

Bakı Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Hüquq fakültəsinin 95 illiyinə həsr olunmuş "Hüquq elminin və təhsilinin müasir inkişaf tendensiyaları" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir .......... 23

*Sadiq Qurbanov.* Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bayraqdarıdır .......... 25

*Ариф Гулиев, Вероника Чекалюк.* Триумфальный финал 200 летнего конфликта. Сохранение традиций и ценностей: 20-летие избрания Президента и восстановление государственной независимости Азербайджанской Республики .......... 32

*Петро Воробей, Валерій Матвійчук, Олена Воробей.* Об'єктивна сторона кримінального правопорушення, передбаченого ч. 1. ст. 238 КК України: теоретичні та практичні проблеми .......... 40

*Ариф Гулиев, Этибар Алиев.* Народная память не забывает своих лидеров .......... 52

*Veronika Chekalyuk.* Strategic shaping of Ukraine's image for national and global audiences .......... 59

*Октай Эфендиев.* Ещё раз о некоторых актуальных международно-правовых аспектах урегулирования Южно-Кавказской безопасности .......... 76

*Etibar Əliyev, Elvin Hüseynzadə, Rövşən Tağıyev, Faiq Ağayev.* Yol-nəqliyyat hadisələri nəticəsində yaranan fövqəladə vəziyyətlərin idarə edilməsi .......... 90

*Nəsir Məmmədov.* Beynəlxalq humanitar hüquqda silahlı münaqişələr .......... 99

*Etibar Əliyev, Leyla Mirzəyeva.* Azərbaycanda "Elektron dövlət" quruculuğunun hüquqi əsasları: informasiya cəmiyyətində insan hüquqlarının təminatı və bu sahədə beynəlxalq təcrübə .......... 106

*Vəfa İsmayılova.* Kredit münasibətlərinin hüquqi tənzimlənməsində kredit əqdlərinin və kredit əməliyyatlarının xüsusiyyətləri .......... 119

*Könül Axundova.* Hakim statusundan irəli gələn tələblərin təminatının hüquqi əsasları .... 124


### *YENİ KİTABLAR*


"İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin 126-cı kitabı çapdan çıxıb .......... 133

"Beynəlxalq tibb hüququ haqqında ümumi müddəalar" .......... 135


### *RƏSMİ SƏNƏDLƏR*


"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu .......... 136

"Yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı .......... 143

**Jurnal Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində 19 fevral 2020-ci il tarixdə qeydə alınmışdır (Şəhadətnamə № 11479)**

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**

"Hüquqi müstəvi" elmi-nəzəri, təcrübi jurnalın
Redaksiyası" MMC-nin direktoru:
**Faiq HÜSEYNOV, hüquqşünas.**

**Əlaqə telefonları:**
**+ 99450-210-24-42**
**+ 99455-210-24-42**

"Zərdabi-Nəşr" MMC.
Bakı şəhəri,
Nizami rayonu, Keşlə qəsəbəsi,
Nizami Abdullayev küçəsi, 12.

Ofset üsulu ilə çap edilmişdir.
Formatı 70×100 1/16.
Şərti çap vərəqi 9,375. Tirajı 300.